Xalqın qəzeti!
# Xalq qəzeti
№ 104 (31073) 17 iyun 2026-cı il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Tolerantlıq və multikultural siyasət Azərbaycanı qlobal dinlərarası dialoq məkanına çevirib

## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefektini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Corc Ceykob Kuvakadı qəbul edib.**

Söhbət zamanı ölkəmizlə Müqəddəs Taxt-Tac arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrimizin inkişafında roluna toxunuldu. Bu baxımdan Corc Ceykob Kuvakadın ölkəmizin regionlarına da səfər edəcəyinin əhəmiyyəti qeyd olundu.

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Roma Papası XIV Leonun və Vatikanın dövlət katibi kardinal Pietro Parolinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına və Vatikanın dövlət katibinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vatikana səfərini və mərhum Roma Papası Fransisklə görüşünü, həmçinin onun ölkəmizə səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycanda tarixən bütün xalqların və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşaması məmnunluqla qeyd olundu, ölkəmizin tolerantlıq və multikulturalizm məkanı kimi dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına qlobal səviyyədə verdiyi mühüm töhfələr vurğulandı.

Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti qeyd edildi, ölkəmizdə bu cür ikinci kilsənin inşa olunduğu bildirildi.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlığa toxunuldu, Fondun bu ölkədə həyata keçirdiyi layihələrin mədəni irsin qorunması və dinlərarası dialoqun təşviqi baxımından rolu qeyd edildi.

Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Roma Papası XIV Leonun ölkəmizə səfərə dəvəti ilə bağlı məktubunu Corc Ceykob Kuvakada təqdim etdi.

*AZƏRTAC*

## Prezident İlham Əliyevin sosial media hesablarında Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib




**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib.**

**AZƏRTAC paylaşımı təqdim edir.**

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü münasibətilə paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 15 İyun - Milli Qurtuluş Günü münasibətilə sosial media hesablarında paylaşım edib.**

**AZƏRTAC paylaşımı təqdim edir.**

## Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb



Səhifə ⇨ 8

## Avropa İttifaqının Ermənistan “sevgi”sinin gizlinləri



Səhifə ⇨ 6

## Kənd təsərrüfatında 2030-cu ilə qədər yeni inkişaf mərhələsi formalaşacaq



Səhifə ⇨ 9-10

## Trampın Ukrayna siyasətində dönüş



Səhifə ⇨ 5

## Sergey Kopırkinin “yenidən dərk” məntiqi



Səhifə ⇨ 5

## “G7” sammitində Vaşinqton–Kiyev məsləhətləşməsi



Səhifə ⇨ 7

## Cənubi Qafqaz, sülh və “3+3”




Səhifə ⇨ 4

## İrəvanda siyasi hesablaşma dövrü başlayır



Səhifə ⇨ 6

## Aqrar sahədə rəqəmsal keçidin kadr hazırlığı



Səhifə ⇨ 12

## Ermənistanda da “Moldova modeli”?



Səhifə ⇨ 7

## Sülh, sabitlik və qarşılıqlı hörmət diplomatiyası



Səhifə ⇨ 4

# Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampı 80 illik yubileyi münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb.

Bu barədə Prezidentin "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib.

Məktubu təqdim edirik:

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

**Hörmətli cənab Prezident!**

Əlamətdar yubileyiniz – anadan olmağınızın 80 illiyi münasibətilə Sizə ən səmimi təbriklərimi yetirməkdən, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, güclü və qüdrətli dövlətin görkəmli Lideri kimi ali dövləti fəaliyyətinizdə daim uğurlar və yeni-yeni nailiyyətlər arzulamaqdan məmnunluq duyuram.

Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə və dərinləşməsində Sizin əvəzsiz xidmətləriniz vardır və biz bunu yüksək qiymətləndiririk. Keçən ilin avqustunda Ağ Evdə Sizinlə tarixi görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırdı. Əldə etdiyimiz bu möhtəşəm nailiyyət Sizin sarsılmaz iradənizin və əzminizin bariz göstəricisidir. Dövlətlərarası münasibətlərimizin inkişafına daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə təşəkkür edirik.

Biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq. Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda biz Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta Dəhlizin bir hissəsinə çevriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük.

Hörmətli cənab Prezident,

Sizinlə aramızdakı şəxsi münasibətləri, dostluğu, dərin hörmət və etimadı daim uca tutur, son bir il ərzində mehribanlıq və səmimiyyət şəraitində keçən məhsuldar görüşlərimizdən və təmaslarımızdan məmnunluq duyduğumu bildirirəm.

Yüksək səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə münasibətlərimizin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Azərbaycan-ABŞ əlaqələrini bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə daha da inkişaf etdirmək və möhkəmləndirmək qarşılıqlı əzmimiz təqdirəlayiqdir.

Əminəm ki, Azərbaycan ilə ABŞ arasında dostluğun və etibarlı tərəfdaşlığın dərinləşdirilməsi, səmərəli əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Dərin hörmət və ehtiramlarımı izhar edərək bir daha Sizə və ailənizə ən xoş arzularımı çatdırır, dost Amerika xalqının rifahı naminə məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ixracının dəstəklənməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixrac gömrük proseduru altında yerləşdirilməsi zamanı mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçılar tərəfindən ödənilmiş gömrük rəsmiləşdirilməsi üzrə gömrük yığımlarına görə, həmin malların növündən və ixrac olunduğu ölkədən asılı olaraq, habelə bu Fərmanın 4.1.2-ci yarımbəndinə əsasən müəyyən edilən yuxarı həddə nəzərə alınmaqla, dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya (bundan sonra – ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi) ödənilsin.

**2.** Müəyyən edilsin ki:

2.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi rüb ərzində ixrac gömrük proseduru altında yerləşdirilmiş Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarına görə mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçının müraciəti əsasında həmin rüb bitdikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödənilir;

2.2. bu Fərmanın məqsədləri üçün ixrac olunan malların Azərbaycan Respublikası mənşəli olması mənşə sertifikatı əsasında müəyyən edilir;

2.3. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi faktiki ixrac olunmuş mallara görə ödənilir;

2.4. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin tətbiq olunduğu müddətdə qeyri-neft-qaz mallarının ixracına münasibətdə gömrük nəzarətinin həyata keçirilməsinə, gömrük müşayiətinə və malların saxlancına görə gömrük yığımlarının məbləğinin artırılmasına yol verilmir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin:

3.1.1. 2026-cı ildə ödənilməsinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. 2027–2031-ci illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

3.1.3. şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.1.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac edildiyi ölkələrin (ölkə qruplarının) siyahısını;

4.1.2. bir ixrac gömrük bəyannaməsi üzrə ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi məbləğinin yuxarı həddini;

4.1.3. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin ödənilməsi ilə bağlı müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydasını;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5.** Bu Fərmanın 1-ci və 2-ci hissələri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2031-ci il sentyabrın 30-dək həyata keçiriləcək ixrac əməliyyatlarına münasibətdə tətbiq olunmaqla 2031-ci il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 16 iyun 2026-cı il**

# Cənubi Qafqazda sülh quruculuğu mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransda ürəkdən salamlayıram.

2022-ci ildən başlayaraq təşkil olunan bu mötəbər beynəlxalq tədbir müasir dövrdə baş verən mürəkkəb geosiyasi proseslər fonunda xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşviq etdiyi regional sülh və sabitlik mühitinin yaradılması ideyasının vacib tərkib hissəsinə çevrilən konfransın iştirakçılarının sayının ilbəil artması onun ümumi təhlükəsizliyə və beynəlxalq əməkdaşlığa gələcəkdə layiqli töhfələr verəcəyinə əminlik yaradır.

Müstəqilliyini bərpa etdikdən sonra işğala, beynəlxalq təhdidlərə və ədalətsizliyə məruz qalmış Azərbaycan hər zaman öz ərazi bütövlüyünün təmin olunması, vətəndaşlarının təhlükəsiz şəraitdə yaşaması uğrunda mübarizə aparmış, eyni zamanda dünya ölkələri arasında əməkdaşlıq və mehriban dostluq münasibətlərinin qurulmasına çalışmışdır. Uzun illər əsarət altında qalan torpaqlarımız 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi və 2023-cü ildə keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Ermənistan işğalından azad edilmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuşdur. Bununla, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalmış qətnamələrinin icrası Azərbaycan dövlətinin özü tərəfindən təmin edilmişdir.

Ölkəmiz regionda davamlı sülh və sabitlik mühitinin yaradılması və qorunması istiqamətində qətiyyətli siyasət həyata keçirməkdədir. Ötən il Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması Cənubi Qafqazda vəziyyəti tamamilə dəyişmişdir. Bu xüsusda, reallaşmaqda olan Zəngəzur dəhlizi həm Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan bölgəsini birləşdirəcək, həm də Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcəkdir.

Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması və BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi ölkəmizin postmünaqişə dövründə ardıcıl humanitar fəaliyyətinin bariz nümunəsidir. Bu Forumda Azərbaycan dünyanın 182 ölkəsini təmsil edən 60 minə yaxın iştirakçıya işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çağdaş şəhərsalma konsepsiyaları əsasında formalaşan müasir infrastrukturu və hazırda orada təhlükəsiz yaşayan 85 mindən çox azərbaycanlı üçün yaradılan layiqli həyat şəraitini təqdim etmişdir.

Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk Dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir.

Bu önəmli beynəlxalq konfrans nümunəsində ölkələr arasında, həmçinin cəmiyyətdə sağlam əməkdaşlıq və həmrəylik mühitinin qorunması üçün fərqli siyasi maraqları ifadə edən partiyaların konstruktiv dialoqa, məsuliyyətli davranışa və milli maraqlar əsasında birgə fəaliyyətə üstünlük verməsi qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir.

Əminəm ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanı xilas etməsi ilə əlamətdar olan Milli Qurtuluş Günü və tarixi Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi bu konfrans çevik mexanizm funksiyasını yerinə yetirərək iştirakçı ölkələr arasında davamlı əməkdaşlığın qorunmasına vacib töhfələr verəcəkdir.

Konfransın işinə uğurlar, təmsil etdiyiniz dost ölkələrin hər birinə əmin-amanlıq və rifah arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 12 iyun 2026-cı il**

# Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

**Əlahəzrət,**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Hazırda dostluğa, qarşılıqlı hörmət və etimada əsaslanan dövlətlərarası əlaqələrimiz, siyasi, iqtisadi-ticari, investisiya, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə səmərəli əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etməkdədir. Qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli gündəliyini daha da zənginləşdirə bilərik.

Əminəm ki, xalqlarımızın rifahı naminə ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da möhkəmləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Əlahəzrət, belə bir əlamətdar gündə Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ali fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 10 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident.**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə öz adımdan və Tunis xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, davamlı rifah, qardaş Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzu edirəm.

Ölkələrimiz arasında mövcud qardaşlıq bağlarını daha da möhkəmləndirmək və xalqlarımızın mənafeyi naminə əməkdaşlığı bütün sahələrdə inkişaf etdirmək üçün birlikdə çalışmaq əzmimizi bir daha təsdiqləyirəm.

Həmçinin fürsətdən istifadə edərək Sizi və qardaş Azərbaycan xalqını Qurban bayramı münasibətilə də səmimi-qəlbdən təbrik edir və xoş arzularımı bildirirəm. Uca Allahdan bu mübarək bayramın qardaş ölkələrimizə və xalqlarımıza bol ruzi-bərəkət, bütün İslam aləminə isə daha böyük güc, rifah və əmin-amanlıq gətirməsini arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

# Azərbaycan Prezidentinin Niderlandın Baş naziri ilə telefon danışığı

**İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Niderland Krallığının Baş naziri Rob Yetten arasında telefon danışığı olub.**

**Bu barədə Prezidentin "X" sosial şəbəkə hesabında paylaşım edilib.**

**AZƏRTAC paylaşımı təqdim edir:**

*"Bu gün Niderlandın Baş naziri Rob Yetten (@MinPres) mənə telefon zəngi etdi. Siyasi dialoqumuzu və iqtisadi əməkdaşlığımızı daha da dərinləşdirmək barədə razılığa gəldik. Biz, həmçinin regional proseslər ətrafında fikir mübadiləsi apardıq və mən Niderlandın bölgədə dayanıqlı sülhə və sabitliyə verdiyi dəstəyə görə məmnunluğumu bildirdim".*

# Əli Əsədov Şavkat Mirziyoyevlə görüşüb



**Daşkənd şəhərində işgüzar səfərdə olan Baş nazir Əli Əsədov iyunun 16-da Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb.**

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Özbəkistanın dövlət başçısına çatdırıb.

Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Özbəkistan münasibətlərinin strateji tərəfdaşlıq və müttəfiqlik əsasında uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Ticarət-iqtisadi, investisiya, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri geniş müzakirə edilib.

***XQ***

# Azərbaycan–Özbəkistan əməkdaşlıq sənədləri imzalanıb



**İyunun 16-da Özbəkistan tərəfinin dəvəti ilə V Daşkənd Beynəlxalq İnvestisiya Forumunda iştirak etmək üçün bu ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovun iştirakı ilə iki ölkə arasında sənədlər imzalanıb.**

Nazirlər Kabinetindən bildiriblər ki, sənədlər "AzerGold" QSC-nin iştirakı ilə Özbəkistanda qızıl yatağının birgə işlənilməsini, həmçinin "Azərbaycan Beynəlxalq Bankı" ASC ilə Özbəkistanın aidiyyəti qurumu arasında bank sahəsində əməkdaşlığı və "NEQSOL Holding" şirkətinin iştirakı ilə Özbəkistanda əhəmiyyətli faydalı qazıntıların birgə işlənilməsini nəzərdə tutur.

***XQ***

# Milli Məclis komissiyası: Fransanın Azərbaycana qarşı təhdidləri davam edir

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) Fransanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər və empirik təhlillər nəticəsində müəyyən edib ki, Fransa Respublikasının Azərbaycan Respublikasına qarşı özündə hibrid təhdidlərin geniş spektrli komponentlərini ehtiva edən fəaliyyətləri hələ də davam edir.

Xüsusilə də 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdən sonra Fransa tərəfi diplomatik çərçivəni aşaraq, regiondakı beynəlxalq hüquqa zidd maraqlarını təmin etmək məqsədilə müxtəlif vasitələr, platformalar və alətlərlə ölkəmizə qarşı hibrid təhdidlər yaratmağa çalışır.

Azərbaycan ilə Ermənistan arasında hazırda müşahidə edilən kövrək sülh prosesinə zərbə vuran iddialar, beynəlxalq təsisatlarda səsləndirilən birtərəfli mövqelər, Fransa mediası və məhkəmə-hüquq sistemində davam edən tendensiyalar onu deməyə əsas verir ki, bu təhdidlər Azərbaycanın daxili işlərinə qarışmağa, xarici siyasət kursuna təsir etməyə, beynəlxalq arenadakı mövqeyini zəifləmtəyə və regionda sabitliyi pozmağa hesablanıb.

Fransa dövlətinin və ona bağlı aktorların hibrid təhdidləri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

• ***"Lawfare", yəni hüquqi vasitələrlə təzyiq etmək yolu ilə Fransa parlamentinin hər iki palatasının (Senat və Milli Assambleya) 2020-ci ilin noyabrından başlayaraq dəfələrlə Azərbaycanı hədəf alan, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün əleyhinə olan qətnamələr qəbul etməsi;***

Diplomatik və siyasi təzyiq vasitəsi kimi istifadə edilən bu sənədlərin hüquqi qüvvəsi məhdud olsa da, onlar Fransanın təsir dairəsinin və erməni lobbisinin güclü olduğu digər ölkələrdə Azərbaycana qarşı oxşar yanaşmaların formalaşması məqsədilə qəbul edilir. Parlamentlərin bu cür birtərəfli və qərəzli sənədləri beynəlxalq arenada ölkəmiz barədə mənfi imic formalaşdırmağa, legitim mövqeyimizi zəiflətməyə, regionda sülhə və sabitliyə töhfə vermək əvəzinə, süni gərginlik yaratmağa xidmət edir.

• ***Beynəlxalq təşkilat və təsisatlarda, regional platformalarda Azərbaycan əleyhinə aktiv fəaliyyətin aparılması;***

İkinci Qarabağ müharibəsindən sonra Fransanın bəzi dövlət rəsmiləri, diplomatları, parlamentariləri və ictimai xadimləri BMT və onun qurumları, Avropa İttifaqının (Aİ) institutları (xüsusən Avropa Parlamenti), Avropa Şurası, AŞPA, ATƏT, eləcə də Beynəlxalq Frankofoniya Təşkilatı kimi platformalardan istifadə edərək Azərbaycanın maraqlarına zidd qərar və sənədlərin qəbul edilməsinə cəhdlər göstərib. Bu addımlar ölkəmizin beynəlxalq hüquqa uyğun hərəkətlərinə baxmayaraq onu təcrid etmək, nüfuzdan salmaq və müəyyən beynəlxalq əməkdaşlıq çərçivələrindən kənarlaşdırmaq məqsədilə edilib.

• ***Fransız mediasında Azərbaycana qarşı mənfi imicin formalaşdırılması;***

Fransa mətbuatında Azərbaycanın genişmiqyaslı şəkildə mənfi imicinin yaradılması artıq davamlı xarakter daşıyır. Təkcə may və iyun ayları ərzində Fransa mediasında Azərbaycan əleyhinə 40-a yaxın məqalənin dərc olunması, onlarla telereportajın hazırlanması mənfi təbliğatın intensivliyini göstərir. Fransa mediası Azərbaycana qarşı qərəzli, təhriflərə əsaslanan və dezinformasiya xarakteri daşıyan məlumatlar yaymaqla hibrid təhdidlərin mühüm cəbhəsinə çevrilib.

• ***Fransa mediasında radikal müxalifətçilərə birtərəfli qaydada tribuna verilərək Azərbaycanın daxili işlərinə birbaşa qarışılması;***

Fransa mediasında Azərbaycanın daxilində və xaricində siyasi çəkisi olmayan bəzi radikal müxalifət nümayəndələrinin yazılarına və müsahibələrinə geniş yer verilərək ölkəmizdəki real vəziyyətin təhrif olunmasına, Fransa ictimaiyyətini çaşdırmağa yönəlmiş çağırışlar edilməsinə şərait yaradılır. Media azadlığı adı altında radikalların Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini stimullaşdırmağa hesablanmış bu addımlar daxili sabitliyi pozmaq, habelə sosial narazılıq və ölkədə qütbləşmə yaratmaq məqsədlərinə xidmət edən elementdir. Obyektiv jurnalistika prinsiplərinə zidd olaraq, materiallarda Azərbaycan dövlətinin rəsmi mövqeyinə və ya alternativ fikirlərə yer verilməməsi isə bir daha sübut edir ki, bu fəaliyyətlər həm də Fransa cəmiyyətində ölkəmizlə bağlı mənfi rəyin formalaşdırılması məqsədilə biləərəkdən aparılır.

• ***Fransada siyasi sığınacaq adı ilə məskunlaşan azərbaycanəsilli radikal şəxslərdən hibrid təhdid alətləri kimi istifadə olunması;***

Bu kimi şəxslərə Fransanın rəsmi və qeyri-rəsmi dairələrinin davamlı dəstək verməsinin, onların "pozulan hüquqları"nın müxtəlif vasitələrlə, süni şəkildə və illərlə gündəmdə saxlanılmasının, demokratik dəyərlər pərdəsi altında siyasi motivli iddiaların önə çıxarılmasının yeganə məqsədi dövlətimizi beynəlxalq ictimaiyyət qarşısında "repressiv rejim" kimi təqdim etməyə və etibarsızlaşdırmağa yönəlib.

• ***Erməni lobbisinin koordinasiyası ilə anti-Azərbaycan fəaliyyətlərin aparılması;***

Fransada güclü erməni lobbisinin təsiri altında olan bəzi dövlət rəsmiləri, parlamentarilər və yerli idarəetmə orqanlarının rəhbərlərinin (merlər) anti-Azərbaycan fəaliyyətləri müntəzəm xarakter daşıyır. Fransız siyasətçilər güclü siyasi və iqtisadi əlaqələrə malik erməni lobbisinin təsiri altında tez-tez ermənipərəst mövqelərdən çıxış edir, Aİ daxilində və beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə əlaqələndirilmiş formada fəaliyyət göstərirlər. Bu fəaliyyətlər Azərbaycanın beynəlxalq hüquqla tanınmış suverenliyini və ərazi bütövlüyünü pozmağa yönəlir, Fransa ilə ikitərəfli əlaqələrdə böyük gərginlik yaradır.

• ***Ermənipərəst qruplar, Fransanın maliyyələşdirdiyi beynəlxalq QHT-lər, "insan hüquqları" təşkilatları və "araşdırmaçı jurnalist" şəbəkələri tərəfindən kampaniyaların idarə olunması;***

Hibrid təhdidlərin ən geniş yayılmış və təsirli elementlərindən biri də media və sosial media üzərindən aparılan informasiya kampaniyalarıdır. Fransa tərəfindən ya bilavasitə, ya da dolayı yolla dəstəklənən adıçəkilən qruplar onlayn platformalarda Azərbaycan əleyhinə müxtəlif mövzularda genişmiqyaslı kampaniyalar aparırlar. Bu kampaniyalar vasitəsilə saxta xəbərlər, təhrif olunmuş faktlar və təxribat xarakterli məlumatlar yayılır. Məqsəd ölkənin beynəlxalq imicinə xələl gətirmək və Azərbaycanın dövlət institutlarına qarşı inamsızlıq yaratmaqdır. Bu kampaniyalara bot şəbəkələri və saxta profillər də qoşularaq Azərbaycanla bağlı beynəlxalq ictimai rəyin manipulyasiya edilməsinə cəhd göstərilir.

• ***Fransanın Azərbaycanda casusluq fəaliyyəti;***

Fransa özünün hibrid təhdid strategiyasının mühüm hissəsi kimi ölkələrimiz arasında münasibətləri sarsıtmağa yönəlmiş casusluq fəaliyyəti ilə də məşğul olub. Bu qeyri-qanuni fəaliyyət regiondakı proseslərə təsir etməyə, Azərbaycanın daxili siyasi vəziyyətini, iqtisadi inkişafını, hərbi potensialını və strateji maraqlarını öyrənməyə, eləcə də Azərbaycan və digər ölkə vətəndaşlarından ibarət agentura şəbəkələri qurmağa yönəlib. Qarşıya qoyulan məqsədlər sırasında ölkə daxilində dezinformasiya yaymaq, müəyyən qruplar arasında narazılıq yaratmaq və sabitliyi pozacaq digər əməliyyatlar həyata keçirmək olub.

• ***Ermənistana silah satışı və Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) dəstəklənməsi;***

Fransanın Ermənistana fəal şəkildə silahlar ötürməsi və bölgədə əsasən kəşfiyyat fəaliyyəti ilə məşğul olan EUMA-nı birbaşa dəstəkləməklə onu şəxsi alətinə çevirməsi Cənubi Qafqazda hərbi balansı dəyişdirməyə, gərginliyi artırmağa və sülh prosesini əngəlləməyə yönəlmiş addımlar kimi qiymətləndirilir. Komissiyanın 2025-ci il aprelin 24-də təqdim etdiyi "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" başlıqlı xüsusi araşdırmasında məsələ ilə bağlı geniş məlumat verilib.

(https://meclis.gov.az/documents/EUMA_aprel_2025.pdf)

O da qeyd olunmalıdır ki, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə Fransanın hibrid təhdidlərinin təsirini heçə endirmək istiqamətində əks-tədbirlərin uğurla davam etdirir. Məhz bu tədbirlərin və Fransanın uğursuz həmlələrinin nəticəsidir ki, qarşı tərəf Azərbaycana qarşı hər dəfə yeni, dost olmayan hansısa əməllərə əl atır və müxtəlif platformalar vasitəsilə qondarma ittihamlar irəli sürürür.

Qeyd edilənləri nəzərə alaraq, Komissiya Fransanın dövlət və hökumət rəsmilərinə deyil, Fransa xalqına birbaşa müraciət etməyi zəruri hesab edir.

Sadalanan faktlar da göstərir ki, bir sıra fransız siyasətçilər və dövlət strukturları cəmiyyətin siyasi idarəçiliyə olan inamsızlığını düşmənə sabotaj mexanizm kimi istifadə ... lindəki ağır sosial-iqtisadi çətinliklərdən yayındırmaq məqsədilə Azərbaycanın simasında "xarici düşmən" obrazı yaratmağa, erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr çərçivəsində dövlətimizə qarşı hüquqi-etik normalarla uzlaşmayan fəaliyyətlər həyata keçirməyə üstünlük verirlər.

Azərbaycan xalqı hər zaman Fransa xalqını özünə dost hesab edib və bundan sonra da edəcək. Dövlətimiz müstəqillik tarixi boyunca Fransa Respublikası ilə dostluğa, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa hazır olduğunu hər zaman bəyan edib.

Fransa cəmiyyəti bilməlidir ki, öz hökumətinin bu cür qeyri-dost fəaliyyətləri, xarici siyasətdəki hərəkətləri Fransaya siyasi və iqtisadi dividendlər gətirmək yerinə, onun beynəlxalq imicini ləkələyərək daha da korlayır".

# Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın Təhlükəsizlik Şurasının katibi ilə işgüzar görüşü



**İyunun 14-də Ermənistanın Dilican şəhərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ilə Ermənistan Respublikasının Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında işgüzar görüş keçirilib.**

Görüş zamanı tərəflər Azərbaycan-Ermənistan sülh gündəliyi ilə bağlı bir sıra məsələləri müzakirə ediblər. Regionda davamlı sülhün və sabitliyin təşviqinə yönəlmiş səylər çərçivəsində ikitərəfli dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin iki ölkənin vətəndaş cəmiyyətləri arasında etimad quruculuğu tədbirləri barədə fikir mübadiləsi aparıblar.

Hikmət Hacıyev və Armen Qriqoryan işçi səviyyəsində təmasların davam etdirilməsi barədə qərar qəbul edib, növbəti görüşün Azərbaycanda keçiriləcəyini təsdiqləyiblər.

*XQ*

# Yeni qanun layihələri təsdiq üçün hazırdır



**İyunun 16-da Milli Məclisin İnsan hüquqları komitəsinin növbəti iclası keçirilib. Komitənin sədri Zahid Oruc iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib.**

Əvvəlcə, iclasda "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim edilib.

Komitə sədri məsələ barədə danışaraq, layihənin dövlətin milli informasiya məkanının hibrid hücumlardan qorunması, regional və beynəlxalq məkanda yaranan çağırışlara uyğun media strukturlarının gücləndirilməsi, institusional mexanizmlərin təkmilləşdirilməsi baxımından əhəmiyyətli olduğunu deyib. O, ölkə Prezidentinin medianın inkişafına daim yüksək qayğı və diqqət göstərdiyini vurğulayıb.

Bildirilib ki, "Media haqqında" Qanunun qəbulundan ötən dövr ərzində informasiya mühitinin sağlamlaşdırılması və qorunması sahəsində qəbul edilən yeni hüquqi aktlar öz müsbət nəticələrini göstərib, informasiya coğrafiyamız daha da genişlənib və milli maraqlarımızın müdafiəsində mətbuatın rolu artıb. Media sahəsində aparılan islahatlar çərçivəsində hazırda iki qurum fəaliyyət göstərir – Azərbaycan Respublikasının Audiovizual Şurası və Medianın İnkişafı Agentliyi (MEDİA) və hər iki qurumun fəaliyyəti bir-birini tamamlayır.

Eyni zamanda, qeyd olunub ki, milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Layihədə "Media haqqında" Qanuna bununla bağlı dəyişiklik nəzərdə tutulur. Təkliflərin mahiyyəti ondan ibarətdir ki, mövcud Audiovizual Şuranın və MEDİA Agentliyinin strukturları əsasında kollegial idarəetmə sisteminə malik vahid bir qurum – Media və Yayım Şurası yaradılır. Belə ki, "Media haqqında" Qanunun 43-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı Şura olacaq. Qanun layihəsində, həmçinin Şura ilə bağlı vəzifə və öhdəliklərin öz aksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi medianın müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verir. Təklif olunan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, eləcə də yerli medianın inkişafına təkan verməyə şərait yaradacaq.

Sonra məsələ ilə bağlı müzakirələrdə çıxış edən deputatlar qanun layihəsinin mütərəqqi xarakter daşıdığını, təklif olunan dəyişikliklərin mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər.

Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov və Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli son dövrlər süni intellektin və digər texnoloji yeniliklərin həyatımızın bütün sahələri ilə yanaşı, media sektoruna da nüfuz etdiyini bildiriblər. Yeni reallıqların media mühitinə və ümumilikdə informasiya siyasətinə yeni yanaşmaların tətbiqini zəruri etdiyini, təklif olunan islahat xarakterli dəyişikliklərin məhz bu məqsədə xidmət etdiyini söyləyiblər.

Sonra iclasda İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) baxılıb.

İclasda, bununla yanaşı Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) nəzərdən keçirilib. Bildirilib ki, qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Komitə iclasında təqdim edilən hər üç qanun layihəsi baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olunub.

*XQ*

# QHT-lər ABŞ-ın ermənipərəst konqresmenini cavablandırıb

**Azərbaycanın bir qrup QHT rəhbəri, hüquq müdafiəçisi ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə məktub ünvanlayıb.**

Məktubda konqresmen Brad Şermanın Ruben Vardanyan və digər müharibə cinayətkarlarının azad edilməsi, 907-ci düzəlişin qüvvədə saxlanması tələbi ilə bu Komitəyə təqdim etdiyi layihəyə kəskin etiraz edilir.

Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri bildiriblər ki, Brad Şermanın azadlığa buraxılmasını tələb etdiyi şəxslər Azərbaycan xalqına qarşı insanlıq əleyhinə cinayətlər törətmiş, yüz minlərlə insanın köçkün vəziyyətinə düşməsinə səbəb olmuş, mülki infrastrukturun və mədəni irsin dağıdılmasında, soyqırımı, ekosid, urbisid və mədəni qırğın aktlarında birbaşa rol oynamış müharibə cinayətkarlarıdır. "Yerli qanunvericiliyə və beynəlxalq hüquqi alətlərə uyğun olaraq, Azərbaycanın tam ixtiyarı var ki, bu cinayətləri araşdırsın, günahkarları məhkum etsin", - deyə məktubda diqqətə çatdırılır.

Qeyd olunur ki, bununla bağlı məhkəmə prosesləri də açıq formada aparılıb, təqsirləndirilən şəxslərə zəruri hüquqi imkanlar yaradılıb.

"Azərbaycan ilə Ermənistanın davamlı sülhə və normallaşmaya doğru irəlilədiyi bir dövrdə bu müsbət impulsu sarsıdan təşəbbüslərin arxasındakı məntiqi anlamaq çətindir... Prezident Donald Tramp və onun administrasiyası Azərbaycanla Ermənistan arasında dialoqu və normallaşmanı dəstəkləsə də, Şermanın təşəbbüsü bu səylərə ziddir və əldə olunan irəliləyişin qarşısını almağa yönəlib. Ədalət, hesabatlılıq, barışıq və sülh birlikdə irəliləməlidir. Ədalət olmadan sülh, hesabatlılıq olmadan barışıq da ola bilməz", - deyə Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri vurğulayıblar.




*XQ*

# Cənubi Qafqaz, sülh və “3+3”

## *Hakan Fidanın Moskva səfəri ilə bağlı bəzi qeydlər*

**Türkiyənin xarici işlər naziri Hakan Fidanın Rusiyaya səfəri regionun həyatında mühüm hadisədir. Səfər gündəliyinə diqqət yetirsək, müzakirəsi aparılan məsələlərin beynəlxalq baxımdan da müstəsna əhəmiyyət daşıdığını söyləmək mümkündür.**




Nəzərə alaq ki, Moskvada tərəflər, yəni H.Fidan və rusiyalı həmkarı Sergey Lavrov Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki durum ətrafında fikir mübadiləsi apardılar. Ehtimal var ki, onlar müəyyən parametrlər üzrə ortaq məxrəcə gələ biliblər. Bu barədə qəti fikir söyləmək olmasa da, hər iki tərəfin açıqlaması nikbinlik üçün müəyyən əsas verir.

TASS agentliyinin məlumatına görə, türkiyəli nazir deyib ki, rusiyalı həmkarını Ankaranın Rusiya-Ukrayna münaqişəsində vasitəçi qismində çıxış etməyə və ya görüşlərin keçirilməsi üçün platforma təqdim etməyə hazır olduğu barədə məlumatlandırıb: “Həmkarımla apardığımız danışıqlarda Türkiyənin Ukrayna ilə bağlı müzakirələrə ev sahibliyi etməyə hazır olduğunu çatdırdıq. Ankara tərəfləri yenidən danışıqlar masasına qaytarmağa ümid bəsləyir”.

Türkiyə XİN rəhbəri onu da bildirib ki, ölkəsinin fəal iştirakı vəziyyətin sabitsizləşməsinin qarşısını almaq istəyindən irəli gəlir. Bu fikir heç də təsadüf sayıla bilməz. Çünki Ankara hərbi əməliyyatların nəzarətdən çıxaraq, daha geniş miqyas alması ehtimalından ehtiyatlanır. Elə H.Fidan da bu narahatlığı dilə gətirib: “Türkiyə dövləti olaraq müharibənin başa çatması üçün əlimizdən gələn hər şeyi etməyə hazırıq. Bu, vasitəçilik roluna da aiddir. İstər birbaşa vasitəçi kimi çıxış etmək, istərsə də vasitəçilik səyləri üçün platforma təqdim etmək olsun”.

S.Lavrovun bildirdiyinə gəlincə, o, Rusiyanın Ukrayna münaqişəsinin nizamlanması ilə bağlı ABŞ vasitəçiliyi çərçivəsində irəli sürülən təşəbbüslərə sadiq qaldığını bildirib. Yəni yalnız Birləşmiş Ştatların vasitəçilik xətti məqbuldur. Nazir, habelə, Avropa ölkələrinin vasitəçilik cəhdlərinə qarşı çıxaraq, Moskvanın ultimatum dilini qəbul etməyəcəyini vurğulayıb.

H.Fidanın Moskva səfərini vacib edən məqamlardan biri də gündəlikdə Cənubi Qafqazdakı durumun müzakirəsinin olmasıdır. Duruma isə Azərbaycan–Ermənistan sülh prosesi və regional kommunikasiyaların açılması məsələsi daxildir. Əlbəttə, “3+3” regional məşvərət fomatının və Türkiyə-Ermənistan normallaşmasının da görüşün müstəsna müzakirə predmetinə çevrildiyini söyləmək mümkündür. Hərçənd mediada yer almış məlumatlarda H.Fidan-S.Lavrov təmasının sırf Ankara-İrəvan münasibətləri ilə bağlı seqmenti bir o qədər diqqət çəkmir.

Qeyd edək ki, H.Fidanın Rusiyaya səfərinin Ermənistandakı parlament seçkilərindən sonraya təsadüf etməsi özlüyündə maraqlı məqamdır. Heç şübhəsiz, Baş nazir Nikol Paşinyanın “Mülki müqavilə” partiyasının seçkilərdə qalib gəlməsi hay hakim komandasının legitimliyini yeniləyib. Bu o deməkdir ki, İrəvanın kritik qərarlar qəbul etmək imkanları əvvəlkindən daha genişdir. Mövcud durumun Rusiyada hansı reaksiyalar doğuracağı isə maraqlıdır.

Şimaldan eşidilən bəyanatlar Paşinyanın qalibiyyətini legitim kimi tanımaqdan uzaqdır. Halbuki, Türkiyədə əksini düşünürlər. Deməli, mövcud istiqamətdə Ankara-Moskva anlaşmasına ehtiyac var. Ehtiyac həm də o səbəbdən var ki, gerçəkləşdiriləcək proseslər Rusiya tərəfindən onun təsir zonasına müdaxilə qismində qiymətləndirilməsin, Kremldə qıcıq yaranmasın.

Onu da vurğulayaq ki, indiki məqamda Rusiyaya təminat lazımdır. Bu baxımdan Türkiyənin oynayacağı rol mühüm əhəmiyyətə malikdir. Rusiya əmin olmalıdır ki, Cənubi Qafqazda regional kommunikasiyaların açılması xüsusundakı fəaliyyət onun maraq və mənafelərinə zidd hansısa motivdən uzaqdır. Bunu söyləmək üçün bir məqama diqqət yetirək.

Bəzi siyasi müşahidəçilər hesab edirlər ki, Ermənistandakı parlament seçkilərinin nəticələri təkcə daxili siyasi gündəmi deyil, bütövlükdə, Cənubi Qafqazda qüvvələr nisbətini köklü şəkildə dəyişir. Axı Rusiyada uzun illər Moskvanın əsas strateji tərəfdaşı statusunun verdiyi üstünlüklərdən yararlanan İrəvanın hazırda, faktiki olaraq, əvvəlki müdafiə doktrinasının birtərəfli şəkildə ləğvinə təşəbbüs göstərdiyi qənaətindədirlər. Ekspertlərin fikrincə, bu yanaşma Rusiyanı Cənubi Qafqaz siyasi platformasında radikal addımlara sövq edə bilər. Hərçənd, onların bir qismi belə addımların heç bir nəticə verməyəcəyi düşüncəsindədir. Hər bir halda, Rusiyanı mövcud istiqamətdə də, belə demək mümkünsə, arxayın salmaq lazımdır ki, əslində, H.Fidanın timsalında Türkiyənin təklif edəcəkləri Kreml üçün etiraz bildirilməsi mümkünsüz məsələlərdir.

Ümumən, parlament seçkilərindən sonra Ermənistanın xarici siyasət kursunun necə davam edəcəyi, Rusiyanın regiondakı təsirinin hansı səviyyədə qalacağı və Bakı-İrəvan sülh sazişinin nə vaxt imzalana biləcəyi məsələləri aktuallaşıb. H.Fidanın Moskva səfərində Cənubi Qafqazın ayrıca mövzu kimi qeyd olunması bunun göstəricisi hesab edilə bilər. “Reuters”in məlumatına görə türkiyəli nazirin Rusiyaya səfərinin gündəliyinə Cənubi Qafqaz mövzusu məhz Paşinyanın seçki qələbəsindən sonra daxil edilib.

Yeri gəlmişkən, S.Lavrov da H.Fidanla görüşündə Cənubi Qafqaz mövzusundan söz açıb. Ancaq bir qədər fərqli. O deyib ki, Qara dəniz regionunda, eləcə də Cənubi Qafqazda, Yaxın Şərqdə və Şimali Afrikada təhlükəsizliyin təmin edilməsi məsələlərində sıx əməkdaşlıq etmək barədə razılığa gəldik: “Bu bölgələrin hamısında türkiyəli həmkarlarımızla yaxşı əlaqələr qurulub və biz qarşılıqlı şəkildə bir-birini tamamlayan əsasda fəaliyyət göstəririk”.

Bilavasitə Cənubi Qafqaza gəldikdə, Lavrov türkiyəli həmkarı ilə mövcud platformadakı vəziyyəti də müzakirə etdiklərini diqqətə çatdırıb. Sonda Lavrovun diqqətə çatdırdığımız fikirləri kontekstində bir məqamı xatırlatmaqla yazımıza yekun vuraq. Qeyd edək ki, vaxtilə “3+3” formatı yaradılanda Rusiya Azərbaycan-Ermənistan sülhünü bu formatdan ayrı tuturdu. Lavrovun özünün də bununla bağlı bəyanatları olub və o zaman Qarabağda separatçı rejim varlığını sürdürürdü. İndi isə Rusiya XİN başçısı bildirib: “Bu mühüm regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə ölkələrimizin regional əməkdaşlıq platforması olan “3+3” formatında iştirakının davam etdirilməsi kömək edəcək”. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülh, sabitlik və qarşılıqlı hörmət diplomatiyası

## *Azərbaycanın BMT çərçivəsində çoxtərəfli və təşəbbüskar fəaliyyəti*



**Suveren dövlətlərin çoxtərəfli diplomatiya çərçivəsində əldə etdiyi uğurlar beynəlxalq hüququn inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən hesab olunur. Nyu-York şəhərində keçirilən seçkilər Azərbaycanın qlobal miqyasda artan nüfuzunu və diplomatik gücünü nümayiş etdirən mühüm hadisə kimi tarixə düşüb.**

İyunun 15-də Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta tərəf dövlətlərin 42-ci iclası çərçivəsində təşkil edilən səsvermədə Azərbaycan Respublikasının namizədinin BMT-nin İnsan Hüquqları Komitəsinin 2027-2030-cu illər üzrə üzvlüyünə seçilməsi beynəlxalq hüquqi arenada əldə edilən yeni diplomatik uğurdur. Ciddi beynəlxalq rəqabət mühitində reallaşan seçkilərdə Azərbaycanla yanaşı, 16 ölkənin təmsilçisi Komitədə mövcud 9 vakant yer uğrunda gərgin mübarizə aparıb. Azərbaycan tərəfindən namizədliyi irəli sürülən Cenevrə Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq hüquq professoru Fuad Zərbiyev səsvermənin ilkin mərhələsində ən yüksək səs toplayaraq, 131 iştirakçı dövlətin dəstəyini qazanaraq Komitəyə üzv seçilib.

BMT-nin İnsan Hüquqları Komitəsi 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın icrasına nəzarət edən ali beynəlxalq orqandır. Sözügedən Komitə 18 müstəqil ekspertdən ibarət olmaqla, müvafiq paktın tərəfdarı olan dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi vəziyyətini hərtərəfli təhlil edir, qiymətləndirir və beynəlxalq insan hüquqları hüququnun təkmilləşdirilməsi prosesində həlledici rol oynayır. Komitənin fəaliyyəti suveren ölkələrin daxili hüquq sistemlərinin beynəlxalq standartlara uyğunlaşdırılması işinə birbaşa təsir göstərir. Müvafiq səbəbdən qeyd olunan struktura üzv seçilmək hər hansı dövlət üçün qlobal hüquq yaradıcılığı prosesində iştirak etmək imkanı deməkdir. Dövlətlərin insan hüquqları sahəsindəki nüfuzu və diplomatik potensialı məhz belə yüksək səviyyəli seçkilərdə sınaqdan çıxır.

**ARAYIŞ:** *Namizədliyi irəli sürülən Fuad Zərbiyev elmi və praktiki fəaliyyəti ilə qlobal miqyasda tanınan yüksəkixtisaslı mütəxəssisdir. O, beynəlxalq hüququn müxtəlif sahələri üzrə geniş tədqiqatların müəllifidir və dünyanın ən nüfuzlu təhsil ocaqlarında mühazirələr oxuyur. Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsini bitirdikdən sonra təhsilini xaricdə davam etdirən Fuad Zərbiyev Strasburq Universitetində və Cenevrə Beynəlxalq Münasibətlər İnstitutunda elmi dərəcələr alıb, habelə Harvard Hüquq Məktəbinin magistr proqramını uğurla tamamlayıb. Haaqa Beynəlxalq Hüquq Akademiyasının diplomantı olan professor, eyni zamanda, müxtəlif beynəlxalq məhkəmə və arbitraj proseslərində məsləhətçi qismində iştirak edir.*

Sözügedən seçkilər olduqca gərgin rəqabət şəraitində baş tutub. Üzv dövlətlər tərəfindən irəli sürülən 16 namizədin hamısı yüksək elmi potensiala və diplomatik təcrübəyə malik idi. Belə mürəkkəb şəraitdə səsvermənin ilkin mərhələsindəcə qələbə qazanmaq Azərbaycan diplomatiyasının apardığı fəal lobbiçilik fəaliyyətinin və beynəlxalq münasibətlər sistemində qurduğu qarşılıqlı etimada əsaslanan tərəfdaşlıq əlaqələrinin məntiqi nəticəsidir. Seçki kampaniyası dövründə xarici siyasət idarəsinin həyata keçirdiyi sistemli təbliğat işləri, dünya paytaxtları ilə aparılan intensiv məsləhətləşmələr Azərbaycan Respublikasının namizədinin üstünlüklərini aşkar şəkildə ortaya qoyub.

Müxtəlif güc mərkəzləri arasında qarşıdurmanın kəskinləşdiyi çağdaş dövrdə suveren dövlətlərin çoxtərəfli təşkilatlarda təmsilçiliyi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan uzun illər ərzində xarici siyasətində ikitərəfli əlaqələrlə yanaşı, çoxtərəfli diplomatik vasitələrə də geniş yer ayırmışdır. Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsi, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü zamanı nümayiş etdirilən prinsipiallıq, habelə digər qlobal platformalardakı fəallıq ölkəmizin diplomatik manevr imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Müasir şəraitdə BMT-nin İnsan Hüquqları Komitəsinə üzv seçilmək Azərbaycanın qlobal idarəçilik mexanizmlərinə geniş inteqrasiya etmək niyyətinin göstəricisidir.

Beynəlxalq hüquqi legitimlik suveren dövlətlərin xarici siyasət strategiyasının əhəmiyyətli sütunlarından hesab edilir. Azərbaycanın son illər həyata keçirdiyi xarici siyasət, milli maraqların qorunması ilə beynəlxalq hüquq normalarının uzlaşdırılması prinsiplərinə söykənir. Xüsusilə regional təhlükəsizlik, ərazi bütövlüyü və suverenliyin təmin edilməsi istiqamətində əldə olunan tarixi nailiyyətlər rəsmi Bakının xarici siyasət platformasını daha da gücləndirib. Dövlətlərin daxili və xarici siyasətində insan hüquqları məsələləri tez-tez siyasi təzyiq vasitəsi kimi istifadə edildiyi halda, Azərbaycanın belə ali orqana namizəd irəli sürməsi və böyük səs çoxluğu ilə dəstəklənməsi dövlətin qətiyyətli mövqeyini və hüquqi şəffaflığını göstərir.

BMT-nin müvafiq orqanları beynəlxalq hüququn tətbiqi və interpretasiyasında əvəzedilməz funksiyanı yerinə yetirir. İnsan Hüquqları Komitəsi dövlətlərin dövri hesabatlarını dinləyərkən mühüm siyasi tövsiyələr verir. Sözügedən tövsiyələr sonradan qlobal hüquq müstəvisində standart kimi qəbul olunur. Azərbaycanın belə platformada təmsil olunması ölkənin insan hüquqları diplomatiyasında müdafiə mövqeyindən fəal şəkildə hücum və yaradıcılıq mövqeyinə keçdiyini nümayiş etdirir. Səsvermənin rəsmi nəticələri təhlil edildikdə, Azərbaycan Respublikasının namizədinin qazandığı uğurun miqyası daha aydın görünür. Seçkilərdə ümumilikdə 16 namizəd iştirak etmiş, onlardan yalnız 9 nəfəri Komitəyə üzv seçilmək hüququ qazanmışdır. Azərbaycan Respublikasının namizədi 131 səslə bütün rəqiblərini geridə qoyaraq ilk sırada qərarlaşıb. Növbəti yerləri müvafiq olaraq 129 səslə Niderland, 128 səslə Yaponiya, 115 səslə Seneqal, 111 səslə Toqo, 108 səslə Kot-d'İvuar və Çexiya, 102 səslə Qvatemala və 101 səslə Uruqvay tutaraq Komitəyə üzv seçilmişlər. Digər tərəfdən, kifayət qədər böyük diplomatik resurslara malik olan Litva 83 səs, Braziliya və Mali 81 səs, Burundi 67 səs, Meksika 56 səs, Panama 47 səs və Uqanda 45 səs toplasalar da, seçki limitini keçə bilməyiblər. Həmin rəsmi statistika Azərbaycanın qazandığı diplomatik qələbənin təsadüfi xarakter daşımadığını, tamamilə obyektiv və böyük üstünlüklə əldə olunduğunu nümayiş etdirir.

Azərbaycan təmsilçisinin BMT-nin İnsan Hüquqları Komitəsinə üzv seçilməsi dövlətin çoxşaxəli və sistemli xarici siyasət strategiyasının uğurudur. Bu tarixi nailiyyət Azərbaycanın beynəlxalq müstəvidə güclənən mövqeyini təsdiq edir. Vaxtilə ölkənin insan hüquqları sahəsindəki fəaliyyətini qərəzli şəkildə qınayan subyektlər hazırkı real və qəti nəticə qarşısında deməyə söz tapmır, səssiz qalmağa məcbur olurlar. Azərbaycan Respublikasının qazandığı səs beynəlxalq ictimaiyyətin dövlətin siyasətinə, hüquqi şəffaflığına və elmi elitasına olan böyük etimadının rəsmi bəyanıdır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Media və Yayım Şurası yaradılması niyə zəruridir?

**Medianın İnkişafı Agentliyi ilə Audiovizual Şuranın bazasında Media və Yayım Şurasının yaradılmasını ehtiva edən qanunvericilik təşəbbüsü bu sahə ilə bağlı ölkədə son illər həyata keçirilən sistemli islahatların məntiqi davamıdır.**

Bu dəyişiklik rəqəmsal dövrün çağırışlarına uyğun olaraq informasiya siyasətinin daha çevik, koordinasiyalı və vahid yanaşma əsasında formalaşdırılmasına xidmət edir.

Nəzərə almaq lazımdır ki, müasir dövrdə milli təhlükəsizlik anlayışı yalnız hərbi və iqtisadi komponentlərlə deyil, həm də dayanıqlı informasiya məkanının mövcudluğu ilə assosiasiya olunur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Vətən müharibəsindəki tarixi Zəfərdən dərhal sonra - 12 yanvar 2021-ci ildə “Azərbaycan Respublikasında media islahatlarının daha da dərinləşdirilməsi haqqında” Fərman imzaladı. Medianın İnkişafı Agentliyinin yaradılması, ardınca “Media haqqında” yeni Qanunun qəbul edilməsi və digər kompleks addımların atılması ölkədə media üzrə yeni hüquqi-institusional mexanizmlərə keçidin bünövrəsini qoydu.



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

Müasir çağırışlarla, sürətli texnoloji inkişafın standartları ilə səsləşən bu islahatlar özündə sistemli yanaşmanı əks etdirir. Məhz bu yenilənmənin nəticəsidir ki, ötən dövr ərzində ölkənin informasiya mühitini əhəmiyyətli dərəcədə sağlamlaşdırmaq, şəffaflaşdırmaq, hüquqi münasibətləri sistemləşdirmək, peşəkar medianın inkişafını təmin etmək mümkün oldu. Media subyektləri arasında sağlam rəqabət qabiliyyətinin artırılması, iqtisadi müstəqilliyin möhkəmləndirilməsi üçün dövlət dəstəyinin göstərilməsi, peşəkar fəaliyyət üçün dayanıqlı institusional mühitin yaradılması, öz növbəsində, ölkənin informasiya mühitinin sağlamlaşdırılmasına töhfə verdi. Media və Yayım Şurasının yaradılması təklifi də məhz həmin strateji xəttin davamı kimi çıxış edir.

Təsdiq olunmuş faktdır ki, rəqəmsal transformasiya medianın klassik təsnifatını aradan qaldırıb. Çap, onlayn və audiovizual media arasındakı sərhədlər böyük mənada aradan qalxıb, konvergensiya olunmuş media tipi yaranıb. Bu şəraitdə müxtəlif media seqmentlərinin ayrı-ayrı mexanizmlərlə idarə olunması əvvəlki effekti vermir. Milli informasiya məkanının təhlükəsizliyinin təmin olunması, dezinformasiyaya qarşı operativ mübarizə, rəqəmsal platformaların monitorinqi və media subyektlərinin inkişafının stimullaşdırılması daha çevik, koordinasiyalı yanaşma tələb edir.

Bu kontekstdə yanaşsaq, görərik ki, Audiovizual Şura ilə Medianın İnkişafı Agentliyi indiyə qədərki fəaliyyətlərində faktiki olaraq bir sıra bənzər funksiyaları icra ediblər. Bu iki qurumun bazasında kollegial idarəetmə prinsiplərinə əsaslanan Media və Yayım Şurasının yaradılması dövlətin vahid institusional yanaşma strategiyasının təbii davamıdır. Xüsusilə Şuranın fəaliyyətinin birbaşa “Media haqqında” Qanunda təsbit olunması, onun hüquq və vəzifələrinin qanunvericilik səviyyəsində müəyyənləşdirilməsi və kollegial idarəetmə modelinin tətbiqi şəffaflıq, hesabatlılıq və ictimai etimad baxımından mühüm əhəmiyyət daşıyır.

Beynəlxalq təcrübə də bu istiqamətdə oxşar yanaşmaların effektivliyini təsdiqləyir. Böyük Britaniyada Ofcom yayımın tənzimlənməsi, rəqəmsal media mühitinin nizamlanması və istifadəçilərin hüquqlarının qorunmasını vahid institusional çərçivədə həyata keçirir. Fransada isə ARCOM audiovizual sektorla yanaşı, rəqəmsal platformaların fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır. Bu modellər göstərir ki, vahid və kollegial idarəetmə mexanizmləri media sektorunda həm idarəetmənin səmərəliliyini artırır, həm də ictimai etimadın möhkəmlənməsinə xidmət edir.

Yeni Şuraya verilməsi nəzərdə tutulan səlahiyyətlərin təhlili göstərir ki, burada prioritetlərdən biri media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, peşəkarlığın artırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, milli media məhsullarının inkişafı və dezinformasiyaya qarşı sistemli mübarizənin təşkilidir. Bu yanaşma yalnız inzibati tənzimləmə deyil, həm də inkişafyönümlü dövlət siyasətinin həyata keçirilməsinə xidmət edir.

Xüsusilə rəqəmsal məzmunun təhlili, ictimai rəyin öyrənilməsi, informasiya təhlükəsizliyinin təmin olunması və dezinformasiyanın yayılması risklərinin minimuma endirilməsi istiqamətində nəzərdə tutulan mexanizmlər müasir dövrün reallıqlarına tam uyğun gəlir. İnformasiya məkanının çirkləndirilməsi cəhdlərinə qarşı daha koordinasiyalı və mərkəzləşdirilmiş fəaliyyət imkanlarının formalaşdırılması ölkənin milli maraqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Diqqətəlayiq məqamlardan biri də Media Reyestri ilə bağlı nəzərdə tutulan yeniliklərdir. Media subyektləri və jurnalistlər haqqında məlumatların sistemləşdirilməsinə xidmət edən Media Reyestrinə jurnalistlərin daxil edilməsi və onların müvafiq vəsiqələrlə təmin olunmasının qanuna ediləcək dəyişikliklərdən sonra ödənişsiz əsasda həyata keçirilməsi həm peşəkar fəaliyyətin təşviqi, həm də media ictimaiyyətinin maraqlarının qorunması baxımından müsbət addım kimi qiymətləndirilə bilər.

Bütün bu faktlara əsaslanaraq deyə bilərik ki, təklif olunan qanunvericilik dəyişiklikləri təsdiqlənərsə, Azərbaycanın informasiya məkanında yeni institusional mərhələ başlayacaq. Bu dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə, milli media məhsullarının inkişafının stimullaşdırılmasına, media subyektlərinin iqtisadi dayanıqlılığının gücləndirilməsinə, rəqəmsal çağırışlara adekvat cavab verilməsinə və nəticə etibarilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə daha effektiv çatdırılmasına əlavə imkanlar yaradacaq.

# Trampın Ukrayna siyasətində dönüş

## *Vaşinqtonun dəyişən mövqeyi Avropada narahatlığa səbəb olub*

**Rusiya-Ukrayna müharibəsi davam etdikcə, Qərb daxilində münaqişəyə yeni siyasi və strateji yanaşmalar formalaşmağa başlayır. Xüsusilə ABŞ lideri Donald Trampın Ukrayna məsələsinə baxışı həm Avropa paytaxtlarında, həm də Kiyevdə ciddi müzakirə mövzusuna çevrilir. Son günlər Tramp administrasiyasının diqqətini yenidən Ukraynaya yönəltməsi xəbərləri yayılsa da, Ukraynanın müttəfiqləri bunu ehtiyatla qarşılayırlar. Əsas səbəb isə Trampın Rusiyaya münasibətdə sərt təzyiq siyasətini davam etdirmək niyyətində olub-olmaması ilə bağlı qeyri-müəyyənlikdir.**



Avropa dövlətləri və Ukrayna rəhbərliyi Vaşinqtonun Moskva üzərində təzyiqi artırmasını, yeni sanksiyalar tətbiq etməsini və hərbi dəstəyi genişləndirməsini istəyirlər. Lakin Trampın son bir ildə verdiyi bəyanatlar və nümayiş etdirdiyi siyasi xətt göstərir ki, o, müharibəyə əvvəlki administrasiyalardan fərqli prizmadan yanaşır. Məhz buna görə bir vaxtlar Ukraynaya hərbi yardım paketlərini dəstəkləyən və Rusiyanın hərbi əməliyyatlarını tənqid edən Trampın niyə mövqeyini dəyişdiyi sualı beynəlxalq siyasətin əsas müzakirə mövzularından birinə çevrilib.

Ümumən Donald Trampın Ukrayna məsələsindəki mövqeyini anlamaq üçün onun xarici siyasət fəlsəfəsinə nəzər salmaq lazımdır. Tramp uzun illərdir ki, ABŞ-ın qlobal öhdəliklərinin həddindən artıq genişləndiyini və bunun Amerika vergi-ödəyicilərinə böyük maliyyə yükü yaratdığını iddia edir. Onun siyasi platformasının əsas sütunlarından biri hesab olunan "Amerika hər şeydən əvvəl" yanaşması Vaşinqtonun beynəlxalq münaqişələrə müdaxiləsinin minimuma endirilməsini nəzərdə tutur. O hesab edir ki, milyardlarla dollar vəsaitin xarici münaqişələrə yönəldilməsi ölkə daxilində iqtisadi və sosial problemlərin həllini arxa plana keçirir. Trampın seçici bazasının mühüm hissəsi məhz bu arqumenti dəstəkləyir. Ölkənin müxtəlif ştatlarında yaşayan milyonlarla seçici üçün Ukraynadakı müharibə gündəlik həyatlarına təsir edən prioritet məsələ deyil. Ona görə də Tramp Ukraynaya ayrılan yardımlara daha skeptik yanaşmağa başlayıb. Onun fikrincə, Avropa təhlükəsizliyinin əsas yükünü Avropa ölkələri daşımalı, ABŞ sonsuz maliyyə mənbəyi rolunu oynamamalıdır.

**Qısa bir xatırlatma:** hələ 2022-ci ildə müharibə başlayanda ABŞ siyasi elitasında Ukraynaya dəstək məsələsində nadir rast gəlinən konsensus mövcud idi. Həm demokratlar, həm də respublikaçıların böyük hissəsi Rusiyanın hərbi əməliyyatlarını beynəlxalq hüququn pozulması kimi qiymətləndirir, Kiyevə geniş yardım göstərilməsini dəstəkləyirdi. Lakin zaman keçdikcə, vəziyyət dəyişməyə başladı. Müharibənin sürətli qələbə ilə nəticələnəcəyi gözləntiləri özünü doğrultmadı. Ukraynanın 2023-cü ildə həyata keçirdiyi əks-hücum əməliyyatları gözlənilən nəticəni vermədi və cəbhə xətti əsasən sabit qaldı. Bu isə Vaşinqtonda yeni suallar yaratdı. Tramp məhz bu sualları siyasi gündəmin mərkəzinə gətirdi. O, müharibənin qeyri-müəyyən müddətə davam etməsinin nə Ukraynanın, nə Avropanın, nə də ABŞ-ın maraqlarına uyğun olduğunu bildirdi. ABŞ liderinin mövqeyi Ukraynada narahatlıq yaratdı. Çünki Kiyev hesab edir ki, hazırkı mərhələdə danışıqlar Rusiyanın işğal etdiyi ərazilərin legitimləşdirilməsi riskini daşıyır. Tramp isə əksinə, müharibənin uzanmasının insan və maliyyə itkilərini artırdığını vurğulayır.

Trampın Ukrayna məsələsinə ehtiyatlı yanaşması Avropa dövlətlərini daha aktiv mövqe tutmağa məcbur edir. Son aylar Fransa, Almaniya və Böyük Britaniya Ukraynaya dəstəyin davam etdirilməsi istiqamətində diplomatik fəallıqlarını artırıblar. Avropa liderləri yaxşı anlayırlar ki, ABŞ dəstəyinin azalması Ukraynanın müdafiə imkanlarına ciddi təsir göstərə bilər. ABŞ hərbi texnologiyalar, hava hücumundan müdafiə sistemləri və kəşfiyyat məlumatları baxımından Kiyevin əsas tərəfdaşı olaraq qalır. Bu səbəbdən Vaşinqtonun siyasətində baş verə biləcək hər hansı dəyişiklik bütün Avropa təhlükəsizlik sisteminə təsir göstərə bilər. Elə bu səbəbdən Avropa ölkələri Tramp administrasiyasını Rusiyaya qarşı daha sərt addımlara təşviq etməyə çalışırlar.

Yeri gəlmişkən, Qərbdə Ukraynaya dəstəyin gələcəyi ilə bağlı müzakirələrin gücləndiyi bir vaxtda Azərbaycan humanitar yardım siyasətini davam etdirir. Bakı müharibənin hərbi tərəfinə qoşulmadan, Ukraynanın enerji infrastrukturunun bərpasına dəstək göstərir. Azərbaycandan Ukraynaya yüzlərlə transformator, generator və milyonlarla metr elektrik kabeli göndərilib. Ölkəmizin həmin addımları Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunun tərkib hissəsi kimi qiymətləndirilir. Çünki bir tərəfdən Rusiya ilə münasibətlər qorunur, digər tərəfdən Ukraynanın ərazi bütövlüyünə dəstək ifadə olunur və humanitar yardım davam etdirilir.

Bundan başqa, Azərbaycan müharibədən əziyyət çəkən uşaqların reabilitasiya prosesində də aktiv iştirak edir. İki həftə öncə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə daha 30 ukraynalı uşaq sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin olunmaq məqsədilə Azərbaycana gətirilib. Bununla da Azərbaycanda reabilitasiya keçən ukraynalı uşaqların sayı 600-ü ötüb. 10 gün davam edən proqram çərçivəsində uşaqlar əvvəlcə Bakıda yerləşən düşərgədə qrup terapiyalarında, meditasiya və yoqa məşğələlərində, eləcə də müxtəlif psixososial təlimlər və ustad dərslərində iştirak ediblər.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

ABŞ Prezidenti Donald Trampın Kiyevə əvvəlki kimi geniş dəstək verməkdən çəkilməsi, ehtiyatlı yanaşma sərgiləməsi bir sıra amillərlə bağlıdır və bunu sadəcə, Ukraynaya arxa çevirmək kimi qiymətləndirmək tam mənzərəni əks etdirmir. Trampın xarici siyasət yanaşmasının əsas xüsusiyyətlərindən biri ABŞ-ın maliyyə və hərbi resurslarının daha sərt şəkildə qiymətləndirilməsidir. O, uzun müddətdir ki, müttəfiqlərin təhlükəsizlik yükünü daha çox paylaşmalı olduğunu müdafiə edir. Ukraynaya ayrılan böyük həcmdə yardım paketləri də bu baxımdan ABŞ daxilində siyasi müzakirə mövzusuna çevrilib. Trampın tərəfdarları hesab edirlər ki, Vaşinqton öz daxili problemlərinə və digər qlobal prioritetlərinə daha çox diqqət yetirməlidir.

Digər mühüm amil isə müharibənin uzanmasıdır. Münaqişənin qısa müddətdə başa çatacağı gözləntilərinin reallaşmaması Ağ Evin siyasətində müəyyən yorğunluq yaradıb. Tramp daha çox danışıqlar yolu ilə nəticə əldə etməyə üstünlük verdiyini bildirir və bunu ABŞ-ın maraqlarını qoruyan yanaşma kimi təqdim edir. Lakin Avropa ölkələri və Ukraynanın digər tərəfdaşları hesab edirlər ki, Moskva üzərində maksimum təzyiq saxlanılmadan aparılan danışıqlar Rusiyanın mövqeyini gücləndirə bilər.

Odur ki, Trampın yanaşması daha çox məhdudlaşdırılmış dəstək və diplomatik təzyiq modelinə yaxın görünür. Bu siyasətin nəticəsi isə ABŞ-ın Rusiya ilə münasibətlərdə hansı strategiyanı seçəcəyindən və Avropanın təhlükəsizlik məsələlərində nə qədər məsuliyyət götürəcəyindən asılı olacaq.

Xatırladım ki, bu günlərdə Prezident Donald Tramp İran böhranının həllindən sonra diqqətləri Rusiya–Ukrayna müharibəsinə yönəldəcəyinə dair bəyanatla çıxış edib. Yaxın günlərdə Uitkoff və Kuşnerin Rusiyaya səfəri gözlənilir. Bu səfərdə əldə olacaq nəticələrdən sonra Ağ Ev adminstrasiyasının hansı addımlar atacağını daha aydın şəkildə görəcəyik.

# Sergey Kopırkinin "yenidən dərk" məntiqi

## *Yaxud Rusiyada nə dəyişməlidir?*



**İrəvanda Rusiya Gününə həsr olunmuş təntənəli tədbir keçirilib və ölkənin Ermənistandakı səfiri Sergey Kopırkin toplantıdakı çıxışında maraqlı fikir səsləndirib. O deyib ki, Rusiyanın Ermənistanla münasibətləri yenidən dərk mərhələsindədir. Görəsən, hansı tərəf nəyi dərk edəcək? Əslində, mövzuya dair suallar çox olduğu kimi, cavablar da az deyil.**

Əvvəlcə onu bildirək ki, Rusiya təkcə Ermənistanla deyil, habelə postsovet ölkələrinin bir çoxu ilə münasibətlərinin fazasını yenidən dərk etməyə çalışmalıdır. Amma göründüyü qədərilə, bu, baş vermir. S.Kopırkinin səsləndirdiyi fikri müsbət saymaq mümkündür. Yəni Moskvanın, ən azından, İrəvanla bağlı nələrisə yenidən düşünməsinin faydalı olacağı qənaətindəyik.

Rusiyanın Ermənistanla bağlı nələrisə yenidən düşünməsi həm də ona görə faydalıdır ki, bu düşüncə hərtərəfli olacağı təqdirdə, prosesin müsbət tərəflərinin digər dövlətlərə də şamil olunması ehtimalı var. Əlbəttə, mənfi məqamlarla əlaqəli də eyni fikri söyləmək mümkündür. Bu səbəbdən Kopırkinin söylədiklərinə yalnız Ermənistan prizmasından yanaşmırıq.

Bəli, Rusiya, ümumən, dünyaya münasibətini dəyişməli, Kopırkinin təbirincə desək, yenidən dərk etməlidir. İlk növbədə Moskva imperiya irsinə sahiblənmənin mənasızlığının fərqinə varmalıdır. Çünki bu irs ətrafı düşmən obrazında görür, daim təhlükə hiss edir və ölkənin davranışı da buna uyğun qurulur. İkincisi, Rusiyanın ətrafa münasibət fazasını yenidən dərk etməsində özünü dominant görmə immuniteti olmamalıdır. Çünki bu immunitet qarşılıqlı əlaqələrdə bərabərsizlik bəsləyir. Ölkə daim özünü yüksəkdə görür və bu baxışa uyğun tələblər irəli sürür. Halbuki...

Üçüncüsü, Rusiya ətrafla münasibətini yenidən dərk edərkən, başqa dövlətlərin işinə qarışmamalı olduğunu bilməlidir. Ancaq qarışma olur və bu, həmin dövlətlərin suverenliyini şübhələndirməkdir. Suverenliyi şübhələndirilmiş məmləkət bu gün olmasa da, sabah mütləq cavab verəcək. Dördüncüsü, rus ictimai rəyi heç bir halda başqa xalqları aşağılamamalı, monqol əsarətindən çıxdığını anlamalıdır. Ona görə anlamalıdır ki, ətrafı aşağılama məhz bu əsarətin mirasıdır, ağır travmasıdır. Nəzərə alaq ki, belə bir travma özündə hamını düşmən obrazında görmək irsini saxlayır.

Beşincisi, Rusiya dövləti və rus ictimai rəyi işğalçı təfəkkürdən uzaq dayanmalıdır. Çox ciddi şəkildə düşünülməlidir ki, bu təfəkkürün mövcudluğu reallıqları düzgün görməyə imkan vermir, nəticədə yalnız ağ və qara rənglər olur. "Ağ" Rusiya, "qara" onu əhatə edən ətraf aləmdir. "Ağlar" isə daim "qara"lar üzərində hökmranlıq iddiasındadırlar. Belə yanaşma da normal münasibətlərə imkan vermir. Altıncısı, münasibətlər fazasının yenidən dərk edilməməsi Rusiyanı siyasi şantajla qidalanan və hədə-qorxu gələn məmləkət ampluasında saxlayır. Bu amplua rasional düşüncə imkanlarını xeyli məhdudlaşdırır. Müvafiq olaraq rus ictimai rəyi elə zənn edir ki, başqa ölkələri şantaj və hədə-qorxu ilə daim təzyiq altında saxlamaq mümkündür. Halbuki, tamamilə fərqli durum formalaşır. Elə hazırda Ermənistanda yaşananlar da fikrimizin sübutudur. Yeddincisi, bilavasitə Ermənistan üzərində dayanaraq deyək ki, Rusiyanın bu ölkə ilə münasibətlərinə diqqət yetirərkən, gözlər önündə Ermənistanın müstəqil yox, dövlət mexanizminə bənzər kölə quruluş obrazı canlanır. Hazırda isə vəziyyət fərqlidir. Ermənistan Rusiyanın aləti olmaqdan çıxmaq istəyir. Amma... Səkkizincisi, Rusiya və rus ictimai rəyi Ermənistana və erməni xalqına necə yaşamağı öyrətməməlidir. Ermənistan Avropa İttifaqına can atırmı, atsın. Burada "Avropa pisdir, biz yaxşıyıq" şəklində formul keçərli sayıla bilməz. Axı yaxşılar yaxşı olduqlarını əməli fəaliyyətləri ilə göstərməlidirlər.

Rusiya inteqrasiya platformasıdırsa, ölkənin bunu niyə yalnız quru sözlərlə sübuta yetirməyə çalışdığı anlaşılmır. Nəzərə alaq ki, özünütəsdiqin real iş müstəvisi var. Rusiya bu müstəvini gücləndirməli barədə düşünməlidir. Elə düşünməlidir ki, ətraf onu cəlbedici görsün. Ətraf Rusiya və tutaq ki, Avropa məkanı arasında seçimi birincinin xeyrinə etsin.

*

Daha bir məqama diqqət yetirək. Rusiya dövləti və ictimai rəyi nə üçün postsovet və postsosialist məkanının ona, yumşaq desək, xoş yanaşmadığı barədə ciddi düşünməlidir. Bu düşüncə tarixə nəzər yetirilməsi üzərində qurulmalıdır. Tarixdə isə çar Rusiyası və SSRİ adlı məmləkətlər olub. O məmləkətlər ki, bir-birilərinə bənzəyirdilər. Halbuki, ikinci ilk yaradılanda kommunizm egidası altında dünyaya ədalət nümunəsi kimi qəbul edilirdi. Bu nümunə uzun müddət SSRİ-nin işğalçı obrazını pərdələdi. Lakin zamanla maskalar yırtıldı, Sovetlər Birliyinin saxta mahiyyəti üzə çıxdı. Postsovet və postsosialist məkanı isə aldadıldığının fərqinə vardı və bu səbəbdən həmin məkanın Rusiyaya inam və etimadı yoxdur. Bu gün sıravi erməni də Rusiyaya münasibətdə etimadsızlıq və inamsızlıq içindədir.

Şantajdan və hədə-qorxudan söz düşmüşkən, Rusiya dövləti və ictimai rəyi, obrazlı desək, əlini cibinə salıb oradan tapança çıxarıb ətəş açacağı ilə də hədələyir. Ermənilər, xüsusən, son 8 ildə buna görə bezliblər. Bezliblər və öz hərəkətləri ilə sanki Rusiyanı əlini cibindən çıxarmağa sövq edirlər. Təxminən belə: et görək, nə edirsən? Et, canımız qurtarsın. Yaxud çıxart cibindəkini görək nədir?

Rusiya postsovet məkanı üçün böyük bazardır. O bazar ki, onun formalaşması xeyli dərəcədə Rusiyanın beynəlmiləl obrazını vurğulayıb. Bu gün ölkəni çoxsaylı millətlər özünə vətən bilir. Eyni zamanda, çoxlu sayda xalqın nümayəndəsi Rusiya bazarında təmsilçiliklə həm öz vətəninə - ailəsinə, həm də Rusiyaya xeyir verir. Bəs rus ictimai rəyi nə edir? Vətəni həmin xalqlara və millətlərə dar etməklə hədələyir. Yəni yaxşı olar ki, məhz bu münasibət dəyişsin. Daha doğrusu, bu münasibətin dəyişməsinin vacibliyi dərk edilsin.



Başqa məqamlar da var ki, üzərilərində dayana bilərik. Amma buna lüzum görmürük. Sözümüz ondadır ki, hər şeyi dərk etməli, düzgün nəticə çıxarmalı olan tərəf məhz Rusiyanın və rus ictimai rəyinin özü olmalıdır. O ictimai rəy ki, ilk növbədə, özünüislah mərhələsindən keçməlidir. Hələlik isə bu mərhələnin başlandığını yox, Rusiyanı hamı üçün qəddar libasda göstərən solovyovların at oynatdığı məmləkəti görürük.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Avropa İttifaqının Ermənistan “sevgi”sinin gizlinləri





**Beynəlxalq siyasətdə ən təhlükəli və yanlış təsəvvürlərdən biri dövlətlərin bir-birini "sevdiyi", "himayə etdiyi" və ya "xüsusi rəğbət bəslədiyi" barədə yanaşmadır. Geosiyasətdə maraqlar həlledici rol oynayır. Məhz buna görə, son illər Avropa İttifaqı (Aİ) ilə Ermənistan arasında sürətlə inkişaf edən münasibətlərə romantik və ideoloji prizmadan deyil, strateji maraqlar kontekstində baxmaq lazımdır. Brüsselin İrəvana artan diqqəti həqiqətənmi demokratiya, insan hüquqları və dəyərlərlə bağlıdır, yoxsa bu proses daha geniş geosiyasi hesablamaların tərkib hissəsidir?**

Ukrayna müharibəsi Aİ-nin xarici siyasət və təhlükəsizlik prioritetlərini ciddi şəkildə dəyişdirdi. Rusiya ilə münasibətlərin kəskin pisləşməsi, enerji təhlükəsizliyi ilə bağlı narahatlıqlar və qlobal təchizat zəncirlərinin yenidən formalaşması Avropanı yeni marşrutlar, tərəfdaşlar və geosiyasi dayaq nöqtələri axtarmağa məcbur etdi. Belə bir şəraitdə Cənubi Qafqaz Avropanın strateji xəritəsində əvvəlkindən daha önəmli yer tutmağa başladı. Bu gün region Avropa üçün yalnız qonşuluq siyasətinin bir hissəsi deyil. Cənubi Qafqaz Xəzər hövzəsindən Avropaya enerji daşınmasını təmin edən marşrutların üzərində yerləşir, Orta Dəhlizin vacib komponentlərindən biridir və Avropa ilə Mərkəzi Asiya arasında formalaşan yeni iqtisadi əlaqələrin ayrılmaz hissəsinə çevrilib. Eyni zamanda, region Rusiya, İran və Türkiyə kimi güc mərkəzlərinin maraqlarının kəsişdiyi geosiyasi məkan olaraq xüsusi əhəmiyyət daşıyır. Məhz dəyişən geosiyasi reallıq Ermənistanın da Avropa üçün əhəmiyyətini artırıb. Bir neçə il əvvələ qədər Ermənistan Aİ-nin xarici siyasət gündəmində əsas prioritetlərdən hesab olunmurdu. Bu gün isə ölkə Avropa Komissiyasının sənədlərində, Avroparlamentin müzakirələrində və Brüsselin regional strategiyalarında daha çox yer almağa başlayıb. Bunun səbəbi Ermənistanın birdən-birə Avropa üçün vazkeçilməz tərəfdaşa çevrilməsi deyil. Əsas səbəb Avropanın Cənubi Qafqazda artan geosiyasi rəqabətdən kənar qalmaq istəməməsidir.

Ukrayna müharibəsindən sonra Rusiyanın postsovet məkanındakı təsir imkanlarının nisbi zəifləməsi Brüsseldə yeni imkan pəncərəsi kimi qiymətləndirilir. Aİ anlayır ki, regionda yaranan geosiyasi konfiqurasiya gələcəkdə Cənubi Qafqazın siyasi və iqtisadi istiqamətini müəyyən edəcək. Mövcud prosesdən kənarda qalmaq isə Avropanın regional təsir imkanlarının məhdudlaşması deməkdir. Ermənistan da məhz bu kontekstdə Avropa siyasətində daha görünən yer tutmağa başlayıb.

*

Bununla belə, beynəlxalq siyasətdə bəyanatlardan daha çox rəqəmlər və faktlar danışır. Ermənistanın iqtisadi göstəricilərinə nəzər saldıqda ortaya maraqlı mənzərə çıxır. Son illər Aİ ilə siyasi münasibətlər inkişaf etsə də, Ermənistan iqtisadiyyatının əsas dayaqları hələ də Rusiya ilə əlaqəlidir. Ermənistan ixracının əhəmiyyətli hissəsi Rusiyaya yönəlir, ölkəyə daxil olan pul köçürmələrinin böyük hissəsi Rusiya ilə bağlıdır və enerji sahəsində də Moskvanın təsiri davam edir. Əgər Brüsselin əsas məqsədi Ermənistanı iqtisadi baxımdan Rusiyadan uzaqlaşdırmaq olsaydı, bu proses geniş bazar imkanları, böyük investisiya paketləri və dərin iqtisadi inteqrasiya proqramları ilə müşayiət olunardı. Hələlik isə müşahidə olunan mənzərə fərqlidir. Ermənistan siyasi dəstək alır, müxtəlif Avropa proqramlarına cəlb olunur və maliyyə yardımlarından faydalanır. Lakin bu dəstək ölkənin iqtisadi strukturunu köklü şəkildə dəyişdirəcək miqyasda deyil. Məhz burada Ermənistan–Aİ münasibətlərinin əsas paradoksu ortaya çıxır. Brüssel İrəvanın Rusiyadan siyasi və strateji məsafə saxlamasını təşviq edir, lakin Moskvanın uzun illər oynadığı iqtisadi və təhlükəsizlik rolunu öz üzərinə götürməyə tələsmir.

Son illər Aİ-nin Ermənistanda fəallığı əhəmiyyətli dərəcədə artıb. 2023-cü ildə qurumun Mülki Müşahidə Missiyasının (EUMA) fəaliyyətə başlaması Brüsselin regionda daha görünən aktora çevrilmək istədiyini göstərdi. Lakin bu missiyanın mandatı müşahidə və hesabat funksiyaları ilə məhdudlaşır. Missiya hərbi qüvvə müdafiə mexanizmi deyil və Ermənistanın təhlükəsizliyinə təminat vermir. Eyni vəziyyət siyasi inteqrasiya məsələsində də müşahidə olunur. Avropa rəsmiləri Ermənistanı vacib tərəfdaş adlandırsalar da, ölkənin Aİ-yə üzvlüyü ilə bağlı konkret yol xəritəsi təqdim etmirlər. Ermənistan üçün nə üzvlüklə bağlı tarix müəyyənləşdirilib,



nə də inteqrasiyanın hansı mərhələdə və necə həyata keçiriləcəyinə dair aydın perspektiv mövcuddur.

Təhlükəsizlik məsələsində isə qeyri-müəyyənlik daha qabarıq görünür. Ermənistan son illərdə KTMT ilə münasibətlərini faktiki olaraq dondurub, Rusiya ilə təhlükəsizlik sahəsindəki əməkdaşlığını yenidən nəzərdən keçirir və alternativ tərəfdaşlar axtarır. Fransa ilə müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi, yeni silah sistemlərinin alınması və Qərblə təhlükəsizlik dialoqunun intensivləşdirilməsi bu siyasətin elementləridir. Lakin nə Fransa, nə Avropa İttifaqı, nə də NATO Ermənistanın təhlükəsizliyinə dair kollektiv öhdəlik götürməyə hazır olduqlarını bəyan etmirlər.

*

Beləliklə, Ermənistan mürəkkəb geosiyasi keçid mərhələsindədir. Ölkə uzun illər üzərində qurulmuş təhlükəsizlik və iqtisadi əlaqələr sistemindən uzaqlaşmağa çalışır, lakin onu əvəz edəcək alternativ sistemə hələ tam inteqrasiya olunmayıb. Belə bir vəziyyət İrəvana müəyyən siyasi manevr imkanları qazandırsa da, eyni zamanda, ciddi risklər yaradır. Bütün bunlar Aİ-nin Ermənistan siyasətinin mahiyyətini daha aydın göstərir. Brüssel üçün əsas məsələ Ermənistanın özü deyil, Ermənistanın yerləşdiyi geosiyasi məkan və həmin məkanın Avropa maraqları baxımından daşıdığı əhəmiyyətdir. Ermənistan Rusiyanın cənub sərhədlərinə yaxın yerləşir, İranla həmsərhəddir, Türkiyə və Azərbaycanla münasibətlərin normallaşması prosesində mühüm yer tutur və regionun gələcək nəqliyyat-kommunikasiya layihələrində potensial rol oynayır. Aİ-nin marağı da məhz bu amillərlə bağlıdır. Bu səbəbdən Ermənistan–Aİ münasibətlərini yalnız demokratiya, insan hüquqları və ya dəyərlər çərçivəsində izah etmək mümkün deyil. Həmin amillər siyasi ritorikanın vacib hissəsi olsa da, prosesin əsas hərəkətverici qüvvəsi geosiyasi maraqlardır. Aİ Cənubi Qafqazda təsir imkanlarını artırmaq, Avrasiya bağlantılarında daha fəal iştirak etmək və regionun gələcək siyasi düzəninin formalaşmasında rol oynamaq istəyir. Ermənistan isə bu strategiyada mühüm platformalardan biri kimi çıxış edir.

Son olaraq qeyd edək ki, geosiyasətin dəyişməyən qaydası budur: dövlətlər daimi dostluqlara deyil, daimi maraqlara əsaslanırlar. Bu gün Ermənistan Avropa üçün əhəmiyyətlidir, çünki o, müəyyən geosiyasi funksiyalar yerinə yetirir. Sabah regional reallıqlar dəyişərsə, prioritetlər də dəyişə bilər. Məhz buna görə Ermənistanın qarşısında duran əsas vəzifə hər hansı xarici gücün simpatiyasına güvənmək deyil, dəyişən beynəlxalq mühitdə öz milli maraqlarını maksimum dərəcədə təmin edə biləcək siyasət formalaşdırmaqdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İrəvanda siyasi hesablaşma dövrü başlayır

## *Koçaryan, Karapetyan və Sarukyanın “məhşər” günləri*

**İyunun 7-də Ermənistanda keçirilmiş parlament seçkilərinin yekun nəticələri açıqlanıb. Nəticələrə əsasən, ölkə parlamentinə yalnız 3 siyasi qüvvə daxil olur. Bunlar Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi “Mülki müqavilə” partiyası, eləcə də rusiyapərəst 2 siyasi qüvvə – oliqarx-milyarder Samvel Karapetyanın “Güclü Ermənistan” partiyası və keçmiş prezident Robert Koçaryanın rəhbərlik etdiyi “Ermənistan” blokudur.**

Ermənistan MSK-nın sədri Vaaqn Ovakimyanın iyunun 14-də İrəvanda keçirdiyi mətbuat konfransında açıqladığı nəticələrə görə, “Mülki müqavilə” partiyası seçicilərin 49,75 faizinin səsini qazanıb ki, bu da həmin partiyaya 105 yerlik parlamentdə 64 mandat əldə etməyə imkan verir. “Güclü Ermənistan” partiyası 23,27 faiz səslə 29 mandat, “Ermənistan” bloku isə 9,92 faiz səslə 12 mandat qazanıb. Beləliklə, Avropa inteqrasiyasını prioritet istiqamət kimi müəyyənləşdirən Paşinyanın partiyası yeni hökuməti təkbaşına formalaşdırmaq imkanı əldə edir.

### “Çiçəklənən Ermənistan” parlamentə düşə bilmədi

MSK seçkilər başa çatdıqdan sonra bir həftə ərzində müxtəlif siyasi qüvvələrin müraciətləri əsasında səslərin yenidən hesablanmasını həyata keçirib. Əsas intriqa oliqarx Qaqik Sarukyanın “Çiçəklənən Ermənistan” partiyasının taleyi ilə bağlı idi. İlkin nəticələrə görə, partiya 3,996 faiz səs toplamışdı və parlamentə düşmək üçün tələb olunan 4 faizlik baryeri keçməsinə cəmi bir neçə on səs çatmırdı. Həmin partiyanın parlamentə daxil olub-olmaması “Mülki müqavilə”nin deputat yerlərinin ümumi sayının 3/5 hissəsinə sahib olub-olmayacağını və beləliklə, konstitusiya qanunlarını qəbul etmək, eləcə də əsas vəzifəli şəxsləri seçmək imkanını müəyyənləşdirirdi.

Seçkilərdən sonrakı ilk günlərdə bəzi məntəqələrdə həqiqətən də itirilmiş səslərin aşkarlandığı bildirilsə də, iyunun 11-13-də MSK İrəvanın Nubaraşen rayonunda, Sünik vilayətinin Aqarak və Ararat vilayətinin Artaşat şəhərində yerləşən 3 seçki məntəqəsində səsvermə günü baş vermiş pozuntulara görə nəticələri etibarsız hesab etdi. “Çiçəklənən Ermənistan” hakimiyyəti onların seçki baryerini keçməsinə mane olmağa çalışmaqda ittiham edərək, həmin məntəqələrdə təkrar səsvermənin keçirilməsini tələb etmişdi. “Mülki müqavilə” isə bu qərar nəticəsində özünün də həmin məntəqələrdə qazandığı səsləri itirdiyini vurğulamışdı. İyunun 12-də, seçki məntəqələrində səslərin yenidən sayılması prosesi başa çatarkən, onlarca müxalifət tərəfdarı etiraz əlaməti olaraq MSK binası qarşısına toplaşmışdı. Lakin komissiya qəbul etdiyi qərarlara yenidən baxmadı və 2 gün sonra yekun nəticələri elan etdi. Nəticələrə əsasən, “Çiçəklənən Ermənistan” partiyası 3,9893 faiz səslə parlamentə düşə bilmədi.

### Paşinyan Konstitusiyanı dəyişdirə, referendum keçirə biləcəkmi?

Beləliklə, N.Paşinyanın partiyası hökuməti təkbaşına formalaşdırmaq imkanına malik olsa da, parlamentdə 2/3 çoxluq, yəni konstitusion çoxluq əldə edə bilməyib. Bu isə o deməkdir ki, partiya müxalifətin dəstəyi olmadan Konstitusiyaya dəyişiklik edə və ya bununla bağlı referendum keçirə bilməyəcək. Ermənistan hökuməti üçün bu məsələ yaxın dövrdə xarici siyasətdə əsas mövzulardan biri hesab olunur. MSK-nın yekun nəticələri elan etdiyi gün – iyunun 14-də S.Karapetyanın “Güclü Ermənistan” partiyasının, “Çiçəklənən Ermənistan” partiyasının və R.Koçaryanın blokunun nümayəndələri seçkilərin nəticələrinin ləğv edilməsi tələbi ilə etiraz aksiyası keçiriblər. Müxalifətin fikrincə, seçkilər qeyri-legitim olub. Aksiyaya yüzlərlə insan qoşulsa da, hakimiyyət buna hər hansı reaksiya verməyib. Bununla yanaşı, müxalifət partiyaları birgə bəyanat yayaraq hakimiyyəti “inzibati resurslardan geniş istifadə etməkdə” və “informasiya vasitələrindən təbliğat məqsədilə sui-istifadədə” ittiham ediblər. Onlar bildiriblər ki, vətəndaşların azad iradə ifadəsi hüququnu müdafiə etmək üçün yalnız konstitusiya, qanunlar və demokratik prinsiplər çərçivəsində fəaliyyət göstərəcəklər.



### Sarukyanın ardınca Koçaryanın da qaçış planı uğursuz oldu

Bunun əksinə olaraq, Paşinyan müxalifətlə bağlı gələcək planlarını kifayət qədər açıq şəkildə ifadə edib. O, bazar günü bəyan edib ki, S.Karapetyan, R.Koçaryan və Q.Sarukyan əmlaklarından məhrum ediləcəklər. Paşinyanın sözlərinə görə, seçkiqabağı rüşvət paylayanların xalqdan oğurladıqları sərvət geri qaytarılmalıdır. Maraqlıdır ki, ötən həftə Q.Sarukyanın ölkədən çıxışına artıq qadağa qoyulduğu məlum olub. Bu qərar ona qarşı vergidən yayınma ittihamı üzrə açılmış cinayət işi ilə əlaqələndirilir. Məlum olub ki, prokurorun qərarı ilə Sarukyana qarşı cinayət təqibi başlanıb. O, İstintaq Komitəsinə çağırılıb və ona rəsmi ittiham irəli sürülüb. Sarukyan səslərin yenidən hesablandığı dövrdə – seçkilərdən dərhal sonra ölkəni tərk etməyi planlaşdırırdı, lakin səfərinin səbəbi açıqlanmamışdı. Seçkilərin yekun nəticələri elan edildikdən dərhal sonra R.Koçaryan da Ermənistandan qaça bilməyib. Onun siyasi qüvvəsi əvvəlcədən bildirmişdi ki, siyasətçi “şəxsi işləri” ilə əlaqədar 3 günlük səfərə çıxacaq. Lakin Robikin ölkədən çıxışına qadağanın səbəbi rəsmi şəkildə açıqlanmayıb və o, “Zvartnots” hava limanından geri qaytarılıb. Güman etmək olar ki, adları çəkilən şəxslər seçkiqabağı rüşvət verdikləri səbəbindən məsuliyyətə cəlb ediləcəklərini bildikləri üçün “asta qaçan namərddir” deyib aradan çıxmaq istəyiblər. Ancaq hakimiyyət daha zirək tərpənib və onların bu arzusunu gözlərində qoyub.



### Qanunvericilik sərtləşdirilir

Bu arada seçkiqabağı rüşvət verilməsi məsələsi xeyli ciddiləşir. Hakim partiyadan olan deputat Vaaqn Aleksanyan iyunun 16-da Milli Assambleyada jurnalistlərlə söhbəti zamanı parlament seçkilərinin nəticələrini və müxalifətin seçkilərin nəticələrinin etibarsız sayılması tələblərini şərh edərkən deyib: “Bizim konstitusiya və qanunlarımızda seçkiqabağı dövrdə bu qədər böyük miqyasda rüşvət paylayan müxalifətlə necə davranılmalı olduğu aydın şəkildə göstərilməyib. Buna görə də biz ən qısa zamanda bu hüquqi boşluğu aradan qaldırmalı və Ermənistanda həmin yaramazların yuvalarını ləğv etməliyik. Aleksanyan qeyd edib ki, “Ermənistan” bloku, “Çiçəklənən Ermənistan” partiyası və “Güclü Ermənistan” partiyalar blokunun seçiciləri ələ almaq üçün həyata keçirdiyi fəaliyyətin miqyası Antikorrupsiyaya Komitəsinin aşkar etdiyi faktlardan aydın görünür.

Onun sözlərinə görə, bazar günü müxalifət partiyalarının MSK binası qarşısında keçirdiyi azsaylı etiraz aksiyası həmin siyasi qüvvələrin iddia etdikləri 500 min seçici dəstəyinə malik olmadığını göstərib. Deputat hesab edir ki, söhbət birdəfəlik maliyyə sövdələşməsindən gedir: insanlar pul alıb səs veriblər, lakin müxalifətin çağırışı ilə küçələrə çıxmağa hazır deyillər. “Hazırda biz son dərəcə mühüm qanunvericilik dəyişikliklərinin hazırlanması mərhələsindəyik. Bu dəyişikliklər seçkiqabağı rüşvətə görə məsuliyyətin ciddi şəkildə sərtləşdirilməsini və siyasi meydanın bu cür adamlardan tam təmizlənməsini nəzərdə tutur”, – deyə Aleksanyan vurğulayıb.

O əlavə edib ki, “Güclü Ermənistan” blokundan deputatlığa namizəd olmuş 4 nəfər seçkiqabağı rüşvət paylanması ilə bağlı cinayət işləri üzrə axtarışa verilib və istintaqdan yayınıb. Aleksanyanın fikrincə, bu fakt hakimiyyətin rəqiblərinin fəaliyyət üsullarının kriminal xarakter daşıdığını göstərir. R.Koçaryanın məhkəmə işləri və onun hərəkət azadlığının məhdudlaşdırılması ilə bağlı yayılan məlumatları şərh edən Aleksanyan bildirib ki, keçmiş prezident çoxdan Ermənistandan qaçmaq arzusundadır, lakin bunu bacarmayacaq. O, Koçaryanı Milli Assambleyanın iclaslarına qatılmağa çağıraraq ona “unudulmaz sessiyalar” vəd edib. Deputat sonda onu da qeyd edib ki, keçmiş rejimin bütün cinayətlərini qeydiyyata almaq üçün superkompüter lazım olacaq, lakin bütün günahkarlar qanun qarşısında mütləq layiqli cəzalarını alacaqlar.

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistanda da “Moldova modeli”?

## *Seçkisonrası sərtləşən siyasi durum və sülhün müqəddəratı*



**Ermənistanda parlament seçkilərindən sonra hakimiyyətin atdığı addımlar ölkənin siyasi gələcəyi, hüququn aliliyi və demokratiyanın sərhədləri barədə diskussiyaları yenidən alovlandırıb. Xüsusilə Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin seçki cinayətlərində adı hallanan siyasi qüvvələrin növbəti seçkilərdə iştirakının qadağan edilməsini nəzərdə tutan qanunvericilik təşəbbüsü maraqla qarşılanıb. Bir çox ekspertlər hesab edirlər ki, indi İrəvanda gedən proseslər son illər Moldovada tətbiq olunan siyasi-hüquqi mexanizmləri xatırladır.**



Bu modelin ilkin formalaşma mərhələsinə nəzər saldıqda bir neçə il əvvəl Moldovada baş verən analoji ssenari önə çıxır. Rəsmi Kişineu rusiyapərəst meyilləri ilə tanınan müxalif “Şor” partiyasını və onun ətrafındakı strukturları qeyri-qanuni maliyyələşmə, xarici kəşfiyyat şəbəkələri ilə əməkdaşlıq və milli təhlükəsizliyə birbaşa təhdid yaratmaqda ittiham etmişdi. Silsilə məhkəmə çəkişmələrindən sonra Moldova Konstitusiya Məhkəməsi partiyanı antikonstitusion elan edərək ləğv etdi. Eyni zamanda, onun rəhbər heyətinin seçkilərdə iştirak hüququna uzunmüddətli qadağa qoydu. Maya Sandu hakimiyyəti bu addımları “demokratiyanın özünümüdafiəsi” və hibrid müharibəyə qarşı qalxan kimi əsaslandırdı.

Bu gün Ermənistanda müşahidə olunan siyasi mənzərə də Moldovada baş verən proseslərlə müəyyən paralellər aparmağa imkan verir. Parlament seçkilərinin başa çatmasından sonra Baş nazir Nikol Paşinyan hələ yekun nəticələr tam açıqlanmadan seçki prosesində yol verilən pozuntularla bağlı bəyanatlar yaydı. O, müxalif siyasi qüvvələri seçicilərə rüşvət verməkdə ittiham etdi. Bildirdi ki, vətəndaşların azad iradəsinə təsir göstərmək cəhdləri müxalifət düşərgəsindən qaynaqlanıb. Paşinyan xüsusilə “Ermənistan” blokunun lideri, ölkənin ikinci prezidenti Robert Koçaryanı, “Güclü Ermənistan” blokunun rəhbəri Samvel Karapetyanı və “Çiçəklənən Ermənistan” partiyasının lideri Qaqik Tsarukyanı hədəfə alaraq onları “üçbaşlı müharibə partiyası” adlandırdı.

Paşinyan siyasi bəyanatlarla kifayətlənməyərək həm də məhkəmə sisteminə və prokurorluq orqanlarına açıq, birbaşa direktivlər ünvanladı. O qeyd etdi ki, bu liderlər mütləq şəkildə uzunmüddətli həbs cəzaları almalı, azadlıqda qalmamalı və ən əsası, növbəti seçki proseslərinə buraxılmamalıdırlar: “Cinayətkar oliqarxiyanın ləğvi çox sürətlə və yüksək templə baş tutmalıdır. Qanunsuz əldə edilmiş əmlakın müsadirəsi mexanizmləri, cinayət işləri vasitəsilə bu proses yekunlaşmalıdır. Onlar siyasi qüvvə deyil, cinayətkar oliqarxik sistemin təmsilçiləridir və Ermənistanda heç bir fəaliyyət sahəsinə sahib olmamalıdırlar”.

Baş nazir seçki kampaniyası dövründə də onlara xəbərdarlıq etdiyini xatırladaraq, “Ermənistandan qaçmaq fürsətini xəyal edəcəksiniz, amma belə bir fürsətiniz olmayacaq” ifadəsini işlədib. Paşinyan həmçinin Ermənistanın digər keçmiş prezidenti Serj Sarkisyan barədə danışaraq, onun da “unudulmadığını” vurğulayıb.

*



Aydındır ki, bu kəskin çıxışların ardınca Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin qanunvericilik dəyişikliyi təşəbbüsü ilə çıxış etməsi daxili siyasətdəki təzyiqlərin sistemli xarakter aldığını göstərir. Qurumun əsas arqumenti seçki dövründə qeydə alınan korrupsiya faktları olsa da, prosesin hüquqi baxımdan ən zəif tərəfi hələlik ortada qəti məhkəmə hökmünün olmamasıdır. Buna baxmayaraq, Paşinyan hakimiyyəti siyasi rəqiblərini tamamilə neytrallaşdırmaqda israrlı görünür.

Şübhəsiz ki, bu hüquqi sərtləşmə və institusional təzyiqlər dərin geosiyasi kontekst və regional təhlükəsizlik dinamikası ilə bağlıdır. Xarici siyasət kursunu Qərbə doğru çevirən Paşinyan üçün bu seçkilər daxili idarəetmə davasından daha çox, İrəvanın geosiyasi seçiminin legitimlik sınağıdır. Beynəlxalq media və Qərb institutları da “Mülki müqavilə” partiyasının qələbəsini Ermənistanın Moskvadan uzaqlaşmaq və Avropa İttifaqına inteqrasiya xətti kimi qiymətləndirdi. Məhz bu nöqtədə İrəvan daxili müxalifətlə mübarizəyə həm də geosiyasi təhlükəsizlik prizmasından yanaşır. “Moldova modeli”ndə olduğu kimi, köhnə elita ilə əlaqəli və xarici təsirlərə açıq qüvvələrin sıradan çıxarılması “milli təhlükəsizliyin qorunması” fəlsəfəsi ilə əsaslandırılır. Bu isə daxili müxalifəti avtomatik olaraq “xarici təsir agenti” statusuna salır.

Mövcud vəziyyət fundamental bir sualı gündəmə gətirir: demokratik sistem özünü qorumaq üçün nə dərəcədə qeyri-demokratik üsullara əl ata bilər? Yada salaq ki, siyasi partiyaların qadağan olunması hüquqi dövlətlərdə yalnız şəffaf, müstəqil məhkəmə araşdırmaları və təkzibolunmaz sübutlar əsasında həyata keçirildikdə legitim sayılır. Əks halda, bu mexanizmlər avtoritarizmi rəsmiləşdirən siyasi alətə çevrilir. Ermənistan hazırda məhz bu təhlükəli cizgi üzərindədir. Hakimiyyət prosesi korrupsiyaya qarşı mübarizə kimi təqdim etdiyi halda, müxalifət bunu siyasi repressiya dalğası adlandırır.

Bir şey aydındır ki, əgər İrəvan siyasi partiyaların və blokların fəaliyyətini inzibati qaydada məhdudlaşdıran qanun layihəsini qəbul edib icraya yönəldərsə, ölkənin daxili siyasi arxitekturası uzun müddət mübahisəli “Moldova modeli”nin mənfi presedentləri altında qalacaq. Bu addım Ermənistanın daxili siyasi meydanını tamamilə yenidən formalaşdıra və müxalifət fəaliyyətini qeyri-leqal müstəviyə keçməyə məcbur edə bilər. Hakimiyyətin bu qərarı cəmiyyətdə qütbləşməni daha da dərinləşdirməklə yanaşı, ölkəni daxili idarəolunmaz xaosa sürükləyə bilər. Bu da İrəvanın sülh prosesindəki öhdəliklərini yerinə yetirmək iradəsini sarsıdar.

*

Yaxın aylarda parlamentə göndəriləcək yekun sənədin mətni, onun konstitusiyaya uyğunluğu, beynəlxalq hüquqi əsaslandırılması və ən əsası, konkret olaraq, hansı müxalif liderləri hədəf alacağı Ermənistan demokratiyasının real səviyyəsini müəyyən edən fundamental diaqnoz olacaq. Bu qanunvericilik aktı İrəvanın bəyan etdiyi Avropa yönümlü “demokratikləşmə” kursunun həqiqi mahiyyətini, yoxsa daxili hakimiyyəti qorumaq üçün rəqibləri sıradan çıxaran avtoritar alət olduğunu ortaya qoyacaq. Qərbin bu presedentə verəcəyi reaksiya və Venesiya Komissiyası kimi institutların hüquqi rəyləri Ermənistanın beynəlxalq imicinin və gələcək trayektoriyasının əsas indikatoruna çevriləcək.

Rəsmi Bakı İrəvandakı siyasi qeyri-sabitliyin və daxili qütbləşmənin idarəolunmaz xaosa çevrilməsi risklərini diqqətlə izləyir. Çünki Ermənistanın daxili sisteminin kövrəkliyi onun sülh danışıqlarında qətiyyətli addımlar atmaq iradəsini zəiflədir və öhdəliklərin icrasını süni şəkildə yubadır.

Eyni zamanda, Azərbaycan regiona kənar hərbi-siyasi qüvvələrin gətirilməsi cəhdlərinə qarşı prinsipial mövqe tutur. İrəvanın daxili təmizləmələri, geosiyasi şüarlarla maskalaması və silahlanma yarışına meyillənməsi regional gərginliyi artırır. Bakının mövqeyi isə qətidir: Cənubi Qafqazın problemləri regional dövlətlərin birbaşa dialoqu və "3+3" formatı çərçivəsində kənar diktələr olmadan həll edilməlidir.

Beləliklə, Azərbaycan daxili böhranlar yaşayan Ermənistandan fərqli olaraq, bölgədə sabitliyin, Orta Dəhliz kimi irimiqyaslı logistik və iqtisadi layihələrin əsas təminatçısıdır. Bakının hədəfi Ermənistanın siyasi xaosdan xilas olaraq regional əməkdaşlığa qoşulmasıdır. Bunun yeganə yolu İrəvanın daxili ambisiyaları kənara qoyub sülh sazişini imzalamasıdır. Azərbaycan hər bir ssenariyə qarşı milli maraqlarını və suverenliyini ən yüksək səviyyədə qorumaqdadır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*Beynəlxalq həyat*

# “G7” sammitində Vaşinqton–Kiyev məsləhətləşməsi

## *“Böyük yeddilik” görüşü etirazlar və Ukraynanın Moskvaya hücumları ilə müşayiət olunur*



**Sammitdə ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, Ukrayna və Yaponiya liderləri, eləcə də Avropa İttifaqının nümayəndələri iştirak edirlər. Əsas müzakirə mövzuları Yaxın Şərq və Ukraynadakı vəziyyətdir. Liderlər danışıqlar üçün bir araya gəlməyə hazırlaşarkən, Ukrayna prezidenti Volodimir Zelenski bildirib ki, Kiyevə edilən son hücumlara cavab olaraq Moskva neft emalı zavoduna zərbələr endirilib.**

“France 24”ün yaydığı məlumata görə, Böyük Britaniyanın Baş naziri Kir Starmer “G7” sammitindən əvvəl bildirib ki, Ukraynaya nüvə elektrik stansiyaları üçün zənginləşdirilmiş uran verəcək və Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edəcək.

Dünən “Böyük yeddilik” görüşündən az sonra V.Zelenski ABŞ nümayəndə heyəti ilə ikitərəfli təmaslardan çəkilmiş foto-kadrları özünün “Telegram” hesabında paylaşıb. Ukrayna lideri fotoşəkillərin altına “Mövqeləri əlaqələndirmək həmişə vacibdir” şərhini yazıb. Sammitdə Ukrayna liderini Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerov, ABŞ Prezidentini isə Dövlət katibi Marko Rubio müşayiət edirlər. Donald Tramp isə bu görüşün çox yaxşı keçdiyini, həmçinin sammit çərçivəsində Volodimir Zelenski ilə bir daha görüşəcəyini deyib. İkinci görüşün iyunun 16-sı keçiriləcəyi planlaşdırılırdı.

*

Fransanın Evian şəhərində keçirilən “G7” (“Böyük yeddilik”) sammiti öncəsi “No G7” hərəkatının təşkil etdiyi yürüşə on minlərlə insan qatılıb. İsveçrənin Cenevrə şəhərində sammitə qarşı küçə iğtişaşları, yanğınlar, toqquşmalar davam edir. Yerli polis etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə edir. İğtişaşlarda bir sıra beynəlxalq təşkilat və şirkətlərin ofisləri, o cümlədən Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Yayım Birliyinin binaları zərər görüb. Minlərlə antiqlobalist Cenevrə şəhərinin küçələrinə çıxaraq “Fələstinə azadlıq”, “Biz hamımız antifaşistik” kimi şüarlar səsləndirir, həmçinin G7 ölkələrinin siyasətini tənqid edən plakatlar daşıyırlar. Aksiyada “Biz hamımız qrenlandiyalıyıq” və “Bir daha heç vaxt” kimi şüarlar yazılmış bannerlər də nümayiş etdirilir.

*

“G7” sammit barədə Qərb mediasının yaydığı xəbərlərdə deyilir ki, V.Zelenski D.Trampla antiballistik raket istehsalına dair lisenziya almaq məsələsini müzakirə edib. Ukrayna prezidenti ilə ABŞ prezidenti söhbət çərçivəsində Ukrayna Silahlı Qüvvələri üçün antiballistik raket sistemləri və raketlərin istehsalı üçün lisenziyanın alınmasını müzakirə edib. Bu barədə “European Pravda” qəzeti məlumat yayıb. Volodimir Zelenski bildirib ki, Ukraynanın yeni hava hücumundan müdafiə sistemləri alması məsələsi “G7” liderləri ilə müzakirələr zamanı əsas mövzulardan biridir. O, prezident Trampla söhbətlərində bu məsələni qaldırdığını vurğulayıb: “Biz bunu ABŞ Prezidenti Donald Trampla da müzakirə etdik. Komandalarımız bunun üzərində işləyəcəklər. İnşallah, bu dəfə müvafiq antiballistik raket sistemləri və raketlərinin istehsalı üçün lisenziya əldə edə biləcəyik”.

Qeyd edək ki, bundan əvvəl Volodimir Zelenski eyham vurmuşdu ki, Qərb Ukraynanın ballistik raket proqramının inkişafına mane olur. O, iddia edib ki, təkcə Rusiya deyil, digər ölkələr də Kiyevin




öz sistemini inkişaf etdirməsinə qarşıdır. Bunun səbəblərinə gəldikdə isə Ukrayna lideri hesab edir ki, müdafiə sektorunda “biznes” rəqabətlə bağlıdır.

*

Ukrayna liderinin sözlərinə görə, genişmiqyaslı müharibəyə son qoyulması məqsədilə belə bir görüş məhz “G7” sammiti çərçivəsində baş tuta bilərdi, amma Rusiya Prezidenti danışıqlara hazır deyil: “Çünki orada Tramp və Makron da olacaq. Yəni həm Avropa, həm də ABŞ təmsilçiləri iştirak edəcəklər. Fikrimcə, bu, hamımızın bir araya gələrək görüşməsi üçün çox yaxşı imkandır”.

Yeri gəlmişkən, Avropa İttifaqı “G7” sammitində Kiyevə təqribən 45 milyard avro vəsaitin ayrılması məsələsi qaldırılıb. Bu təkliflə Avropa Komissiyasının sədri Ursula fon der Lyayen çıxış edib. Amma müşahidəçilər sammitdə münaqişənin həlli istiqamətində irəliləyişə az ümid edirlər. Fransanın “Le Monde” qəzeti yazır ki, təkcə Ukrayna böhranı deyil, Emmanuel Makron üç aydır qlobal iqtisadiyyatı və Yaxın Şərqdə sabitliyi sarsıdan münaqişənin həlli ilə bağlı strateji müzakirələri yenidən “G7” masasına gətirməyi hədəfləyir. Britaniyanın “Guardian” nəşri isə bildirir ki, “G7”nin bütün gücünün birləşməsinə baxmayaraq, bu sammit mahiyyət etibarilə bir nəfəri – ABŞ prezidenti Donald Trampı maraqlandıran məsələləri müzakirə edir. Sammit bu gün işini davam etdirəcək.

*

“Əgər Volodimir Zelenski məsuliyyətlə və ciddi danışıqlara hazırdırsa, o, həmişə Moskvaya gələ bilər və burada yüksək səviyyədə qəbul ediləcək”. Bu maraqlı açıqlamanı Kremlin sözçüsü Dmitri Peskov deyib. Onun bu paylaşımı Ukrayna Prezidenti Volodimir Zelenskinin Rusiya Prezidenti Vladimir Putinə “G7” sammiti çərçivəsində görüş təklifinə reaksiyası sayılır. Putin onun bu təklifini rədd edib.

***XQ***

# Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb

## *Strateji sənəd bölgələrdə geniş müzakirə edilir və yüksək qiymətləndirilir*

### *Abşeron–Xızı və Quba–Xaçmaz iqtisadi rayonları*



**İyunun 16-da Abşeron-Xızı və Quba-Xaçmaz iqtisadi rayonlarında Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**

Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.



Qubada keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, habelə Abşeron, Xızı, Quba, Qusar, Siyəzən və Şabran rayonlarını təmsil edən fermer və sahibkarlar iştirak ediblər.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlətimizin başçısının kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı müəyyən etdiyi prioritetlər və bu istiqamətdə qarşıya qoyulan vəzifələr barədə danışıb, həmçinin yeni Dövlət Proqramının əsas məqsəd və hədəfləri haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edib ki, aqrar sahədə əldə olunmuş nəticələr növbəti mərhələdə daha yüksək məhsuldarlığın təmin edilməsini, rəqabətqabiliyyətli istehsalın genişləndirilməsini və özünütəminetmə səviyyəsinin artırılmasını zəruri edir. Prezidentin köməkçisi vurğulayıb ki, yeni Dövlət Proqramı aqrar sahənin dayanıqlı inkişafına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və daxili istehsal potensialının artırılmasına xidmət edir.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli Dövlət Proqramı çərçivəsində fermerlər üçün nəzərdə tutulan yeni dəstək mexanizmləri, müasir texnologiyaların tətbiqi və istehsalın səmərəliliyinin artırılması istiqamətində görüləcək işlər barədə məlumat verib. Nazir müavini buğdaçılıq, bağçılıq, heyvandarlıq və quşçuluq sahələri üzrə müəyyən edilmiş hədəflərdən bəhs edərək, suvarma, texnika təminatı, saxlama infrastrukturu və güzəştli maliyyələşdirmə imkanlarının genişləndirilməsinin məhsuldarlığın artırılmasına və fermerlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət etdiyini bildirib.

Sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov aqrar sahənin dayanıqlı inkişafında su ehtiyatlarının səmərəli idarə olunmasının və etibarlı su təminatının əhəmiyyətindən danışıb. O, regionlarda həyata keçirilən su təsərrüfatı layihələri, suvarma infrastrukturunun modernləşdirilməsi və müasir suvarma texnologiyalarının tətbiqi istiqamətində görülən işlər barədə məlumat verib. Agentlik sədri qeyd edib ki, Dövlət Proqramı çərçivəsində su resurslarından daha səmərəli istifadə, su itkilərinin azaldılması və kənd təsərrüfatı istehsalçılarının su təminatının yaxşılaşdırılması əsas prioritetlərdəndir.

Daha sonra Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov rayonda kənd təsərrüfatının inkişafı, mövcud aqrar potensial və Dövlət Proqramından irəli gələn vəzifələr barədə məlumat verib. O bildirib ki, Quba ölkənin əsas meyvəçilik mərkəzlərindən biri olmaqla yanaşı, bağçılıq, heyvandarlıq və emal sənayesinin inkişafı üçün geniş imkanlara malikdir. İlqar Mahmudov Dövlət Proqramının icrası məqsədilə rayonda müvafiq fəaliyyət planının hazırlandığını, kənd təsərrüfatı sahəsində ixtisaslı kadr hazırlığının gücləndirilməsi və aqrar potensialın daha səmərəli reallaşdırılması istiqamətində tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb.

Müzakirələr zamanı çıxış edən fermer və sahibkarlar aqrar sahəyə göstərilən diqqət və qayğıya, eləcə də yaradılmış əlverişli biznes və investisiya mühitinə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin kənd təsərrüfatı məhsullarının istehsal və emal imkanlarının genişləndirilməsi, yeni investisiya layihələrinin həyata keçirilməsi və sahibkarlıq fəaliyyətinin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunub. Çıxışlarda proqramdan irəli gələn vəzifələrin icrasında fəal iştirak etməyə, yerli istehsalın artırılmasına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə bundan sonra da töhfə verməyə hazır olduqları ifadə edilib.

Müşavirənin yekununda Zeynal Nağdəliyev Dövlət Proqramından irəli gələn vəzifələrin icrası ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib. O, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin vaxtında və səmərəli icrasının təmin edilməsi, aidiyyəti qurumlar arasında əlaqələndirmənin gücləndirilməsi və qarşıya qoyulmuş vəzifələrin operativ şəkildə yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, müşavirə zamanı səsləndirilən təkliflər ümumiləşdirilərək Dövlət Proqramının icrası prosesində nəzərə alınacaq.

***XQ***

### *Lənkəran–Astara iqtisadi rayonu*






**İyunun 16-da Lənkəran-Astara iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın müzakirəsi ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələri və fermerlərin iştirakı ilə regional müşavirə keçirilib.**

Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov çıxışında son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahədə həyata keçirilən sistemli islahatlar nəticəsində mühüm nailiyyətlərin əldə olunduğunu bildirib. Qeyd edib ki, aqrar sahəyə dövlət dəstəyinin artırılması, müasir suvarma sistemlərinin tətbiqi, aqroparkların yaradılması və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində pambıqçılıq, tütünçülük, üzümçülük və şərabçılıq kimi ənənəvi sahələrin istehsal və ixrac potensialı artmış, bir sıra məhsullar üzrə özünütəminetmə səviyyəsi yüksəlmiş, meyvə-tərəvəz və yumurta üzrə tam özünütəminetmə səviyyəsinə nail olunmuşdur. O, həmçinin vurğulayıb ki, qəbul edilmiş Dövlət Proqramı aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəd olmaqla məhsuldarlığın artırılmasına, rəqabətqabiliyyətli və ixracyönümlü istehsal modelinə keçidin sürətləndirilməsinə xidmət edir.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova Dövlət Proqramının aqrar sahədə intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi sürətləndirəcəyini, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəyini qeyd edib. Dövlət Proqramı çərçivəsində buğda istehsalında məhsuldarlığın hədəf rayonlarda 50 sentnerə, 31 dəmyə rayonda, - hansı ki buna Lənkəran-Astara iqtisadi rayonu da daxildir, - 30 sentnerə çatdırılması, 22 rayon üzrə kombayn parkının 571 yeni kombaynla yenilənməsi, 84,9 min hektar sahədə lazer hamarlama texnologiyasının tətbiqi və intensiv bağçılığın genişləndirilməsi nəzərdə tutulur. Həmçinin bildirib ki, Dövlət Proqramı çərçivəsində 150 min ton əlavə taxıl silosu və 100 min ton yeni soyuducu anbar tutumunun yaradılması planlaşdırılır. Bu məqsədlə müvafiq avadanlıqların dəyərinin 40 faizinin dövlət güzəştləri, 40-50 faizinin isə kredit faizlərinin subsidiyalaşdırılması mexanizmi vasitəsilə dəstəklənməsi planlaşdırılır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov çıxışında Dövlət Proqramında müasir suvarma sistemlərinin tətbiq olunduğu sahələrin 130 min hektardan 300 min hektara çatdırılmasının və sudan faydalı istifadə göstəricisinin 45 faizdən 95 faizə yüksəldilməsinin əsas hədəflərdən biri olduğunu bildirib. O qeyd edib ki, Lənkəran-Astara iqtisadi rayonunda su təminatının yaxşılaşdırılması məqsədilə Viləşçay su anbarının genişləndirilməsi, yeni su anbarlarının tikintisi və mövcud suvarma infrastrukturunun yenidən qurulması istiqamətində mühüm layihələr həyata keçirilir. Bildirib ki, 2025-ci ildə region üzrə 35,7 min hektar əkin sahəsi suvarılıb, o cümlədən 13,4 min hektar dənli bitki, 9 min hektar bostan-tərəvəz, 5,3 min hektar çoxillik əkmələr suvarma suyu ilə təmin olunub. Vurğulayıb ki, müasir suvarma texnologiyalarının tətbiqi, su ehtiyatlarının səmərəli idarəolunması və meliorasiya layihələrinin icrası regionun aqrar potensialının inkişafına, məhsuldarlığın artırılmasına və su itkilərinin minimuma endirilməsinə mühüm töhfə verəcək.

Daha sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında bildirib ki, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi xüsusi diqqət və bu istiqamətdə qəbul olunmuş Dövlət proqramları nəticəsində rayonda çəltikçilik, çayçılıq, sitrusçuluq və digər ənənəvi kənd təsərrüfatı sahələri yeni inkişaf mərhələsinə qədəm qoyub. O qeyd edib ki, son illərdə çəltik əkin sahələri və məhsul istehsalı əhəmiyyətli dərəcədə artmış, yeni emal müəssisələri yaradılmış, çay plantasiyaları və intensiv sitrus bağları genişləndirilib, çiyələkçilik sahəsində yüksək nəticələr əldə olunub. O, həmçinin rayonun aqrar və aqro-emal potensialına diqqət çəkərək, məhsulların ixrac həcminin artdığını, soyuducu anbar infrastrukturunun inkişaf etdirildiyini, kənd təsərrüfatında məşğulluğun genişləndirildiyini bildirib.

Müşavirədə çıxış edən fermerlər və sahibkarlar rəhbərlik etdikləri təsərrüfatlarda görülən işlər, əldə olunan nəticələr və inkişaf planları barədə məlumat veriblər. Onlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək, qəbul edilmiş Dövlət Proqramında nəzərdə tutulan yeni dəstək mexanizmlərinin istehsalın artırılmasına, təsərrüfatların genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə mühüm töhfə verəcəyini qeyd ediblər. Çıxış edənlər, həmçinin regionun aqrar potensialının daha səmərəli reallaşdırılması istiqamətində Dövlət Proqramında müəyyən edilmiş hədəflərin icrasına fəal şəkildə qoşulacaqlarını və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün səylərini davam etdirəcəklərini bildiriblər.

Müşavirənin yekununda Natiq Əmirov Dövlət Proqramında müəyyən edilmiş hədəflərin yüksək məhsuldarlığa, səmərəliliyə və əlavə dəyərə əsaslanan aqrar inkişaf modelinin formalaşdırılmasına xidmət etdiyini bildirib. O qeyd edib ki, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, məhsuldarlığın artırılması, emal və saxlama infrastrukturunun inkişafı, heyvandarlıq və akvakultura sahələrinin genişləndirilməsi kimi vəzifələrin icrası mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əlaqələndirilmiş fəaliyyəti, eləcə də sahibkar və fermerlərin fəal iştirakı ilə mümkün olacaq.

***XQ***

### *Qarabağ iqtisadi rayonu*





**İyunun 16-da Qarabağ iqtisadi rayonunda Prezidentin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**

Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Ağcabədidə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlətimizin başçısının kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqlar, həmçinin Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarının aqrar inkişaf perspektivləri barədə məlumat verib. O vurğulayıb ki, 2026–2030-cu illər üçün Dövlət Proqramı qarşıdakı beş il ərzində aqrar sektorun inkişaf istiqamətlərini müəyyən edən əsas strateji sənəd olmaqla, kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, mövcud torpaq və su ehtiyatlarından daha səmərəli istifadəni nəzərdə tutur. Qeyd edilib ki, proqramda müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, toxumçuluq və damazlıq bazasının gücləndirilməsi, aqrar maliyyə və sığorta mexanizmlərinin təkmilləşdirilməsi, emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafı üzrə tədbirlər planlaşdırılıb. Bildirilib ki, regional müşavirənin əsas məqsədi Dövlət Proqramında nəzərdə tutulan hədəf və vəzifələri müzakirə etmək, yerlərdə mövcud vəziyyəti qiymətləndirmək, fermer və sahibkarların rəy və təkliflərini dinləmək və proqramın icrası ilə bağlı qarşıda duran vəzifələri dəqiqləşdirməkdir.

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev Dövlət Proqramı çərçivəsində Qarabağ iqtisadi rayonu üzrə nəzərdə tutulan prioritet istiqamətlər barədə təqdimatla çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramı aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, dayanıqlı və rəqabətqabiliyyətli aqrar sektorun formalaşdırılmasını hədəfləyir. Qeyd olunub ki, proqram 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Təqdimatda buğda və pambıq istehsalında məhsuldarlığın yüksəldilməsi, müasir suvarma sistemlərinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, lazer hamarlama texnologiyasının tətbiqi, taxıl siloları və soyuducu anbar infrastrukturunun yaxşılaşdırılması, intensiv bağçılıq, heyvandarlıq və qoyunçuluğun inkişafı üzrə tədbirlər, eləcə də fermer və sahibkarlar üçün nəzərdə tutulan subsidiya və güzəştli maliyyələşdirmə mexanizmləri barədə məlumat verilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini İlham Bayramov çıxışında Qarabağ iqtisadi rayonunun aqrar potensialının reallaşdırılmasında etibarlı və dayanıqlı su təminatının mühüm rolundan danışıb. O, region üzrə Agentliyin xidmət göstərdiyi ərazilərdə 249 min 307 hektar suvarılan sahə üçün cari ildə 1 277,651 milyon kubmetr suvarma suyunun təmin edilməsinin planlaşdırıldığını, Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarında isə ümumilikdə 5272 kilometr suvarma infrastrukturunun mövcud olduğunu qeyd edib. Bildirilib ki, qeyd edilən rayonlar üzrə 29 Su İstifadəçiləri Birliyi 249 min 870 hektar xidməti ərazini əhatə edir və 256 kənd üzrə 78 min 147 su istifadəçisinə xidmət göstərir. Çıxışda Qarabağ suvarma kanalı, Baş Mil kanalı, Yuxarı Mil kanalı və Tərtərçay suvarma sisteminin regionun su təminatında xüsusi əhəmiyyəti, suvarma infrastrukturunun təkmilləşdirilməsi, su itkilərinin azaldılması, müasir suvarma texnologiyalarının tətbiqi və Dövlət Proqramının icrası çərçivəsində fermerlərin su təminatının yaxşılaşdırılması istiqamətində görüləcək işlər barədə məlumat verilib.

Daha sonra çıxış edən sahibkarlar Ağcabədi rayonundan Vüqar Ağayev, Bərdə rayonundan Afəddin Hüseynov və Zaur İsmayılov, habelə Füzuli rayonundan fermer Facət Heydərov və Tərtər rayonundan fermer Arif Orucov Azərbaycan Respublikası Prezidentinin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqət və dövlət dəstəyinə görə təşəkkürlərini bildirərək, Dövlət Proqramının kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin genişləndirilməsi və investisiya imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Müşavirənin yekununda Şahmar Mövsümov Dövlət Proqramının yerlərdə səmərəli icrasının təmin olunması məqsədilə yerli icra hakimiyyəti orqanları, aidiyyəti dövlət qurumları, fermerlər, sahibkarlar və investorlar arasında koordinasiyalı fəaliyyətin həlledici əhəmiyyət daşıdığını vurğulayıb. Həmçinin Dövlət Proqramının fermerlər və sahibkarlar arasında geniş təbliğinin təşkili, ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində özəl sektorun fəal iştirakının təmin edilməsi və aqrar dəyər zəncirinin bütün həlqələri üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb. Bildirilib ki, müşavirədə səsləndirilən rəy, təklif və qeydlər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim olunacaq və Dövlət Proqramının icrası prosesində nəzərə alınacaq.

***XQ***

# Kənd təsərrüfatında 2030-cu ilə qədər yeni inkişaf mərhələsi formalaşacaq

**Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun aparıcı qüvvəsi olan kənd təsərrüfatı Prezident İlham Əliyevin Sərəncamı ilə mayın 25-də təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" ilə inkişafının innovativ və dinamik mərhələsinə qədəm qoyur. Dövlətimizin başçısının rəhbərliyi ilə keçirilən son müşavirədə aqrar sahədə əldə olunan uğurlar və qarşıda duran vəzifələr geniş təhlil edilib, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda "Böyük Qayıdış" çərçivəsində yaranan yeni imkanlardan danışılıb, strateji hədəflər müəyyənləşdirilib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkənin ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, su ehtiyatlarının səmərəli idarə olunması və ixrac potensialının artırılması fonunda qarşıda duran prioritet məsələlərlə bağlı AzTV, ARB TV və AZƏRTAC-a müsahibə verib. Həmin açıqlamanı təqdim edirik.**

***– Cənab nazir, bu günlərdə Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatına həsr olunmuş müşavirədə aqrar sahənin cari vəziyyəti ətraflı müzakirə edildi və 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı qəbul olundu. Proqramın təfərrüatlarına keçməzdən əvvəl istərdik aqrar sahədəki ümumi mənzərəyə nəzər salaq. Ötən hesabat ilində Azərbaycanın kənd təsərrüfatı sektorunda hansı nəticələr əldə edilib?***

– 2025-ci il Azərbaycanın kənd təsərrüfatı üçün özünəməxsus, - həm iqlim təsirləri nöqteyi-nəzərindən, eyni zamanda, məhsul istehsalı və məhsuldarlıq baxımından, - bir il oldu. Bir sıra məhsullar üzrə məhsuldarlıqda rekord həcmlər, bəzi məhsullar üzrə isə azalma qeydə alındı. Ümumilikdə, kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil etdi. Qeyri-neft ümumdaxili məhsulunda isə 8,3 faiz paya malik oldu. Məhsul istehsalı aqrar sektorda 14,2 milyard manat təşkil etmişdi. Həmin vəsait isə bitkiçilik və heyvandarlıq arasında təxminən yarıbayarı bölünmüşdü. Bitkiçilik qismən daha az, heyvandarlıq isə daha çox idi. Ümumi daxili məhsulda ümumi artım 1 faizə yaxındır. Heyvandarlıqda bu, daha aşağı - 0,3 faiz, bitkiçilikdə isə 1,5 faiz artım müşahidə olunub. Əlbəttə, son illərdə aqrar sektordakı artımın müsbət olmasına baxmayaraq, dinamika aşağı doğru gedirdi və bu, özlüyündə ekstensiv artımın artıq öz resursunun limitlərinə çatdığını göstərirdi.

Eyni zamanda, 2025-ci ildə pambıqçılıq üzrə ölkə tarixində rekord nəticə əldə olundu: bir hektardan 3,6 ton məhsul yığıldı. Bir çox bitkiçilik məhsulları üzrə məhsuldarlıq göstəriciləri artdı, lakin heyvandarlıq məhsulları üzrə isə göstəricilərimiz hələ də ürəkaçan halda deyil. Buna görə də cənab Prezident tərəfindən 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı qəbul edildi.

Həmçinin ixracat rəqəmlərinə də toxunmaq istəyirəm. 2025-ci il ixracat nöqteyi-nəzərindən aqrar sektor üçün uğurlu il oldu. Rekord həcmdə - 1,5 milyard dollarlıq məhsul ixracı həyata keçirildi. Bunun 1,1 milyard dolları məhz kənd təsərrüfatı sahəsində istehsal olunan məhsulların payına, 0,4 milyardı isə aqrar məhsullardan emal olunmuş yekun məhsulların payına düşür. İxracatda başqa bir müsbət dinamika isə odur ki, biz həm ixracat coğrafiyasının şaxələnməsini, həm də ixracat portfelində, məhsul portfelində genişlənməni müşahidə edirik. Əlbəttə ki, bunlar sevindiricidir. Amma hələ də görüləcək işlər var.

***– Prezidentin Sərəncamı ilə qəbul edilən yeni Dövlət Proqramında aqrar sektorda inqilabi dəyişikliklərə səbəb olacaq bəndlər yer alır. Qarşıya qoyulan hədəflərdən biri də aqrar sektorun ÜDM-də artım dinamikasını 2 faiz ətrafında saxlamaqdır ki, bunun üçün də konkret mexanizmlər müəyyənləşdirilməlidir. Bu hədəflərə çatmaq üçün hansı resurslardan istifadə olunacaq? Mexanizmlər hansılar olacaq və bu barədə konkret təkliflər varmı?***

– Dövlət Proqramı özlüyündə sadəcə həmin sahədə görüləcək işlər demək deyil. Əslində, daha əhatəlidir, həm fundamental, həm də dəstəkləyici tədbirləri ehtiva edir. Dövlət Proqramında Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin 2026–2030-cu illər üçün inkişafının əsasları qeyd olunub. Proqramın əsas hədəfi fundamental transformasiyaya nail olmaqdır. Ekstensiv istehsalatdan, ekstensiv məhsul istehsalından intensiv məhsul istehsalına keçidi formalaşdırmaqdır.

Bitkiçilik sahəsində son illərdə bu istiqamətdə uğurlarımız olsa da, heyvandarlıq sahəsində, təəssüf ki, intensiv təsərrüfatlar mövcuddur. Lakin onların sayı yetərincə olmadığına görə Dövlət Proqramında bu da nəzərə alınıb.

Ümumilikdə, resurs nöqteyi-nəzərindən proqramın dörd əsas sütun üzərində həyata keçirilməsi planlaşdırılır. İlk növbədə, resurs səmərəliliyinə əsaslanan kənd təsərrüfatının formalaşdırılması planlaşdırılır. İkincisi isə texnologiyaya və innovasiyaya əsaslanan kənd təsərrüfatının formalaşdırılmasıdır. Eyni zamanda, resurs səmərəliliyi, texnologiya və innovasiya, bazarlara və dəyər zənciri üzrə inteqrasiyaya, həmçinin emal sənayesinin inkişafına və məhsul istehsalının artımına nail olmaq nəzərdə tutulur.

Burada tətbiq edəcəyimiz mexanizmlər müxtəlifdir. İndiyə kimi mövcud olan bəzi mexanizmlər qorunub saxlanacaq. Həm subsidiyalar, həm güzəştlər, eyni zamanda, daha güzəştli kreditlərin verilməsi nəzərdə tutulur. Həmçinin yeni subsidiya alətlərinin təqdim olunması da planlaşdırılır. Dövlət Proqramında fundamental tədbirlər kimi dəstəkləyici tədbirlər də var. Bunlar özündə, ilk növbədə, nazirliyin fəaliyyəti ilə bağlı institusional islahatları, qanunvericilik təşəbbüslərini ehtiva edir, həmçinin rəqəmsallaşmanın, süni intellektin tətbiqi də nəzərdə tutulur.

Bu baxımdan qanunvericilik təşəbbüslərini xüsusi qeyd etmək istərdim. Çünki Azərbaycanda ilk dəfə aqrar sahə haqqında qanun hazırlanır. Bir sıra digər qanun təşəbbüsləri də olacaq. Hətta cənab Prezident tərəfindən imzalanmış 759 və 413 nömrəli fərmanlara dəyişiklikləri də qeyd etmək istərdim. Bu dəyişikliklər nəticəsində artıq Azərbaycanda heyvandarlıq istiqamətli subsidiyanın verilməsi mümkün olacaq, eyni zamanda, bağçılıq istiqamətli ilin ilkin investisiya subsidiyalarının verilməsi nəzərdə tutulur. Balıqçılıq və akvakultura məhsulları üzrə həm avadanlıqlara güzəştlərin verilməsi, həm məhsul subsidiyasının verilməsi nəzərdə tutulur. Çoxdan gözlənilən heyvandarlıq məhsulları üzrə məhsul subsidiyasının verilməsi də bu Fərmanda öz əksini tapıb.

***– Cənab nazir, əslində mənim sualım hazırda vurğuladığınız məsələ ilə bağlı idi. Paralel olaraq aqrar kredit güzəştlərinin daha geniş sahələrə tətbiqi ilə bağlı planlar nədən ibarətdir? Subsidiyaların verilmə qaydalarında dəyişiklik, yaxud subsidiya verilən məhsulların əhatə dairəsinin genişləndirilməsi gözlənilirmi?***

– Subsidiyaya köklü dəyişiklik onun məğzindən ibarətdir. İndiyə kimi subsidiyalar əsasən əkin istiqamətli olub və əsas gözlənti əkinin həyata keçirilməsi, aqrotexniki tədbirlərin görülməsi və məhsul istehsalına nail olunması idi. Lakin yeni Dövlət Proqramına, cənab Prezidentin imzaladığı fərmanlarla edilən dəyişikliklərə və yeni qanunvericilik təşəbbüslərinə əsasən subsidiyaların daha çox məhsuldarlığa yönəldilməsi, yəni məhsul istehsalı yönümlü subsidiyaların genişləndirilməsi nəzərdə tutulur.

Qeyd edim ki, əvvəllər sadəcə şəkər çuğunduru, pambıq və tütün üzrə məhsul subsidiyası verilirdi. Əslində, bu məhsul subsidiyalarının illər üzrə məhsuldarlığa necə təsir etdiyini görmüşük. Əgər 2017-2018-ci illərdə ölkə üzrə məhsuldarlıq pambıqda orta hesabla 11 sentner idisə, keçən il 36 sentner oldu. Yəni üç dəfədən çox artım müşahidə etdik. Eləcə də tütündə və şəkər çuğundurunda da eyni misalı göstərə bilərik. Keçən ildən qarğıdalı və günəbaxan tumlarının istehsalında məhsul subsidiyası tətbiq etməyə başlamışıq. Bu ildən meyvəçilikdə alma və nar istehsalı üzrə məhsul subsidiyası verilməsi nəzərdə tutulur. Dövlət Proqramı çərçivəsində məhsul subsidiyasını bitkiçilik sahəsi üzrə ildən-ilə artırmaq niyyətindəyik. Ərzaqlıq buğda subsidiyası var və yeni proqram çərçivəsində bunu da genişləndirməyi düşünürük. Əgər əvvəl subsidiya sadəcə müasir suvarma sistemi qurmuş fermerə tətbiq olunurdusa, yeni Dövlət Proqramı çərçivəsində, həmçinin emal sənayesinə də subsidiya verilməsi nəzərdə tutulur. Bundan əlavə, heyvandarlıq istiqamətində - həm ətlik, həm damazlıq istiqamətində, eyni zamanda, süd məhsulu üzrə də subsidiyanın verilməsi planlaşdırılır.

***– İşğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış" Proqramı çərçivəsində kənd təsərrüfatının bərpası sürətlə davam edir. Hazırda həmin bölgələrdə aqrar fəaliyyətlərin genişləndirilməsi, yeni infrastrukturun qurulması və yerli əhalinin məşğulluğunun artırılması istiqamətində hansı layihələr icra olunmaqdadır?***

– Kənd təsərrüfatı təkcə iqtisadi fəaliyyətə aid deyil, eyni zamanda, sosial sahəyə və regionların inkişafına təsirləri olduqca böyükdür. Statistikaya əsasən, Azərbaycanın bölgələrində və kəndlərində yaşayan əhalinin təxminən 50 faizi kənd təsərrüfatı ilə məşğuldur. Düşünürük ki, azad olunmuş ərazilərə geri qayıdan əhalinin məşğulluq göstəricisinin də bu rəqəmə yaxın olacağı gözlənilir.

Burada görülən işləri iki mərhələyə ayırmaq istərdim. İlk mərhələ 2020–2025-ci illəri əhatə edir. Bu dövr daha çox infrastrukturun qurulması, şəraitin yaradılması, yeni kənd və şəhərlərin salınması, eləcə də əhali üçün kənd təsərrüfatının təşkili modelinin formalaşdırılması axtarışları ilə xarakterizə olunur. Eyni zamanda, bu dövr ərzində orada müəyyən olunmuş təxminən 180 min hektar əkin ərazisi mövcuddur, 8 min hektara yaxın bağ sahələri, çoxillik əkmələr var. Təəssüf ki, həmin bağların bir qismi yaxşı vəziyyətdə deyildi, bərpası lazımdır, onlar yenidən qurulacaq. Bu əkin sahələrinin bir qismi - 10 min hektara yaxını kütləvi şəkildə mina və partlamamış digər silah-sursatla çirklənmiş sahələrdir. Bunlara xüsusilə də keçmiş təmas xəttində yerləşən ərazilər aiddir. Qalan ərazilərdə isə, əlbəttə ki, intensiv kənd təsərrüfatına hazırlıq işləri görülür.

Sonrakı müddəti isə ikinci mərhələ olaraq qeyd etmək istəyirəm. Belə ki, kəndlərdə yaşayan, geriyə qayıdan əhaliyə 2025-ci ildən etibarən torpaqların təhkim olunması prosesinə başlanıldı. Biz artıq 14 kənddə prosesə başlamışıq. Həmin kəndlərdən doqquzunda işlər başa çatdırılıb və fermerlərlə, əhali ilə müvafiq müqavilələr bağlanılıb. Nümunə kimi bildirim ki, ilk pilot layihəmiz Zəngilanın Ağalı kəndində oldu. Zəngilanın Məmmədbəyli, Xocalının Xanyurdu və Ballıca, Laçının Zabux kəndlərində həyata keçirilib. Xocavəndin Qırmızı Bazar qəsəbəsində hazırda həyata keçirilir. Digər kəndlərdə də əhali köçdükcə kəndətrafı torpaqların parsellənləndirilərək əkinə hazır vəziyyətə gətirilməsi və fermerlərə təhkim olunması nəzərdə tutulur.

Burada bir məqama toxunmaq istəyirəm ki, fermerlərə təklif olunan torpaqlarda minimal əkin sahəsi hədəfi qoymuşuq, bu, 5 hektardır. Beş hektardan kiçik təsərrüfatın yaradılmasına icazə verilmir. Ona görə də bəzən fermerlər torpaq sahələri az olduğundan birləşərək kooperativlər və ya ailə kəndli təsərrüfatları, fermer təsərrüfatları yaradırlar. Artıq müxtəlif kəndlərdə bir neçə həm kooperativlər, həm ailə kəndli fermer təsərrüfatları yaradılıb və onlara həmin torpaqlar təhkim olunur. Ağalını misal çəkə bilərəm, 32 fermer birləşərək üç kooperativ yaradıb. Onlara 51,6 hektar torpaq təhkim olunub və müqavilələr bağlanıb. Digər bütün kəndlərdə də bu istiqamətdə işlər aparılır.

İkinci istiqamət isə investisiya məqsədlidir, daha çox ərzaq təhlükəsizliyinə hesablanıb. Yəni daha dəyərli məhsul istehsalı istiqamətində torpaqların bu sahədə çalışan peşəkar fiziki və hüquqi şəxslərə – investorlara təhkim olunmasıdır. Bu da cənab Prezidentin Fərmanı çərçivəsində həyata keçirilir, orada təsbit olunub. Biz artıq iki müsabiqə keçirmişik. İlk müsabiqədə investorlarla təxminən 3 min 500 hektara yaxın sahə üçün müqavilə bağlanıb, növbəti beş il ərzində 70 milyon manata yaxın investisiya qoyulması nəzərdə tutulur. İkinci müsabiqədə 13 min hektar sahə müsabiqəyə çıxarılmışdı və həmin müsabiqə bu ilin fevral ayında başa çatdı. Hazırda müqavilələrin bağlanması üçün yekun proseslər həyata keçirilir. Müqavilə çərçivəsində növbəti beş il ərzində 100 milyon manatdan çox investisiyanın qoyulması nəzərdə tutulur. Burada müxtəlif istiqamətli torpaq təhkimləri həyata keçirilir. Bağçılıq, əkinçilik, heyvandarlıq, quşçuluq, istixana, gülçülük, aqroturizm istiqamətli layihələr təqdim olunur və komissiya tərəfindən baxılaraq qaliblər elan edilir. Qeyd edim ki, hazırda üçüncü və dördüncü investisiya müsabiqələri elan olunub və onların sənəd qəbulu həyata keçirilir.



***– Prezident İlham Əliyev müşavirədə kənd təsərrüfatının inkişafına mane olan 2 amili diqqətə çatdırdı. Bunlardan biri dünyada gedən proseslər, münaqişə və müharibələr, digəri isə urbanizasiya problemidir. Azərbaycan bu problemlərin təsirinə nə dərəcədə məruz qalır və çıxış yolları kimi nələri göstərmək olar?***

– Çox vacib məqamlara toxundunuz. Cənab Prezident müşavirədə bu iki məqama xüsusilə toxundu, hətta əhaliyə kəndə marağın artması və şəhərdən kəndə köçməklə bağlı çağırış etdi.

Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya olunmuş bir ölkə olduğundan, əlbəttə ki, bu amillərdən və bu təsirlərdən kənarda qalmır. İlk növbədə, regionda və dünyada gedən münaqişələrin təsiri var. Münaqişələr nəticəsində logistik zəncirlərin qırıldığını görürük və logistik zəncirlərin, təchizat zəncirinin qırılması istehsal vasitələrinin çatdırılmasında çətinliklər yaradır. Bu da öz növbəsində istehsal vasitələrinin qiymət artımına gətirib çıxarır və nəticədə kənd təsərrüfatına öz mənfi təsirini göstərir.

Yeni Dövlət Proqramında nəzərdə tutulan dəstək paketi özlüyündə çox böyük bir məbləği ehtiva edir. Növbəti beş il ərzində Azərbaycan dövləti tərəfindən əlavə 2,2 milyard manatlıq dəstək paketi nəzərdə tutulur. Mən 2020–2025-ci illərin subsidiya statistikasına və məhz bu istehsal vasitələrinin təsirinə toxunmaq istəyirəm. Əgər 2020-ci ildə kənd təsərrüfatı üzrə 380 milyon manat nominal dəyərdə subsidiya və güzəştlər verilmişdisə, 2025-ci ildə bu, 510 milyon manat təşkil etdi. Nominal ifadədə 33-35 faizlik artım görürük. Amma real ifadədə, - məhz istehsal vasitələrinin bahalaşması səbəbindən, - bu artımı biz görmürük. Ona görə də yeni paketin elan olunması məhz bu gün göstərilən dəstəkdən əlavə olaraq nəzərdə tutulur. Bu, müəyyən mənada, həmin istehsal vasitələrinin qiymət artımının hiss edilməsinin də qarşısını alacaq və ya burada fermerlər üçün müəyyən üstünlük yaradacaq. Əlbəttə ki, yeni Dövlət Proqramında əsas hədəf məhsuldarlığın artırılmasıdır. Məhsuldarlığın artırılması üçün həm müasir suvarma sistemlərinin, həm gübrə və dərmanların tətbiqi, müasir aqrotexniki tədbirlərin görülməsi mütləq bir şərt olaraq fermerlər qarşısında duracaq və dövlət dəstəyi paketi də özündə bu məqamları nəzərdə tutur.

İkinci vacib məqam urbanizasiya ilə bağlıdır. Qeyd edim ki, əgər 1950-ci illərdə, - səhv etmirəmsə bu, BMT-nin statistikasıdır, - dünya əhalisinin 20 faizi əgər şəhərlərdə yaşayırdısa, 2025-ci ildə bu, artıq 57 faiz idi. Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası – WUF13 çərçivəsində qeyd olundu ki, bu artıq BMT tərəfindən daha yuxarı faizlərlə proqnozlaşdırılır və Azərbaycan da bundan kənarda deyil. Burada diqqət etməli olduğumuz məqamlar müxtəlifdir, amma birinci vacib məqam bölgələrdə məşğulluğun, imkanların artırılması, yaradılmasıdır. Bu Dövlət Proqramının özünəməxsusluğu da ondan ibarətdir ki, əgər regionların inkişafı proqramları əvvəllər bölgələrdə infrastrukturun yaradılmasını nəzərdə tuturdusa, bu proqram həm sektoral proqramdır, həm də regionların inkişafına yönəlib. Əlbəttə ki, biz regionlarda həm məşğulluğun artırılmasından, emal sənayesinin genişlənməsindən, istixanaların yaradılmasından danışırıq. İstixanada bir hektar sahədə daha çox insan üçün iş yeri yaradılır. Dövlət Proqramı çərçivəsində bağçılığın inkişafı da nəzərdə tutulur. Bağçılıq bir hektar sahəyə görə birillik əkin, taxıl istehsalı ilə müqayisədə daha çox iş yeri yaradır. Ona görə də bu proqram özlüyündə regionlarda iş yerlərinin yaradılmasına yönəlib. Bu, insanların regionda qalmasına xidmət edəcək. Əlbəttə ki, urbanizasiya qaçılmaz məqamdır və biz bunu dünyaya inteqrasiya olunmuş bir dövlət olaraq yaşayacağıq. Amma bölgələrdə sosial infrastrukturun inkişafı, kommunal infrastrukturun yaradılması, kənd təsərrüfatı sahəsində məşğulluğun artırılması, imkanların genişləndirilməsi, eyni zamanda, sahibkarlar, fermerlər üçün imkanların yaradılması ümid edirəm ki, özlüyündə insanların marağını artıracaq.

Bir məqama da toxunmaq istəyirəm. Bu, Elm və Təhsil Nazirliyi tərəfindən bəzi bölgələrdə yeni ali təhsil ocaqlarının yaradılması təşəbbüsləridir. Əlbəttə ki, bu, çox təqdirəlayiqdir. Çünki o bölgədə gənc insanların daha çox yerləşməsinə, orada təhsil almasına və gələcəkdə yaranan iş imkanları nəticəsində orada qalıb yaşamasına şərait yaranacaq. Bu da özlüyündə kəndlərdə insanların, xüsusilə kənd təsərrüfatında çalışacaq peşəkar insanların sayının artmasına xidmət edəcək.

Bir məqamı da başa düşürük ki, urbanizasiya nəticəsində rayonlarda, kəndlərdə işçi qüvvəsinin azalması prosesi də gedir və bunun da əsas həll yolu kənd təsərrüfatında mexanizmlərin genişlənməsinə nail olmaqdır. Müasir suvarmanın, yeni texnikaların, texnologiyaların tətbiqi, dərmanlama avadanlıqlarının, müxtəlif cihazların və qoşquların tətbiqinin genişləndirilməsi, əlbəttə ki, buradakı şərtlərdən biri olacaq.

***– Suvarma suyu çatışmazlığı kənd təsərrüfatında əsas problemlərdən biri hesab olunur. Bu sahədə Dövlət Proqramının icrası problemi nə dərəcədə həll edə biləcək?***

– Son illərdə dövlət tərəfindən bir sıra iri su layihələri icra olunur. Bunlar su anbarlarının tikintisi, bəzi su kanallarının yenidən qurulması layihələridir. Buna azad olunmuş ərazilərdən misal çəkə bilərik – azad olunmuş ərazilərdə yeni Zabuxçay su anbarı tikildi. Eyni zamanda, Suqovuşan, Xaçınçay, Köndələnçay su anbarları da yenidən bərpa olundu və istifadəyə verildi. Azərbaycanın digər bölgələrində də yeni su anbarlarının inşası davam edir.

Əsas kanallardan biri olan və əvvəllər Yuxarı Şirvan kimi tanınan kanal, - hazırda adı Şirvan kanalıdır, - yenidən qurulur. Bunların hamısı, əlbəttə ki, suyun əsas kanallarda və rezervuarlarda qorunub saxlanmasına və itkinin azaldılmasına xidmət edəcək. Amma, eyni zamanda, anlamalıyıq ki, su itkisinin ciddi bir qismi məhz daha sonrakı şəbəkələrdə və təsərrüfatdaxili sahələrdə olur. Çünki kanalların əksəriyyəti torpaqdır. Məsələn, şırım sulama, klassik selləmə suvarma həyata keçirilir və bu da ciddi həcmdə su itkisinə gətirib çıxarır. Məhz bu məqam nəzərə alınaraq yeni Dövlət Proqramında cənab Prezidentin tapşırığı ilə iki əsas istiqamət mövcuddur. Birinci istiqamət müasir suvarmaların genişləndirilməsidir. Bununla damlama, çiləmə, yağmurlama, pivot suvarma sistemlərinin tətbiqinin ölkədə genişləndirilməsinə nail olmaq nəzərdə tutulur. Qeyd edim ki, 2025-ci ilin sonunadək ölkə üzrə müasir suvarma sistemlərinin tətbiqi ilə suvarılan sahə 130 min hektar təşkil edirdi. Həmin sahənin 2030-cu ildə 300 min hektara çatdırılması cənab Prezident tərəfindən hədəf kimi qarşımıza qoyulub. Bu, ölkə üçün çox vacib və strateji hədəfdir.

Biz görürük ki, müasir suvarmanın tətbiqi ilə məhsuldarlığın artmasına nail olunur. Sadə bir misal çəkim, ərzaqlıq buğda proqramı çərçivəsində müasir suvarma altında orta məhsuldarlıq 2025-ci ildə 5,8 ton təşkil edib. Halbuki selləmə suvarma və ya dəmyə ərazilərdə ölkə üzrə orta məhsuldarlıq 3 tondur. Yəni burada biz taxılda iki dəfə, bəzən üç dəfəyə qədər artım müşahidə edirik. Eyni məqamı meyvəçilikdə, tərəvəzçilikdə də görürük. Misal üçün, Tovuz bölgəsində kartof sahələrində daha çox müasir suvarma tətbiq olunur. Həmin bölgədə əgər əvvəlki illərdə orta məhsuldarlıq 20 ton idisə, müasir suvarma altında olan sahələrdə 60 ton məhsul yığılır. Ona görə də müasir suvarma məhsul istehsalının artımına, suyun qənaətinə, torpağın şoranlaşmasının qarşısını almağa xidmət edir. Bu baxımdan da Dövlət Proqramında bu sahəyə dəstək göstərilməsi nəzərdə tutulur.

Bu dəstək mexanizminə toxunum: əgər əvvəllər 20-40-40 modeli mövcud idisə - həmin müasir suvarma sistemi üçün fermer, investor və ya sahibkar 20 faiz avans ödəyirdi, 40 faiz dövlət tərəfindən subsidiyalaşdırılırdı, 40 faiz isə yenə dövlət tərəfindən beşillik müddətə faizsiz kredit olaraq verilirdi. Yeni proqramda bu format bir az dəyişdirilir və avans ödənişinin fermerlər tərəfindən 10 faiz olması nəzərdə tutulur. 40 faizinin dövlət tərəfindən güzəşt verilməsi, 50 faizinin isə özəl banklar tərəfindən kredit şəklində verilməsi planlaşdırılır. Kredit artıq 5 illik deyil, 10 illik olacaq, bunun ilk beş ilinin faizi isə dövlət tərəfindən ödəniləcək. Yəni burada da avtomatik illik ödənişlər fermer üçün daha uyğun olacaq və biz inanırıq ki, bu da müasir sistemlərin daha geniş tətbiqinə xidmət edəcək. Eyni zamanda, müasir suvarma üçün genişləndiriləcək sahələrin suvarma altında olan ərazilərdən seçilməsi nəzərdə tutulur. Bu da o deməkdir ki, artıq orada su təminatı pis və ya yaxşı, hansısa formada var və müasir suvarmanın tətbiqi - orada rezervuarın qazılması, suyun müəyyən mənada hovuzda çökdürülməsi, saxlanması və sonra müasir suvarma ilə sahəyə verilməsi - imkanları olacaq.

Müasir suvarma sistemlərinin tətbiqi ilə bağlı Azərbaycanda ilk dəfə pilot konsolidasiya layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. Həmin layihə iki rayonda – Qəbələ və Salyanda, ümumilikdə, 32 kənddə həyata keçiriləcək. Bu, dünyada çox geniş yayılmış bir təcrübədir, Avropa ölkələri bunu artıq bir neçə ildir başa çatdırıblar. Qardaş ölkə Türkiyə bunu son 10-15 ildə intensiv şəkildə tətbiq edir və xeyrini, faydalarını çox görür. Bunun Azərbaycanda ilk dəfə tətbiqi nəzərdə tutulub. Burada artıq həm kadastr xəritələrinin düzəldilməsi, parçalanmış torpaqların birləşdirilməsi, koordinatların dəqiqləşdirilməsi, fermerin torpaq sahələrinin birləşdirilməsi, eyni zamanda, suvarma suyu ilə təminat və qapalı suvarma şəbəkəsinin çəkilməsi də nəzərdə tutulur. Bu, həm ciddi şəkildə su qənaətinə səbəb olacaq, həm də fermer üçün gəliri artırmağa, əlavə dəyər yaradan məhsulların əkininə imkan verəcək. Ümumilikdə isə məhsul istehsalının artımına da xidmət edəcək.

***– İctimaiyyəti ən çox düşündürən məsələlərdən biri də ölkənin ərzaq təhlükəsizliyidir. Yerli istehsalın artırılması, məhsul yığımı prosesinin təşkili və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi üçün hansı addımlar atılır? Qarşıda dayanan əsas maneələr nələrdir?***

– Kənd təsərrüfatı sektorunun, eləcə də hər bir dövlətin qarşısında, əlbəttə ki, ərzaq təhlükəsizliyi əsas strateji hədəflərdən biri kimi dayanır. Müşavirədə cənab Prezident bu məsələyə də toxundu. Az öncə qeyd etdiyim kimi, regionda və dünyada baş verən hadisələrin fonunda hər bir ölkə üçün ərzaq təhlükəsizliyinin daha da qabarıq, daha da önəmli olduğunu görürük. Azərbaycan da bundan kənarda qalan bir ölkə olmayacaq.

Bir məqama toxunum, - bu, müşavirədə də qeyd olundu, ərzaq təhlükəsizliyinin nə qədər önəmli olduğunu vurğulamaq istəyirəm, - Azərbaycanda əkilən torpaqların təxminən 74 faizi taxıl və yem bitkiləri üçün istifadə olunur. Amma taxıl və yem bitkilərinin aqrar istehsaldakı birgə payı cəmi 11 faizdir. Yəni biz torpaq resursumuzun 74 faizini 11 faiz dəyər yaradan məhsula ayırmışıq. Amma bu, məhz ərzaq təhlükəsizliyinə görədir və hər bir ölkə, hər bir dövlət də bu seçimi, bu qərarı vermək məcburiyyətindədir. Əlbəttə ki, optimal istiqamətlər axtarılır. Bu, Azərbaycanın ərzaq təhlükəsizliyinə nə dərəcədə önəm verdiyini göstərir.

Əlbəttə ki, ərzaq təhlükəsizliyini təmin etmək nöqteyi-nəzərindən bundan sonrakı hədəfimiz, - cənab Prezidentin müşavirədə vurğuladığı tapşırıqlara uyğun olaraq, - bir sıra məhsullar üzrə özünütəminat səviyyəsini yüksəltmək və yerli istehsalın artırılmasına nail olmaqdır. Lakin buna əkin sahələrini genişləndirmək və ya heyvanların sayını artırmaqla deyil, həm heyvandarlıqda (ət və süd), həm də bitkiçilikdə (hər hektara düşən məhsul) məhsuldarlığın yüksəldilməsi sayəsində nail olmaq mümkündür. Bir az öncə danışdığımız müasir suvarma sistemlərinin tətbiqi buna xidmət edəcək amillərdəndir. Bundan əlavə, ərazilərin düzləşdirilməsi üçün lazer malanın tətbiqinin də Dövlət Proqramı çərçivəsində subsidiyalaşdırılması nəzərdə tutulur. Yəni ərzaq təhlükəsizliyinin təmin olunması üçün Dövlət Proqramında xeyli tədbirlər planlaşdırılıb.

Heyvandarlıqla bağlı, təəssüflə bildirim ki, bu gün ölkədə cins heyvanların ümumi baş sayındakı, sürüdəki payı cəmi 2,5 faizdir. Bu 2,5 faiz pay məhsuldarlığı ciddi şəkildə artırmağa imkan vermir. Əsas hədəflərimizdən biri cins heyvanların, damazlıq heyvanların artırılmasına nail olmaqdır.

Məhsul subsidiyasının bir özəlliyinə də toxunmaq istəyirəm. Məhsul subsidiyasının sadəcə istehsala deyil, həmin istehsaldan sənayeyə gətirilən həcminə görə verilməsi də nəzərdə tutulur. Burada əsas məqsədimiz xammalın sənayeyə gəlməsi və əlavə dəyər yaradaraq məhsulların istehsalına nail olmaqdır. Görürük ki, hətta bizim ticarət balansında ciddi həcmdə emal olunmuş ərzaq məhsullarının idxalı var. Bu ərzaq məhsullarının idxalının əvəzlənməsi o halda mümkündür ki, biz həm məhsul istehsalının artımına, eyni zamanda, bu məhsulun sənayeyə gəlib çıxmasına və sənayedə emal olunmasına da nail olaq.

*(ardı 10-cu səhifədə)*

# Kənd təsərrüfatında 2030-cu ilə qədər yeni inkişaf mərhələsi formalaşacaq

*(əvvəli 9-cu səhifədə)*

***– Buğda istehsalı ərzaq təhlükəsizliyinin ən vacib və strateji elementidir. İndiki 55 faizlik göstəricinin artırılmasına nail olmaq yaxın perspektivdə necə görünür və bunun üçün iqtisadi zəmin varmı?***

– Ərzaqlıq buğda ölkə üçün əhəmiyyətlidir. Ötən ilin sonuna olan statistikaya əsasən, özünütəminat səviyyəsi 55 faizdir. Bu rəqəm, cənab Prezidentin qeyd etdiyi kimi, qənaətbəxş deyil və onun artırılmasına nail olmaq lazımdır. Biz, eyni zamanda, anlayırıq ki, Azərbaycanın iqlim şəraiti və ərazi potensialı bunun 100 faizə çatdırılmasını mümkünsüz edir, amma ciddi həcmdə artırılması əsas hədəflərdən biridir.

Qəbul olunmuş Dövlət Proqramı çərçivəsində 2030-cu ildə bu sahədə özünütəminetmə səviyyəsinin 55 faizdən 66 faizə artırılması hədəflənib. Burada bizim atacağımız bir neçə konkret addım var. İlk növbədə, ərzaqlıq buğda proqramı üçün ixtisaslaşmış rayonlar artıq müəyyənləşdirilib. Birinci mərhələdə 22 rayon seçilib və bu rayonlarda müasir suvarmanın tətbiqi nəzərdə tutulur. 2030-cu ildən sonra su təminatı yaxşılaşdırılan əlavə 8 rayonun da bu proqrama qoşulması planlaşdırılır. Birinci addım vurğuladığım kimi, ixtisaslaşmadır. İkinci addım yeni toxumların introduksiyasına və daha məhsuldar, sertifikatlı toxumların istifadəsinə nail olmaqdır. Üçüncü addım, bu əkinlərin müasir suvarma sistemlərinin tətbiqi ilə becərilməsidir. Dördüncü addım isə əkin zamanı aqrotexniki tədbirlərin düzgün görülməsinə nail olmaqdır ki, biz ərzaqlıq buğda istehsalına daha çox sahə ilə deyil, bir hektardan daha çox məhsul götürərək nail ola biləк.

Bu işlərin nəticəsi olaraq, 2030-cu ildəki hədəfimiz ümumi ərzaqlıq buğda istehsalını 20 faiz artırmaq, yəni ixtisaslaşmış rayonlar üzrə bir hektardan orta hesabla məhsuldarlığın 5 tondan çox artırılmasına nail olmaqdır. Bu, idxalın da azalmasına səbəb olacaq.

Bunun üçün iqtisadi əsaslar varmı? Mən deyərdim var və son üç il ərzində ərzaqlıq buğda proqramı çərçivəsində görülmüş işlər buna nümunədir. Sadəcə qeyd edim ki, 2025-ci ildə ərzaqlıq buğda proqramı çərçivəsində 127 min tona yaxın ərzaqlıq buğda istehsal olunub. Böyük əksəriyyəti üçüncü sinif ərzaqlıq buğdadır, amma çörək istehsalı, un istehsalı üçün yararlıdır. Ona görə də bunun artırılması mümkündür, amma dediyim kimi, daha çox sahənin əkilməsi hesabına deyil, məhsuldarlığın artırılması hesabına.

***– Prezident İlham Əliyevin vurğuladığı əsas məqamlardan biri də budur ki, bu gün Azərbaycanla əməkdaşlıq etmək istəyən çox ölkələr var. Həmin ölkələrin şirkətləri müxtəlif sahələrə investisiya yatırmaqda maraqlıdırlar. Həmin şirkətlərin investisiya qoya biləcəyi sahələr necə müəyyənləşdirilir və qeyri-neft sektoruna xaricilərin marağını necə qiymətləndirirsiniz? Aqrar sahəyə kifayət qədər investisiya cəlb edə bilirikmi?***

– Xarici investisiya üçün bir neçə amil vacibdir. İlk amil sosial-iqtisadi sabitlikdir. İkinci növbədə, təhlükəsizlikdir. Üçüncü növbədə, dövlət tərəfindən ciddi həcmli təşviqlərin verilməsidir. Dördüncüsü isə həmin ölkədə uyğun işçi qüvvəsinin olmasıdır - həm bilikli, bacarıqlı, həm də optimal qiymətə. Bu amillər olduğu halda kapitalın, investisiyanın o ölkəyə axını müşahidə edilir. Azərbaycan sadaladığım bütün meyarlara cavab verir.

Ona görə də düşünürəm ki, yeni Dövlət Proqramı çərçivəsində xarici ölkələrdən investorların Azərbaycana cəlb olunması daha da asanlaşacaq, maraq getdikcə artacaq. Bu marağı da biz artıq yeni Dövlət Proqramı təsdiqlənəndən bəri görürük. Kənd Təsərrüfatı Nazirliyinə müxtəlif müraciətlər daxil olur, Azərbaycana müxtəlif - heyvandarlıq, istixana, üzümçülük-şərabçılıq istiqamətlərində sərmayə qoymaq istəyən xarici investorlardan müraciətlər gəlir. Sərmayə həcmləri nə qədər olacaq bilmirəm, bunu zaman göstərəcək. Amma cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan sabitliyi, coğrafi mövqeyi, iqtisadi təşviq mexanizmləri ilə hazırda investorlar üçün çox münbit bir şərait yaradıb. Bu, əlbəttə ki, öz müsbət təsirini göstərəcək.

***– Ölkə ərazisində hazırda yeni soyuducu anbarların inşası gündəmdədir. Son illərdə Azərbaycanda, ümumilikdə, 400 min ton tutumu olan soyuducu anbarlar yaradılıb. Həmin həcmin 500 min tona çatdırılması qarşıya hədəf qoyulub. Bu istiqamətdə hansı addımlar atılacaq?***

– Ümumilikdə soyuducu anbarların, taxıl silolarının əsas məqsədi logistik zəncirlərin inkişaf etdirilməsi, məhsulun saxlanma şəraitinin yaxşılaşdırılması və məhsulun "rəf" ömrünün uzadılmasıdır. Ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən ehtiyatların yaradılması ilə yanaşı, saxlanması da çox əhəmiyyətlidir.

Bu günlərdə Türkiyədə keçirilən Sıfır Tullantı Forumunda iştirak etdim və orada Nazirlər Konfransında çıxışım zamanı da bildirdim ki, biçindən sonra dəyər zəncirində itkilərin azaldılması ancaq və ancaq saxlanma, daşınma şəraitlərinin müəyyən standartlara çatdırılması və o standartların artırılması hesabına mümkündür. Dünya ölkələrinin bir çoxu məhz bu istiqamətdə müzakirələr aparırdı ki, buna necə nail olmaq olar.

Bir neçə rəqəmə toxunum. Məsələn, Çin son beş ildə ümumi taxıl saxlama gücünü 30-40 faiz artırıb. Rusiya 2-3 dəfə artırıb. Türkiyə son beş ildə 9 milyondan 12 milyona çatdırıb, 2030-cu ilə qədər 20 milyonadək artırmağı planlaşdırır. Yəni bu, bizə onu göstərir ki, məhsulların biçindən sonra saxlama şəraitinin yaxşılaşdırılması, itkilərin azaldılması özlüyündə müəyyən iqtisadi fayda və dəyər yaradır.

Bu baxımdan, əlbəttə ki, cənab Prezident tərəfindən Azərbaycanda həm soyuq hava depolarının sayının artırılması, eləcə də taxıl silolarının genişləndirilməsi hədəf olaraq qarşımıza qoyulub. 2030-cu ilə qədər ilkin hədəf soyuq hava depolarının 100 min tona, taxıl silolarının isə 150 min tona artırılmasıdır. Bu, yetərlidirmi? Xeyr, 2030-cu ildən sonra da bunun artırılmasına ehtiyac olacağını düşünürük. Nəyə görə? Çünki biz, eyni zamanda, meyvə, tərəvəz və taxıl istehsalının artırılmasını hədəfləyirik. Bu baxımdan bizə daha çox saxlama gücü lazım olacaq. Ehtimal ki, soyuducu anbarların ümumi tutumunu 2030-cu ildən sonra 500 min tondan 900 min tona çatdırmağı hədəfləməli olacağıq. Taxıl siloları üzrə isə həcmin 2 milyon 50 min tondan 2 milyon 500 min tona çatdırmaq hədəflənəcək. Əlbəttə ki, bunlar həm fermerlərin gəlirlərinin artmasına, məhsulun saxlanmasına, itkilərin azaldılmasına, məhsulun fərqli mövsümlərdə satılmasına, eləcə də bunun hesabına dəyərin artmasına xidmət edəcək. Üstünlüklər çoxdur. Əlbəttə ki, hazırda ümumi tutum gücü 400 min ton olan soyuq hava depolarının, eləcə də 1 milyon 900 min tonluq taxıl silolarının da böyük əksəriyyəti məhz dövlət dəstəyi hesabına yaradılıb. Biz bunu davam etdirəcəyik.

***– Yeni Dövlət Proqramına görə, maliyyələşmənin bir hissəsi – təxminən 3 milyard manat vəsait özəl sektor tərəfindən yatırılmalıdır. Özəl sektorun marağını təmin etməkdən ötrü hansı tədbirlər görüləcək? Digər tərəfdən, kənd təsərrüfatında yeni mərhələyə keçiddə aqroparkların rolunu necə qiymətləndirmək olar? Aqroparklar kənd təsərrüfatı qarşısında qoyulan prioritetlərin icrası prosesinə nə qədər hazırdır?***

– Tamamilə doğru qeyd etdiniz. Özəl sektorun yeni Dövlət Proqramının icrasında özünəməxsus rolu olacaq. Hətta cənab Prezident müşavirədəki çıxışında məhz investorlara və özəl sektora çağırış etdi. Bu, onların nə dərəcədə əhəmiyyətli və proqramın icrasında aparıcı bir qüvvə olduğunu bir daha göstərir. Bu proqram çərçivəsində dörd il yarım ərzində aqrar sektora 5,9 milyard manat investisiya cəlb olunması gözlənilir. Bunun 3,7 milyard manatının özəl sektor tərəfindən, 2,2 milyard manatının isə dövlət tərəfindən yatırılması nəzərdə tutulur. Ümumilikdə, dövlətin buradakı rolu daha çox təşviqedici, administrativ, dəstəkverici, eləcə də müəyyən mənada maliyyələşdirici olacaq. Bu işlərin - investisiyaların qoyulmasının, torpaqların hazırlanmasının, tikintilərin həyata keçirilməsinin, texnikaların, heyvanların gətirilməsinin və fermaların qurulmasının birbaşa özəl sektor tərəfindən icra olunması nəzərdə tutulur. Bu baxımdan, əlbəttə ki, özəl sektorun əhəmiyyəti çox böyükdür. Dövlətin investisiya qoyuluşunda verdiyi dəstək ümumi maliyyənin 35-40 faizidir və bu, özlüyündə təşviqedici bir xarakter daşıyır. Amma bundan əlavə, müsahibənin əvvəlində də qeyd etdiyim kimi, Dövlət Proqramı özündə eyni zamanda, qanunvericilik təşəbbüslərini də ehtiva edir. Qanunvericilik təşəbbüsləri fermerlər, sahibkarlar, investorlar üçün yeni ciddi imkanların yaranacağını göstərir. Buraya həm toxumçuluq və balıqçılıq sahələrində qanun və müvafiq sənədlərin yenilənməsi, "Aqrar sahə haqqında" Qanunun qəbul olunması, konsolidasiya üçün müxtəlif qanunlara və fərmanlara dəyişikliklərin edilməsi daxildir. Bir az əvvəl də bildirdim, cənab Prezident tərəfindən subsidiya və güzəştlərə dair 759 və 413 nömrəli fərmanlara dəyişikliklər təsdiqləndi. İmzalanmış daha iki yeni Fərman ixracatda logistikaya dəstəyin verilməsini və kredit faizlərinin subsidiyalaşdırılmasını da özündə ehtiva edir. Bunların hamısı aqrar sektor, investorlar üçün ciddi dəstəkdir və yatırılan kapitaldan daha tez fayda götürməyə xidmət edəcək, eyni zamanda, məhsulun daha uzunmüddətli istehsalına da gətirib çıxaracaq.

Dövlət Proqramı 4-5 ili əhatə etsə də, görüləcək işlər aqrar sektorun fundamental dəyişikliklərinə səbəb olacaq, daha dayanıqlı, daha uzunmüddətli inkişafa xidmət edəcək. Biz bunun təsirini əsasən 2030-cu ildən sonra görəcəyik. Əlbəttə, özəl sektor üçün də maraqlıdır ki, sərmayə yatırdıqları sahə, istiqamət, sektorlar onlara qısamüddətli deyil, daha uzunmüddətli fayda vermə imkanı saxlasın.

***– Son illər aqrar sahədə rəqəmsallaşma sürətlənib. Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi yaradılıb, subsidiyaların verilməsi, hətta yaylaqlara getmək üçün müraciətlərin qəbulu elektron qaydada həyata keçirilir. Bəs, fermerlərimizin rəqəmsal bacarıqları hansı səviyyədədir? Bu sahədə maarifləndirmə aparılırmı?***

– Siz çox vacib bir məqama toxundunuz. 2020-ci ildə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) yaradılıb və fermerlər əkdikləri məhsullar, sahələrin yerləşməsi barədə orada bəyanlar edirlər. Baxmayaraq ki, artıq mobil tətbiq hazırlanıb, bəyanlar veb-portal üzərindən kompüter olan istənilən bir yerdən də həyata keçirilə bilər. Təəssüf ki, deyərdim fermerlərin 95 faizindən çoxu hələ də bizim regionlarda olan DAİM-lərə, yerli orqanlara, kənd təsərrüfatı idarələrinə yaxınlaşaraq, orada bu bəyanın keçirilməsini xahiş edirlər və bizim operatorlar onlar üçün bu bəyanı, məlumatın doldurulmasını yerinə yetirirlər. Etiraf etməliyəm ki, bizim fermerlərin mobil tətbiqdən və ya elektron platformadan istifadəetmə vəziyyəti bu gün istənilən səviyyədə deyil.

Amma bununla bağlı Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan tədbirlər var - maarifləndirmə tədbirləri nəzərdə tutulur. Eyni zamanda, kənd təsərrüfatında elektron, rəqəmsal həllərin istifadəsini təhsilə də inteqrasiya etməyi düşünürük. Artıq bu ilin sentyabr ayından Azərbaycan Dövlət Aqrar Universitetində məhz bu istiqamətdə tədris və təlimlərin keçirilməsi nəzərdə tutulur. Bizdə hər il 1500-ə yaxın tələbə məzun olur. Bu o deməkdir ki, hər il aqrar sektorda çalışacaq daha 1500 nəfər bu biliklərlə sahib olacaq. Onların da hər biri Azərbaycanın bir kəndində, bir bölgəsində olacaq və bu biliklərin yayılmasına xidmət edəcək.

Bu istiqamətdə görüləcək işlərimiz çoxdur. Biz bu gün rəqəmsallaşmanı nə qədər genişləndirmək istəsək belə, fermerlərin bundan istifadəetmə bacarıqlarının aşılanması əsas çağırışlardan biri olaraq qarşımızda durur. Bu gün əgər göstərdiyimiz xidmətlərin təxminən 55 faizini elektron platforma üzərindən təqdim edə biləriksə, hədəfimiz 2030-cu ildə bu rəqəmin 100 faizə çatdırılmasıdır. Amma bunun 100 faizə çatdırılması 100 faiz istifadə olunması demək deyil. Ona görə də maarifləndirmə, fermerlərin təşviq olunması istiqamətində işlər görəcəyik.

Bir məqama da toxunum, Aqrar Süni İntellekt layihəsi çərçivəsində hazırlanan modullardan biri məhz "Fermer reytinqi" moduludur. Orada fermerin elektron platformadan və rəqəmsal həllərdən istifadə etmə səviyyəsi onun reytinqinə təsir edən amillərdən biri kimi nəzərdə tutulub. Ümid edirik ki, bu kimi təşviqedici amillər də onların maariflənməsinə xidmət edəcək.

***– Cənab nazir, intensiv bağçılıqdan danışaq. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə intensiv bağçılıq inkişaf etdirilir. Bununla bağlı nə deyə bilərsiniz? Həm ixrac, həm də müasir becərmə texnologiyalarının tətbiqi baxımından.***

– 2025-ci ilin sonuna olan statistikaya əsasən, ölkədə 50 min hektara yaxın intensiv bağ salınmışdı və bu, son 5-7 ildə görülmüş işlərin nəticəsidir. Təkcə keçən il biz 10 min hektara yaxın yeni intensiv bağın salınmasına nail olmuşuq. Bunun getdikcə genişlənməsi nəzərdə tutulur. 2030-cu ilə qədər 50 min hektarın 70 min hektara çatdırılması hədəf olaraq qarşımıza qoyulub.

Nəyə görə intensiv bağçılıq? İlk növbədə, məhsulvermə daha tez olur. Bir hektardan daha çox məhsul götürülür. İntensiv bağçılıq düzgün sortlar seçildiyi halda məhsulu bazara daha erkən çıxarmağa imkan yaradır ki, bu da fermerin qazancının artırılmasına xidmət edir. Eyni zamanda, əlavə iş yerləri deməkdir. Yəni intensiv bağda işçi qüvvəsinə daha çox ehtiyac yaranır. Əlbəttə ki, eyni zamanda, xüsusi bilik və bacarıqların təşviqinə də şərait və imkan yaradır. Bu baxımdan intensiv bağçılığın inkişafı əsas hədəflərimizdən biridir.

Eyni zamanda, Azərbaycanda iqlim şəraiti ona imkan verir ki, biz müxtəlif meyvələrin istehsalının genişləndirilməsinə nail olaq. Bu, həm də bir hektardan daha çox əlavə dəyərin, daha çox iqtisadi dəyərin yaradılmasına xidmət edir. Misal üçün qeyd edim ki, bir hektar alma bağının bir hektar dənli-paxlalı sahədən bəzi hallarda 30 dəfəyə qədər dəyər yaratmaq potensialı var. Eləcə də bunu digər meyvə-tərəvəzlərə də şamil edə bilərik. Ona görə də intensiv bağçılığın artırılması hədəflənib. Xüsusilə də azad olunmuş ərazilərdə. Azad olunmuş ərazilərdə keçirilmiş ilk iki müsabiqə göstərir ki, 8 min 500 hektar yeni bağların yaradılmasına maraq var. Biz hələ bundan sonra da müsabiqələr keçirəcəyik. Soyuq hava depolarını, logistik imkanları da nəzərə almaq lazımdır. Həmçinin inanıram ki, Zəngəzur dəhlizinin açılması, Şimal-Cənub dəhlizinin tam işə düşməsi və Orta Dəhliz üzərində yerləşməyimiz də istehsal olunacaq məhsulların daha qısa müddətdə dünya bazarlarına çatdırılmasına xidmət edəcək. Bu da özlüyündə həm ölkəyə əlavə valyuta gətirəcək, məşğulluq və iqtisadi dəyəri artıracaq.

***– Kənd təsərrüfatının inkişafında innovativ vasitələrin tətbiqi, süni intellekt və rəqəmsallaşmadan istifadə ətrafında danışdıq. Bu məsələ indiki iqtisadi trendlər kontekstində olduqca aktual səciyyə daşıyır. Çünki burada həm kadr potensialı, həm də yeni texnologiya lazımdır.***

– Bir az əvvəl biz rəqəmsallaşmanı müzakirə etdik. Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi platforma olaraq statik bir platformadır və özündə sadəcə məlumatın daxil edilməsini ehtiva edir. Bu fonda, əlbəttə ki, məlumatların toplanması, mərkəzləşdirilməsi, təhlili funksiyaları icra olunur. Amma biz bunun faydasını nə vaxt görəcəyik? Məhz süni intellekt həllərinin tətbiqindən sonra. Yəni burada nəzərdə tutulanlar nələrdir? Biz fermerin tarixçəsini EKTİS vasitəsilə əldə edirik ki, nə əkir, nə qədər əkir, harada əkir. Aparılan torpaq analizləri sayəsində torpaq xəritəsi yaradılır. Ölkədə hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bütün meteostansiyalarından məlumat alınır. Əlavə olaraq, Kənd Təsərrüfatı Nazirliyinin süni intellekt layihəsi çərçivəsində 30-a yaxın meteostansiya yeni qurulub. Həmçinin bir o qədər də özəl sektorun öz sahələrində qurduğu meteostansiyalar mövcuddur. Onları da bu platformaya qoşaraq, əkilən məhsulların necə fayda verəcəyi, iqlimin məhsuldarlığa necə təsir göstərəcəyi məlumatlarını toplaya bilirik.

Bununla bərabər, biz bir qayda qoyduq ki, ölkəyə idxal olunan bütün kombaynlar həm GPS-lə təchiz olunsun, həm də məhsul toplama bunkerində sayğaclar quraşdırılsın. Bunlar şərtdir. Bu məlumatların da mərkəzi bazaya toplanması nəzərdə tutulur. Ümumilikdə, bütün bunlar fermerə məlumatın ötürülməsinə, təhlil olunmasına, onun sahəsində baş verə biləcək risklərin öncədən fermerə çatdırılmasına və hansı addımların atılmasına imkan yaradacaq. Suvarmaya gəldikdə, eyni məqam burada da nəzərə alınıb. Torpaq və bitki su stresi yaşayırmı, yetərincə nəmlik və rütubətlik varmı, əlavə suvarmaya ehtiyacı varmı – biz bu kimi məlumatları fermerin mobil telefonuna göndərə biləcəyik. Belə mesajlar fermerlərə gündəlik olaraq teleqram üzərindən göndərilir. Orada saat aralıqları da göstərilib. Bitki növündən asılı olaraq üç gün ərzində fermerin sahəsində iqlimə görə hər hansı bir zərərvericinin, xəstəliyin yaranma ehtimalları ölçülür və məlumat ona göndərilir. Eyni zamanda, dərmanlamaya ehtiyac varsa, dərmanlamanın ən uyğun saatlarını da mesaj kimi fermerə göndəririk. Bu, bizim ilk pilot layihəmizdir və sınaq işlərinə bir aya yaxındır ki, başlamışıq. Yəni bu həllər vasitəsilə süni intellektin fermerə verə biləcəyi faydaları vurğulayır, həmçinin kadr və bilik çatışmazlığını bunun sayəsində aradan qaldırmağa çalışırıq.

Kadr yetişdirilməsinə gəlincə, Dövlət Proqramı çərçivəsində əsas hədəflərdən biri də ikili diplom proqramı ilə məzunların sayının artırılmasıdır. Azərbaycan Dövlət Aqrar Universiteti ilə Türkiyənin Ege Universiteti arasında ikili diplom proqramı mövcuddur. Biz 2025-ci ildə 46 məzun yetişdirmişiksə, 2030-cu ildə bu sayın 500 nəfərə yaxın artırılması nəzərdə tutulur. Bundan əlavə, Macarıstanın MATE Universitetinin Azərbaycanda fəaliyyətə başlaması planlaşdırılır. Yəni aqrar sahədə təhsili mümkün qədər artırmağa çalışacağıq. Bilikli kadrların artırılması da süni intellekt həllərindən, rəqəmsal həllərdən istifadənin genişlənməsinə xidmət edəcək.

***– Son dövrlər dəyişkən iqlim şəraiti, xüsusən intensiv yağışlar kənd təsərrüfatına necə təsir edir? Təbii amillərin vurduğu ziyanın aradan qaldırılması və fermerlərin risklərdən qorunması istiqamətində nazirlik tərəfindən hansı tədbirlər görülür? Ümumiyyətlə, bu sahədə iqlim dəyişiklikləri ilə bağlı riskləri necə azaltmaq olar? Aqrar sığorta mexanizmi bu prosesdə necə rol oynayır?***

– Kənd təsərrüfatı iqlim təsirlərindən bəzən faydalanan, bəzən isə çox ciddi zərər görən bir sektordur. Azərbaycan da bundan kənarda qalmır. Misal çəkə bilərəm, 2023-cü ildə Azərbaycanda quraqlıq səbəbindən dəmyə torpaqların üçdəbiri məhsul itkisi və quruma ilə üzləşdi. Bu il yazda çiçəkləmə dövründə yağışlar meyvə bağlarına zərər vurdu və sair. İqlim dəyişmələri, o cümlədən yağışın intensivliyi və ya bəzi hallarda anomal paylanması, quraqlıq, fırtınalar, küləklər – bunların hər birinin öz təsiri var.

Burada iki istiqamətdə addım atırıq. Bir neçə il öncə ölkədə aqrar sığorta mexanizmi yaradıldı və aqrar sığorta mexanizmi sayəsində bəzi bitki məhsulları üzrə, - hansı ki, dövlət subsidiyalaşdırır, - müəyyən mənada, icbari sığorta mövcuddur. Burada iqlim hadisələri, sığorta hadisələri baş verdikdə fermerlərin zərəri kompensasiya olunur. Amma eyni zamanda, könüllü sığortalanan fermerlər də var və biz könüllü sığortalananların sayının ildən-ilə artdığını görürük. 2025-ci ilin sonuna ümumi sığortalanan sahə 386 min hektar təşkil edir. Əlbəttə ki, bunun artırılması - 2030-cu ildə 1 milyon hektara çatdırılması nəzərdə tutulur. Bu, əkin sahələrimizin təxminən 65-75 faizinin sığortalanması deməkdir. Təkcə 2025-ci ildə sığorta hadisələrinin baş verməsi ilə bağlı 600-ə yaxın fermerin müraciəti olmuşdu. Ötən il 2024-cü ildən qalma vəsaitlər də daxil olmaqla, ümumilikdə, 9 milyon manatdan çox ödəniş həyata keçirilib. Bu mexanizm məhsulun istehsalının dayanıqlılığını və davamlılığını təmin etmək məqsədi daşıyır.

Sığorta, qeyd etdiyim kimi, birinci mexanizmdir. İkinci mexanizm az əvvəl danışdığımız istiqamətlərdə süni intellektin tətbiqidir. Burada fermer öncədən məlumatlandırılır və ata biləcəyi müvafiq addımlar varsa, ona bu barədə məsləhət verilir. Fermer nə qədər öncədən xəbərdar olsa ki, hər hansı bir iqlim hadisəsi baş verə və məhsuluna zərər vura bilər, onun önləyici addımlar atmağa imkanı yaranacaq. Eyni zamanda, bəzi iqlim hadisələrinə, xüsusən də doluya qarşı bağların üzərinə çəkilən qoruyucu torlar və onların mexanizmləri artıq dövlət güzəşti proqramına daxil edilib və bu avadanlıqlara da 40 faizlik dövlət güzəşti tətbiq olunur. Yəni fermerlərə iqlim hadisələrinə görə dəstək olmağa çalışırıq. Amma bu bir reallıqdır ki, kənd təsərrüfatı sektoru daim iqlimə qarşı həssas olaraq qalacaq.

Bir məqama da toxunmaq istəyirəm. Türk professorun vaxtilə mənə dediyi bir ifadə var: "Əkinçilik üstüaçıq zavod kimidir". Yəni sahədə biz çox iş görə bilərik, amma göydən nə düşəcək, necə olacaq, iqlimin nə kimi sürprizləri ilə qarşılaşacağıq, bunu bilmirik. Bu, işin bir tərəfidir. Amma digər tərəfdən bunun bir həlli tapılıb - istixanalar. Dövlət Proqramı çərçivəsində 2030-cu ilə qədər əlavə 500 hektar istixananın yaradılması nəzərdə tutulur. İstixanalar bir hektara daha çox iş yeri, daha çox iqtisadi dəyər yaradır. İstixanaların sayəsində ixracat potensialımız artır. Əlbəttə ki, bu, ərzaq təhlükəsizliyimizin və özünütəminat səviyyəmizin də yüksəlməsinə xidmət edəcək.

***– Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixrac potensialı, coğrafiyası və şaxələndirilməsi barədə nələri demək olar? Cənab Prezident də müşavirədə qarşıdakı müddətdə aqrar məhsullarımızın ölkəmiz üçün ənənəvi sayılan bazarlarda nə vaxta qədər tələbat olacağı məsələsini vurğuladı.***

– 2025-ci il Azərbaycanın kənd təsərrüfatı ixracı üçün ən uğurlu illərdən biri oldu və rekord ili oldu. Qeyd etdiyim kimi, 1,5 milyard dollarlıq ixracat həyata keçirildi. Bunun 1,1 milyardı istehsal olunmuş kənd təsərrüfatı məhsulları, 0,4 milyardı isə emal olunmuş kənd təsərrüfatı, qida məhsulları idi.

Son beş ildə ixrac coğrafiyamıza nəzər salsaq, ixracda ilk beş ölkənin, həmçinin ilk üç məhsulun payının azalmasını müşahidə edirik. Bizim əsas ixrac məhsullarımız birinci yerdə meyvə məhsullarıdır, ikinci tərəvəz, üçüncü pambıqdır. Bu üçünün payı əgər beş il əvvəl 87 faiz təşkil edirdisə, keçən il bu, 78 faizə düşüb. Bu, onların payının azalmasını, digər məhsulların payının artmasını göstərir.

Eyni zamanda, biz bunu ixracat coğrafiyasında görürük. Ötən il ixrac coğrafiyasında əsas ölkələr Rusiya, Türkiyə, Gürcüstan, Almaniya, İtaliya, Mərkəzi Asiyadan Özbəkistan olub. Amma müxtəlif məhsullar üzrə müxtəlif ölkələrdən asılılıq hələ də qalır. Cənab Prezidentin də qeydi məhz bununla bağlıdır. Həmin ölkələrdə, yəqin ki, özünütəminat, ərzaq təhlükəsizliyi üzərində düşünürlər. Onların atdığı addımlar çərçivəsində bizim üçün bazar imkanları daralacaqmı? Bu, araşdırılmalıdır. Alternativ bazarlar hara ola bilər?

Əlbəttə ki, biz son illərdə müxtəlif məhsulların Yaxın Şərqə ixracının artdığını görürük. Potensial kimi Çin bazarını görürük. Şaxələndirmə bizim üçün yenə də əsas prioritet olaraq qalacaq və Dövlət Proqramı çərçivəsində də yeni bazarlara çıxış üçün sertifikat subsidiyasının verilməsi nəzərdə tutulur. Beynəlxalq kənd təsərrüfatı təcrübələrinə malik sertifikatların maliyyələşməsi və ya o sertifikatları tətbiq edən fermerlərə, sahibkarlara əlavə güzəştlərin tətbiqi planlaşdırılır. Cənab Prezident tərəfindən imzalanmış 759 nömrəli Fərmanda dəyişikliklərdən biri də məhz sertifikat subsidiyası imkanının yaradılmasıdır. Sertifikatlaşma nə üçün əhəmiyyətlidir? Çünki sertifikat bir çox dünya bazarlarına çıxış zamanı Azərbaycan məhsullarının müəyyən standartlara cavab verməyini təsdiqləyən sənədlər formasında çıxış edəcək. Bu da yerli sahibkarlar, fermerlər üçün alternativ bazarlara çıxış imkanı yaradacaq.

***– Torpaqlardan səmərəli istifadə məsələsinə gələk. Sizcə, fermerlər torpaqlardan daha səmərəli istifadə etmək üçün nə etməlidirlər, tövsiyəniz nədir? Dövlət Proqramı çərçivəsində bu istiqamətdə hansı addımlar atılacaq?***

– Azərbaycanda torpağın səmərəli istifadəsi baxımından qarşıda duran ən böyük çağırış torpaqların bölünməsidir. Bir fermerə bu gün 1,8 parsel sahə düşür. 124 min fermerin əkin sahələri iki və daha çox ərazidən ibarətdir. Bu, avtomatik həmin sahələrdə əkinin həyata keçirilməsi resurslarını iki və daha çox yerə bölmək, bir yerə bir neçə dəfə gedib-gəlmək deməkdir. Qeyd olunanlar isə bütün istehsal vasitələrinin qeyri-effektiv istifadəsinə gətirib çıxarır. Eyni zamanda, müasir suvarmanın tətbiqini də çətinləşdirir. Çünki sahə nə qədər kiçikdirsə, orada müasir suvarmanın tətbiqi daha da çətinləşir.

Bu nöqteyi-nəzərdən Dövlət Proqramı çərçivəsində qeyd etdiyim kimi, ilk dəfə konsolidasiya layihəsinin icrası planlaşdırılır. İki rayonda, 32 kənddə - Qəbələ və Salyanda bunun həyata keçirilməsi nəzərdə tutulur. Biz inanırıq ki, məhz konsolidasiya fermerlərin torpaqlarının birləşdirilməsinə, su ilə, qapalı suvarma şəbəkəsi ilə təmininə, müasir suvarmanın qurulmasına və ən əsası da torpaqdan səmərəli istifadəyə, daha dəyərli bitkilərin, daha çox dəyər yaradan bitkilərin istehsalına imkan verəcək.

***– Ərazi cəhətdən bizdən heç də böyük olmayan Niderland, İsrail kimi ölkələr kənd təsərrüfatında keyfiyyəti əsas tutaraq böyük nəticələr əldə edirlər. Hazırda biz aqrar sahəni hansı model əsasında inkişaf etdiririk? Hansı ölkələrin təcrübəsini əsas götürməliyik?***

– Azərbaycan tarixən kənd təsərrüfatında daha çox ekstensiv artım üzərindən inkişaf yolunu seçib. Məhz cənab Prezidentin son illərdə imzaladığı fərmanlar və təsdiqlədiyi Dövlət proqramları, o cümlədən yeni Dövlət Proqramı ekstensiv modeldən intensiv modelə keçidi özündə ehtiva edir. Adlarını çəkdiyiniz ölkələrə məxsus əsas xüsusiyyətlərə daha az sahədən daha çox və daha dəyərli məhsul istehsal etmək daxildir. Eyni zamanda, elmi tədqiqatların və təhsilin özəl sektorla və aqrar sahə ilə intensiv işini özündə ehtiva edir. Bunların hamısı yeni Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulur.

Azərbaycanın özünəməxsus dinamikası, özünəməxsus iqlim şəraiti, özünəməxsus suvarma şəbəkəsi mövcuddur və biz bu reallıqları göz önündə saxlamalıyıq. Bunların inkişafı sadəcə aqrar sektorun inkişafı ilə bağlı olmayacaq. Çünki aqrar sektor, eyni zamanda, iqtisadiyyatın bir parçasıdır. İqtisadiyyatın bir parçası olaraq da, adətən iqtisadiyyatdan fərqli bir dinamika sərgiləmir. Regionların sosial və kommunal infrastrukturu inkişaf etdikcə, Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan layihələr icra olunduqca fermerlər üçün yeni imkanlar yaranacaq və daha az resursla daha çox məhsul istehsal olunması məntiqini tətbiq edə biləcəyik. Biz məhsul subsidiyasını tətbiq etdikcə, inanıram ki, fermerlər daha çox məhsul istehsal etməyə, vahid ərazidə məhsuldarlığı artırmağa meyilli olacaqlar.

Eyni zamanda, qeyd edim ki, Dövlət Proqramı çərçivəsində elmi-tədqiqat institutlarının transformasiyası, restrukturizasiyası nəzərdə tutulur. Məsələn, bu sıraya Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzinin yaradılması daxildir. Artıq cənab Prezident tərəfindən bununla bağlı Fərman da imzalanıb. Burada məqsəd elmi tədqiqatların və təhsilin özəl sektorla və sahə ilə birbaşa inteqrasiya olunmuş şəkildə fəaliyyətinə nail olmaqdır. Adlarını sadaladığımız ölkələrin ən böyük uğurları məhz buradadır.

İsraildən götürə biləcəyimiz nümunə suyun idarə olunmasıdır. Yaxud heyvandarlığı da nümunə götürə bilərik. İsrailin heyvanbaşına məhsuldarlığı bir gündə bir inəkdən orta hesabla 40 litr süddür. Azərbaycanda isə fermerlər, təəssüf ki, bu cins heyvanların Azərbaycana uyğun olmadığını və soyuq ölkələrdən gəldiyini, daha çox soyuq iqlimə uyğun olduğunu qeyd edirlər. Mən həmişə İsraili misal çəkirəm. Eyni heyvandır, - düzdür, müəyyən illərdə seleksiyadan keçib, 30 ilə yaxın bir dövrdə - amma İsraildə buna nail olublar. Nəyə görə biz Azərbaycanda buna nail olmayaq? İnanıram ki, buna mütləq nail olacağıq.

Eyni misalı Cənubi Koreyadan da çəkə bilərəm. Cənubi Koreya, Niderland və İsrail ərazi baxımından Azərbaycana oxşardır və bunlar bizim model istiqamət götürə biləcəyimiz ölkələrdir. Amma, eyni zamanda, iqlim şəraitimizi, real imkanlarımızı və daxili potensialımızı əsas götürərək, oradakı elmin, təhsilin və texnologiyaların Azərbaycana gətirilməsinin, fermerlərin maarifləndirilməsinin, habelə yeni kadrların yetişdirilməsinin zamanla kənd təsərrüfatımıza böyük töhfələr verəcəyinə inanıram.

***– Çox sağ olun, cənab nazir, müsahibə üçün təşəkkür edirik.***

– Mən də sizə təşəkkür edirəm. Ümid edirəm ki, bu müsahibə, eyni zamanda, yeni Dövlət Proqramının daha geniş kütlələrə çatdırılmasına, eləcə də aqrar sektora həm xarici investorların, həm yerli özəl sektorun da marağının artırılmasına xidmət edəcək. Biz Kənd Təsərrüfatı Nazirliyi olaraq 7/24 fermerlərin yanındayıq, istənilən sualları operativ şəkildə cavablandırmağa və onlara dəstək olmağa hazırıq.

***– Sağ olun.***

# İslam İnkişaf Bankı Qrupunun illik toplantısı

**Dünən Bakıda İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci illik toplantısı öz işinə başlayıb. Ayın 19-dək davam edəcək iclaslarda yüksəksəviyyəli dövlət rəsmiləri, üzv ölkələrin maliyyə, iqtisadiyyat, planlaşdırma, inkişaf və investisiya nazirləri, beynəlxalq və regional maliyyə institutlarının rəhbərləri və özəl sektor nümayəndələri iştirak edirlər.**

"Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusuna həsr edilən toplantı çərçivəsində İİB Qrupuna üzv olan 57 ölkə arasında iqtisadi əməkdaşlıq, davamlı inkişafın gücləndirilməsi istiqamətində müzakirələr aparılır. Forum çərçivəsində təşkil olunacaq yüksəksəviyyəli dialoqlar, B2B və B2G formatlı görüşlər, startapların cəlb edildiyi proqramlar və bilik mübadiləsi sessiyaları vasitəsilə dövlət-özəl sektor tərəfdaşlığının möhkəmləndirilməsi, sahibkarlıq subyektlərinin və KOB-ların dəstəklənməsi, eləcə də üzv ölkələrin iqtisadiyyatlarında innovasiyayönümlü inkişafın təşviqi hədəflənir.

Qeyd edək ki, İİB maliyyələşdirməni İslam prinsiplərinin əsasında aparılan beynəlxalq maliyyə-kredit qurumlarından biridir. Üzvləri müsəlman ölkələridir. Bankın məqsədi üzv ölkələrin (onun təsisçiliyində və üzvlüyündə təmsil olunan müsəlman ölkələr) və fərdi müsəlman cəmiyyətlərinin iqtisadi inkişafının və sosial tərəqqisini İslam hüququ əsasında təmin etməkdir.

Bankın əsas funksiyası iqtisadi və sosial inkişaf üçün layihələrin maliyyələşdirilməsi, müəssisələrin xüsusi kapitalında iştirak və ya investisiya qoyuluşu, qrantların və ssudaların verilməsi şəklində üzv dövlətlərə maliyyə yardımını təmin etməkdən ibarətdir. İİB-lə əməkdaşlığa 1992-ci ildən başlanılıb. 2007-ci ildə Bankın Azərbaycan üzrə yerli nümayəndəsi təyin edilib.

Xatırladaq ki, İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə illik toplantılarının Bakı şəhərində keçirilməsi barədə İslam İnkişaf Bankı Qrupunun Müdirlər Şurası 2025-ci il mayın 22-də qərar qəbul edib. Bununla əlaqədar "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək illik toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu" imzalanıb.

Prezident İlham Əliyevin 8 sentyabr 2025-ci il də imzaladığı Sərəncamla İİB Qrupunun 2026-cı il üzrə illik toplantılarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Komitənin sədri Baş nazirin müavini Samir Şərifov, sədr müavini isə iqtisadiyyat naziri Mikayıl Cabbarovdur.

Ötən gün İİB Qrupun 51-ci illik toplantıları çərçivəsində təşkil olunan "Azərbaycanın investisiya görünüşü" adlı tədbir




keçirilib. Tədbirdə **iqtisadiyyat naziri Mikayıl Cabbarov** çıxış edərək bildirib ki, ölkəmizin sabit iqtisadi mühiti investor etimadını gücləndirir. Onun sözlərinə görə, uzunmüddətli investisiya inam və etibarla başlayır: "Azərbaycan isə investorlara güclü fiskal göstəricilər və ağlabatan iqtisadi siyasətlə dəstəklənən sabit və dayanıqlı iqtisadi mühit təqdim edir. Strateji valyuta ehtiyatları Azərbaycanın ümumi daxili məhsulunu üstələyir. Bu ehtiyatlar ilin əvvəlindən bəri 3,4 faiz, illik müqayisədə isə 15 faiz artıb. Ümumi həcmi 88 milyard ABŞ dolları təşkil edən bu resurslar ölkənin makroiqtisadi sabitliyini daha da möhkəmləndirir".

Mikayıl Cabbarov bildirib ki, qlobal miqyasda ən aşağı dövlət borcu səviyyələrindən birinə malik olan Azərbaycan üçün bu göstəricilər iqtisadi sabitlik, investor etimadı və uzunmüddətli inkişaf baxımından güclü zəmin yaradır: "Bu fundamental göstəricilər aparıcı beynəlxalq reytinq agentlikləri tərəfindən də tanınır. "Fitch" və "Moody's" Azərbaycanın suveren kredit reytinqini investisiya səviyyəsində saxlayaraq, perspektivi sabitdən pozitivə doğru qiymətləndiriblər. Azərbaycanın iqtisadi inkişaf yolunun arxasında həm müstəqillik dövrünün formalaşdırdığı təcrübə, həm də iqtisadi rifahı dövlət siyasətinin mərkəzinə qoyan Prezident İlham Əliyevin strateji yanaşması dayanır. İqtisadiyyatın şaxələndirilməsi ölkənin investisiya gündəliyini getdikcə daha çox müəyyən edən əsas istiqamətlərdən biridir".

İİB Qrupunun illik toplantıları çərçivəsində Azərbaycan Halal Biznes Forumunun (AZHAB Forum) xüsusi sessiyası da




keçirilib. Tədbirdə **Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov** çıxış edib. O bildirib ki, bu gün halal iqtisadiyyat qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən istiqamətlərindən biridir: "Bu sahə yalnız halal qida məhsulları ilə məhdudlaşmır, həmçinin maliyyə, əczaçılıq, kosmetika, turizm, logistika, rəqəmsal texnologiyalar və digər sektorları da əhatə edir.

Milyardlarla istehlakçını əhatə edən halal iqtisadiyyat investisiya, ticarət, innovasiya və biznes üçün geniş imkanlar yaradır. Bununla yanaşı, standartlar, sertifikatlaşdırma, bazarlara çıxış, maliyyələşmə, rəqəmsal transformasiya və dəyər zəncirlərinin inteqrasiyası kimi məsələlər ayrı-ayrı ölkələrin səyləri ilə həll edilə bilməz. Bu çağırışların öhdəsindən gəlmək üçün ortaq baxış, kollektiv liderlik və koordinasiyalı fəaliyyət tələb olunur".

O.Məmmədovun sözlərinə görə, etik prinsiplərə, risklərin bölüşdürülməsinə və real iqtisadi fəaliyyətə əsaslanan İslam maliyyəsi halal biznesin, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynaya bilər: "Halal sənaye iştirakçıları ilə İslam maliyyə institutları arasında əməkdaşlığın genişləndirilməsi investisiyaların cəlb edilməsinə, ticarətin inkişafına və üzv ölkələrdə dayanıqlı iqtisadi artıma töhfə verəcək".

KOBİA sədri əlavə edib ki, Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan regional və beynəlxalq bazarları birləşdirən körpü rolunu oynayır: "Sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması və innovasiyaların təşviqinə yönəlmiş islahatlar halalyönümlü bizneslərin və investisiyaların inkişafı üçün əlverişli şərait yaradır. Halal iqtisadiyyatın gələcəyi yalnız bazarların böyüməsi ilə deyil, həm də tərəfdaşlıqların möhkəmliyi ilə müəyyən olunacaq".

AZHAB Forumunun xüsusi sessiya-




sında İİB Qrupunun rəsmiləri də çıxış ediblər. **Kuala Lumpurdakı Mükəmməllik Mərkəzinin rəhbəri Samer Elesavi** bildirib ki, qlobal halal sektorda istehlak xərclərinin 3 trilyon dolları ötəcəyi gözlənilir. O qeyd edib ki, halal iqtisadiyyat hazırda qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən istiqamətlərindən biridir. Onun sözlərinə görə, vaxtilə yalnız müəyyən istehlakçı qrupuna xidmət edən bu sahə artıq geniş iqtisadi ekosistemə çevrilib. Qurum rəhbəri əlavə edib: "İslam İnkişaf Bankı Qrupuna üzv ölkələr birlikdə dünyanın ən böyük halal istehlak və istehsal bazarlarından birini formalaşdırır və bu, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar yaradır. Forum siyasətçilər, tənzimləyici qurumlar, biznes nümayəndələri, investorlar və inkişaf tərəfdaşları üçün əməkdaşlığın genişləndirilməsi və qlobal halal iqtisadiyyatın inkişafı baxımından mühüm platformadır".




**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Nasar Hayat** bildirib ki, Azərbaycanın strateji coğrafi mövqeyi regional investisiya mərkəzinə çevrilmək üçün unikal imkan yaradır. O, bu fikirləri İslam İnkişaf Bankının (İİB) Bakıda keçirilən 8-ci illik toplantısı çərçivəsində keçirilən "Davamlı inkişaf üçün innovativ maliyyələşdirmə, yardım və ənənəvi inkişafa yardımdan kənar" adlı SDG Dialoqunda deyib.

FAO nümayəndəsi bildirib ki, Orta Asiya, Qafqaz və Yaxın Şərqi birləşdirən Azərbaycanın strateji coğrafi mövqeyi investisiya, ticarət, maliyyə və sərhədlərarası kapital axınları üçün regional mərkəzə çevrilmək üçün unikal bir fürsət təqdim edir. Nasar Hayat qeyd edib ki, Azərbaycan davamlı və inklüziv artımı gücləndirməyə yönəlmiş iddialı islahatlar həyata keçirir. Ölkə 2023-2026-cı illər üçün Davamlı Maliyyə Yol Xəritəsinin tətbiqində və milli maliyyə axınlarını ətraf mühit və sosial prioritetlərlə uyğunlaşdırmaq üçün möhkəm təməl yaradan Milli Yaşıl Taksonomiya kimi əsas alətlərin hazırlanmasında əhəmiyyətli irəliləyişlər əldə edib.

O, həmçinin əlavə edib ki, özəl kapital sadəcə əlavə maliyyələşdirmə mənbəyi deyil: "Davamlı İnkişaf Məqsədlərinə çatmaq istəyiriksə, bu, çox vacibdir. Lakin onun tam potensialına çatması üçün imkanlar yaratmaq üçün siyasətlər, güclü tənzimləyici çərçivə, effektiv risklərin bölüşdürülməsi mexanizmləri və hər şeydən əvvəl, sektorlar və ölkələr arasında daha güclü tərəfdaşlıqlar tələb olunur".

***Musa BAĞIRLI***
***XQ***

# Ölkəmizin strateji valyuta ehtiyatları artıb

**2026-cı ilin birinci rübünün sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 117,4 milyon dollar artaraq 85,2 milyard dollara çatıb. Hesabat dövründə cari əməliyyatlar balansında 1,7 milyard dollar həcmində profisit qeydə alınıb. Bu dövrdə digər komponent olan kapital və maliyyənin hərəkəti balansında bankın xarici maliyyə aktivləri isə, təxminən, 200 milyon dollar artıb.**




Bu və digər məsələlər barədə **Azərbaycan Mərkəzi Bankının Statistika departamentinin direktoru Samir Nəsirov** 2026-cı ilin ilk rübünün yekunlarına dair tədiyə balansının açıqlanmasına həsr olunmuş brifinqdə məlumat verib. Qeyd olunub ki, hesabat dövründə cari əməliyyatlar balansının profisitinin ÜDM-ə nisbəti 9,5 faiz təşkil edib ki, bu da makroiqtisadi sabitlik baxımından müsbət haldır. Onun sözlərinə görə, profisitin formalaşmasında əsas rol xarici ticarət balansı, təkrar gəlirlər balansı və ilkin gəlirlər balansına məxsus olub.

S.Nəsirov qeyd edib ki, 2026-cı ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 1 milyard 720 milyon dollar birbaşa xarici investisiya yatırılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 13,2 çoxdur. Bank rəsmisinin sözlərinə görə, hesabat dövründə ölkəmizdən xaricə 1 milyard 110 milyon dollarlıq birbaşa investisiya yatırılıb.

Cari ilin birinci rübündə ilkin gəlirlər balansının son illərdə ilk dəfə profisitə keçməsinin Azərbaycanın xaricdəki investisiyalarından əldə etdiyi gəlirlərlə bağlı olduğunu vurğulayan departament direktoru bildirib ki, profisitin əsas səbəbi neft-qaz sektorunda fəaliyyət göstərən Azərbaycan müəssisələrinin xaricə yatırdığı birbaşa investisiyalardan əldə olunan faiz və dividend gəlirləridir: "Vaxtilə xaricə böyük həcmdə birbaşa xarici investisiyalar yatırılıb. Həmin investisiyalar qarşılığında faiz və dividend gəlirləri əldə olunub. Bu gəlirlər isə ölkəyə gətirilməyib, yenidən xaricdə investisiya kimi yönləndirilib ki, növbəti dövrlərdə daha böyük gəlirlər əldə edilsin".

İlin ilk rübündə ölkənin xidmətlər balansı üzrə kəsirin 590 milyon dollar təşkil etdiyini diqqətə çatdıran bank rəsmisi deyib ki, bununla belə, son illərdə müşahidə olunan tendensiyaya uyğun olaraq xidmətlər balansı üzrə kəsirin həcmi azalmağa davam edib. S.Nəsirov əlavə edib ki, kapital və maliyyənin hərəkəti balansında yaranan kəsirin əsas səbəbi portfel investisiyalarının azalması olub. Onun sözlərinə görə, portfel investisiyalarında 2 milyard dollarlıq azalma qeydə alınıb. Bu isə Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində emissiya olunmuş avrobondların geri alınması ilə bağlıdır.

Qeyd olunub ki, bu ilin birinci rübünün sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 117,4 milyon dollar artaraq 85,2 milyard dollar təşkil edib. S.Nəsirovun sözlərinə görə, ehtiyatların bu həcmdə olması ölkənin makroiqtisadi dayanıqlılığının daha da gücləndiyini və maliyyə resurslarının genişləndiyini bir daha sübut edir.

Bank rəsmisi onu da bildirib ki, cari ilin ilk rübündə Azərbaycan neftinin reallaşmış orta qiymətin 79,5 dollar təşkil edib ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 7 faiz çoxdur. Hesabat dövründə Azərbaycan qazının ixrac olunmuş min kubmetri isə 268 dollar təşkil edib. Enerji daşıyıcılarının qiymətlərində müşahidə olunan dəyişikliklər ölkənin xarici iqtisadi göstəricilərinə və tədiyə balansının formalaşmasına təsir göstərən əsas amillərdən biri olaraq qalır.

Diqqətə çatdırılıb ki, bu ilin ilk rübündə pul köçürmə sistemləri vasitəsilə ölkəyə 296,9 milyon dollar pul baratı daxil olub. İlin ilk 3 ayında ölkəmizə Rusiyadan 110,8 milyon, Türkiyədən 49,9 milyon, İrlandiyadan 24,6 milyon, ABŞ-dan 23,9 milyon dollar, Birləşmiş Krallıqdan isə 10,5 milyon dollar vəsait köçürülüb.

Hesabat dövründə ölkəmizdən xaricə köçürülmüş pul baratlarının həcmi isə 103,9 milyon dollar təşkil edib. Bildirilib ki, Azərbaycandan ən çox pul köçürmələrinin ölkələr üzrə bölgüsünə gəldikdə isə, birinci rübdə Türkiyəyə 28,2 milyon, ABŞ-a 16,2 milyon, Rusiyaya 10,2 milyon, Birləşmiş Krallığa 6 milyon, Gürcüstana isə 5,6 milyon dollar köçürülüb.

***M.YAQUBZADƏ***
***XQ***

# Sabirabadda taxıl biçini



**İyunun 15-də kənd təsərrüfatı naziri Məcnun Məmmədov Sabirabad rayonunda taxıl biçini prosesində iştirak edib, məhsul yığımının gedişi ilə maraqlanıb.**

Nazir rayonda fəaliyyət göstərən "Fructus-Agro Park" MMC toxumçuluq təsərrüfatının əkin sahələrinə baxış keçirib. Təsərrüfatın ümumi əkin sahəsi 988 hektardır. Cari təsərrüfat ilində 404 hektar sahədə buğda, 338 hektarda arpa, 65 hektarda lobya, 55 hektarda isə günəbaxan əkilib.

Toxumçuluq istiqamətində fəaliyyət göstərən təsərrüfatda buğdanın "Arsenal", "Viktoriya", "Koralina", "Bərəkətli" və "Əsgəran", arpanın isə "Ştorm" və "Nuranə" sortları becərilir. Bildirilib ki, təsərrüfatda indiyədək 95 hektar arpa sahəsi biçilib. Hər hektardan orta hesabla 42 sentner məhsul əldə olunub və ümumilikdə, 400 tona yaxın arpa istehsal edilib.

Təsərrüfatın taxıl biçini aparılan sahəsinə baxış keçirən M.Məmmədov biçin prosesinin gedişini yerində izləyib. Kombaynın sükanı arxasına keçən nazir texnikaların vəziyyəti ilə maraqlanıb, təsərrüfat nümayəndələri və ətraf sahələrdən olan fermerlərlə söhbət edib. Müzakirələr zamanı taxıl istehsalında məhsuldarlığın artırılması, yüksək reproduksiyalı və yerli şəraitə uyğun toxum sortlarından istifadə, aqrotexniki tədbirlərin optimal müddətlərdə yerinə yetirilməsi, müasir suvarma texnologiyalarının tətbiqi və torpaqların münbitliyinin qorunması məsələlərinə toxunulub.

Məcnun Məmmədov məhsuldarlığın yüksəldilməsi üçün sertifikatlı toxum materiallarından istifadə genişləndirilməli, torpaq və iqlim şəraitinə uyğun sort seçiminə üstünlük verilməli, gübrələmə, suvarma və bitki mühafizəsi tədbirləri elmi əsaslarla həyata keçirilməli olduğunu vurğulayıb. Biçin zamanı məhsul itkilərinin minimuma endirilməsi, kombaynların fasiləsiz fəaliyyətinin təmin olunması və yetişmiş sahələrdə məhsul yığımının qısa müddətdə başa çatdırılmasının da diqqətdə saxlanılmalı olduğunu qeyd edib.

Fermerlər təsərrüfatda görülən işlər, biçin prosesinin təşkili və qarşıdakı dövrdə məhsuldarlığın artırılması ilə bağlı planları barədə məlumat veriblər. Görüşdə fermerlərin təklifləri dinlənilib, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Məcnun Məmmədov jurnalistlərə müsahibəsində taxıl biçini prosesinin təşkili, kənd təsərrüfatının inkişafı, aqrar sahədə yeni qəbul edilmiş Dövlət Proqramının əhəmiyyəti, proqram çərçivəsində həyata keçiriləcək tədbirlər və yeniliklər barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, cari ildə taxıl üzrə məhsuldarlıq göstəricilərində müsbət dinamika müşahidə edilir. İyunun 13-dək olan operativ məlumatlara əsasən, respublika üzrə buğdanın orta məhsuldarlığı ötən ilin müvafiq dövründəki 32,9 sentner/hektardan 39,3 sentner/hektara yüksəlib. Beləliklə, buğda üzrə məhsuldarlıq 6,4 sentner/hektar və ya 19,5 faiz artıb. Arpanın orta məhsuldarlığı isə 31,7 sentner/hektardan 31,9 sentner/hektara çataraq 0,2 sentner/hektar və ya 0,6 faiz yüksəlib.

Ölkəmizdə taxıl biçini davam edir. Kənd Təsərrüfatı Nazirliyinin operativ məlumatına əsasən, iyunun 13-dək 105 min hektar taxıl sahəsi biçilib, 336,9 min ton məhsul toplanıb. Taxıl üzrə orta məhsuldarlıq 32,1 sentner/hektar təşkil edib.

***XQ***

# Şamaxıda sahibkarlarla görüş



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi istehlakçıların hüquq və mənafelərinin qanunvericiliyin tələblərinə uyğun şəkildə təmin edilməsi, istehlakçılar və sahibkarlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi istiqamətində maarifləndirici görüşləri davam etdirir.**

Bu silsilədən olan növbəti toplantı Şamaxı şəhərində keçirilib. Agentlik və onun 4 saylı regional bölməsinin təşkilatçılığı, Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunan görüşdə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələrində fəaliyyət göstərən 200-ə yaxın sahibkarlıq subyektinin nümayəndələri iştirak edib.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin birinci müavini Cəfər Babayev və Şamaxı Rayon İcra Hakimiyyəti başçısının müavini Etibar Muradlı açılış nitqi ilə çıxış ediblər. Çıxışlarda bazar iştirakçıları arasında bərabər şərtlərə əsaslanan biznes münasibətlərinin təşviqi, istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində agentliyin və yerli struktur bölmələrin fəaliyyətindən bəhs edilib, birgə maarifləndirmə tədbirlərinin əhəmiyyəti vurğulanıb.

Daha sonra agentliyin istehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Tapdıqlı, istehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdiri Elşən Cəfərov, haqsız rəqabət və reklam qanunvericiliyinə nəzarət şöbəsinin sektor müdiri Röyal Rəhimov təqdimatlarla çıxış edərək ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində norma və qaydalara riayət olunmasının əhəmiyyəti, istehlakçı hüquqlarının müdafiəsi, bu sahədə qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyət tədbirləri, agentliyin istehlak bazarında nəzarət sahələri, eləcə də reklam qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər barədə məlumat veriblər. Bununla yanaşı, agentlik tərəfindən müvafiq sahələrdə həyata keçirilən geniş maarifləndirmə fəaliyyəti, eləcə də mövcud problemlərin həlli istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Görüş çərçivəsində sahibkarlara fəaliyyətlərinin mövcud normativ-hüquqi aktların tələblərinə uyğunlaşdırılması, müştəri məmnuniyyətinin təmin olunması, eləcə də reklam qanunvericiliyinin tələblərinə əməl edilməsi istiqamətində tövsiyələr verilib.

Sonda sahibkarların sualları cavablandırılıb, praktiki nümunələr əsasında izahlar təqdim olunub.

***XQ***

# Aqrar sahədə rəqəmsal keçidin kadr hazırlığı

## *Aqronom, zootexnik, mexanik kənddə yüksəlişin yolgöstərənləridir*

**Dünyanın aparıcı ölkələrində kənd təsərrüfatının inkişafı torpaq, su və əmək ehtiyatları ilə yanaşı, həm də innovasiya, rəqəmsal texnologiyalar, süni intellekt, biotexnologiyalar, elmi tədqiqatlar və yüksək ixtisaslı insan kapitalına əsaslanır. Bu baxımdan qlobal ərzaq təhlükəsizliyinin təmin olunması, iqlim dəyişikliklərinin təsirlərinin minimuma endirilməsi, məhsuldarlığın artırılması və aqrar sektorda dayanıqlı inkişafın gerçəkləşdirilməsində məhz elmi biliklərlə bağlı yeni yanaşmaların tətbiqi zəruri sayılır.**



Azərbaycan da son illərdə aqrar sektorun modernləşdirilməsi istiqamətində mühüm addımlar ataraq kənd təsərrüfatının iqtisadiyyatın aparıcı istiqamətlərindən birinə çevrilməsini prioritet vəzifə kimi müəyyənləşdirib. Bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, aqroparkların yaradılması, rəqəmsal kənd təsərrüfatı elementlərinin tətbiqi, fermerlərin subsidiyalarla təmin edilməsi və ixrac potensialının genişləndirilməsi mövcud istiqamətdə mühüm nəticələrin əldə olunmasına imkan verib. Lakin müasir çağırışlar aqrar sektorun davamlı inkişafı üçün ən vacib amillərdən birinin güclü təhsil və elmi-tədqiqat bazasının formalaşdırılması olduğunu göstərib.

Məhz buna görə də "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda aqrar təhsil və elmi-tədqiqat sahəsinin inkişafı ayrıca prioritet istiqamət kimi müəyyənləşdirilib. Sənəddə kənd təsərrüfatının innovativ inkişafı üçün peşəkar kadr hazırlığının gücləndirilməsi, beynəlxalq təcrübənin tətbiqinin diqqətdə saxlanılması, elmi fəaliyyətin səmərəliliyinin artırılması və regionlarda təhsil imkanlarının genişləndirilməsi mühüm hədəflər sırasında yer alıb.

Proqramda, eyni zamanda, bu məsələlərin reallaşdırılması ilə bağlı qarşıya bir sıra önəmli vəzifələr qoyulub. Məsələn, aqrar sahədə ikili diplom proqramlarının genişləndirilməsi və xarici universitetlərlə birgə ali təhsil müəssisələrinin yaradılması, kənd təsərrüfatı üzrə peşə standartlarının hazırlanması, eləcə də təhsilin məzmununun yenilənməsinin zəruriliyi xüsusi vurğulanıb.

Dövlət Proqramında aqrar sahənin sürətli inkişafı məqsədilə qeyri-formal məşğulluğun azaldılması, elmi-tədqiqat institutlarında idarəetmə sistemlərinin modernləşdirilməsi, beynəlxalq elmi-tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi kimi məsələlər də diqqətdə saxlanılıb, həmçinin mövcud sahədə elmi-tədqiqatlarla məşğul olan gənc alimlərin sayının artırılması, elmi-tədqiqat institutlarının müasir tələblərə uyğun infrastrukturla təminat səviyyəsinin yaxşılaşdırılması prioritetlər sırasına daxil edilib.

Yeri gəlmişkən, sözügedən proqramda aqrar sahədə əməkhaqqı səviyyəsinin və elmi fəaliyyətin cəlbediciliyinin aşağı olması, regionlarda aqrar təhsilə çıxış imkanlarının qeyri-bərabərliyi və ixtisaslı pedaqoji və elmi kadr çatışmazlığı kimi amillərin mövcudluğu qeyd edilərək, bu çatışmazlıqların aradan qaldırılması istiqamətində müəyyən layihələrin icrası qərara alınıb. Eyni zamanda, aqrar təhsil və elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, nüfuzlu elmi nəşrlərdə tədqiqat fəaliyyəti təşviq, gənc alimlər üçün stimullaşdırıcı mexanizmlərin tətbiq olunması və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı proqramlarının inkişaf etdirilməsi nəzərdə tutulub.

### Torpağın da öz dili var...

Onu öyrənən və öyrədən kadrlara bu gün daha çox tələbat var. İnkişaf etmiş dövlətlərin təcrübəsi də ölkələrin rəqabət qabiliyyətini müəyyənləşdirən əsas amilin təbii resurslarla bərabər, insan kapitalı ilə bağlı olduğunu da təsdiqləyir. Bu baxımdan aqrar sahədə çalışan mütəxəssislərin peşəkarlıq səviyyəsi kənd təsərrüfatının məhsuldarlığına, innovasiyaların tətbiqinə və istehsalın səmərəliliyinə birbaşa təsir göstərir. Son illərdə respublikada aqrar ixtisaslara marağın artması da mövcud sahədə müsbət tendensiya kimi diqqət çəkir.

Azərbaycan Dövlət Aqrar Universitetində və digər ali təhsil müəssisələrində bu istiqamətdə təhsil alan tələbələrin sayı çoxalıb, yeni ixtisaslar açılıb, beynəlxalq əməkdaşlıq proqramları genişləndirilib. Bununla yanaşı, aqrar sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının maddi-texniki bazasının yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirilib. Eyni zamanda, respublikada tədris planına yeni ixtisas əlavə olunub. Belə ki, "Daşınmaz əmlakın idarə olunması" ixtisasının bu ildən bakalavriat səviyyəsində universitetlərdə tədris ediləcəyi qərara alınıb.

**Təhsil eksperti Elçin Əfəndinin** sözlərinə görə, əvvəllər mövcud olan "Yer quruluşu və daşınmaz əmlakın kadastrı" ixtisası mahiyyət etibarilə yeni yaradılan ixtisasla müəyyən uyğunluq təşkil edir. Belə ki, bu ixtisas Bakı Dövlət, Azərbaycan Memarlıq və İnşaat, eləcə də bölgələrdə Azərbaycan Dövlət Aqrar və Naxçıvan Dövlət universitetlərində tədris olunurdu. Yeni ixtisasın yaradılması isə əmək bazarında bu sahə üzrə kadr tələbatının artması ilə bağlıdır. Böyük ehtimalla, hazırda kənd təsərrüfatı ixtisasları qrupuna daxil olan "Yer quruluşu və daşınmaz əmlakın kadastrı" ixtisasının adı dəyişdiriləcək və ya olduğu kimi saxlanılacaq.

Ekspert bildirib ki, bu ixtisasın gələcəkdə Bakı Dövlət, Azərbaycan Memarlıq və İnşaat universitetləri kimi ali təhsil müəssisələrində tədris olunacağı gözlənilir. Mahiyyət etibarilə, onu daşınmaz əmlak sahəsində menecment istiqaməti kimi də qiymətləndirmək olar. Çünki hazırda ölkədə çoxsaylı daşınmaz əmlak şirkətləri fəaliyyət göstərir və onların səmərəli idarə olunması üçün peşəkar kadrlara ehtiyac var. Bu ixtisas üzrə məzunlar da əsasən həmin müəssisələrdə iş imkanları əldə edə biləcəklər.

Lakin aqrar təhsil sektorunda əldə edilən bir sıra uğurlarla yanaşı, müəyyən problemlər də nəzərə çarpır. Məsələn, əmək bazarının sürətlə dəyişən tələbləri kənd təsərrüfatı üçün hazırlanan kadrların bilik və bacarıqlarının müasir texnologiyaların tətbiqinə tam uyğunlaşdırılmasına ehtiyac duyulduğunu göstərir. Belə ki, aqrar sahədə rəqəmsal həllər, "ağıllı" suvarma sistemləri, dron texnologiyaları, peyk monitorinqi, biotexnologiyalar və süni intellekt əsaslı idarəetmə metodlarının geniş yayılması yeni bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanmasını tələb edir.

Dövlət Proqramında məhz bu amillər nəzərə alınaraq aqrar təhsilin məzmununun yenilənməsi, müasir peşə standartlarının hazırlanması və tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur. Sənəddə, eyni zamanda, ikili diplom proqramları və beynəlxalq tərəfdaşlıqlar kimi məsələlər də xüsusi yer alır. Çünki əvvəla, qlobal təcrübəyə əsaslanan mütəxəssislər tərəfindən aqrar təhsilin inkişafında beynəlxalq əməkdaşlığın mühüm rol oynamasının önəmi yüksək dəyərləndirilir və dünyanın qabaqcıl aqrar universitetləri ilə qurulan əlaqələrin yeni biliklərin və innovativ yanaşmaların ölkəyə transferinə əlverişli şərait yaratdığı bildirilir.

Dövlət Proqramında aqrar sahədə ikili diplom proqramlarının genişləndirilməsi və xarici universitetlərlə birgə ali təhsil müəssisələrinin yaradılması amili də önə çəkilərək bu yanaşmanın tələbələrin həm yerli, həm də beynəlxalq standartlara uyğun bilik əldə etməsinə imkan verəcəyi xüsusi vurğulanır. Məsələn, Niderland, ABŞ, eləcə də Almaniyanın aqrar təhsil müəssisələri kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində dünyanın aparıcı elmi mərkəzləri sırasında yer alır, eyni zamanda, onlarda təhsil, elmi-tədqiqat və biznes sektoru arasında sıx əlaqələr qurulması daim diqqətdə saxlanılır. Bu istiqamətdə əldə olunan elmi nəticələr isə birbaşa istehsalata tətbiq edilir. Bu təcrübələrin Azərbaycanda tətbiqi ilə aqrar təhsilin keyfiyyətinin sürətlə yüksələcəyi və beynəlxalq rəqabət qabiliyyətinin artırılacağı gözlənilir.

### Çağdaş kənd peşələri

Aqrar sahənin inkişafında ali təhsillə yanaşı, peşə təmayüllü müəssisələr də mühüm önəm daşıyır. Belə ki, dünyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatının əsas yükü yüksək peşəkarlığı ilə fərqlənən texniklər, mexanizatorlar, aqronom köməkçiləri, baytarlıq mütəxəssisləri və digər orta ixtisaslı kadrların üzərinə düşür. Respublikamızda isə bu sahədə kadr hazırlığının məhdudluğu mövcud problemlərdən biri kimi ciddi narahatlıq doğurur. Ona görə də Dövlət Proqramında bu sahədə peşə standartlarının hazırlanması və yeni tədris proqramlarının tətbiqi nəzərdə tutulur.

Bu istiqamətdə Finlandiya və Almaniyanın təcrübəsi xüsusilə maraqlıdır. Hər iki ölkədə kənd təsərrüfatı üzrə peşə məktəbləri fermer təsərrüfatları və aqrobiznes müəssisələri ilə birgə fəaliyyət göstərir. Təhsil proqramlarının böyük hissəsi praktiki məşğələlərdən ibarətdir. Nəticədə məzunlar dərhal əmək bazarında fəaliyyət göstərə bilirlər.

Aqrar inkişafın əsas dayaqlarından biri də elmi-tədqiqat fəaliyyətidir. Yeni məhsuldar sortların yaradılması, torpaq münbitliyinin artırılması, xəstəliklərə davamlı bitki növlərinin yetişdirilməsi və su ehtiyatlarından səmərəli istifadə üzrə həllərin hazırlanması məhz elmi-tədqiqatların nəticəsidir. Dövlət Proqramında aqrar elmi-tədqiqat institutlarının idarəetmə sistemlərinin modernləşdirilməsi, infrastruktur təminatının yaxşılaşdırılması və beynəlxalq elmi mərkəzlərlə əməkdaşlığın genişləndirilməsi kimi məsələlərin prioritet istiqamətlərdə yer alması vurğulanan fikrin bariz ifadəsidir.

Xatırladaq ki, mövcud sahədə İsrail nümunəsi xüsusilə diqqət çəkir. Məhdud torpaq və su ehtiyatlarına malik bu ölkə elmi innovasiyalar hesabına kənd təsərrüfatında dünya liderlərindən biri kimi tanınır. Damcı suvarma texnologiyasının yaradılması və inkişaf etdirilməsi İsrail elminin mühüm nailiyyətlərindən biridir. Bu gün həmin texnologiya dünyanın yüzlərlə ölkəsində tətbiq olunur. Yaponiyada isə aqrar elmi-tədqiqat sahəsində uğurlu modelin formalaşdırılması – robotlaşdırılmış təsərrüfatlar, ağıllı istixanalar və süni intellekt əsaslı idarəetmə sistemlərinin yaradılması bu ölkənin kənd təsərrüfatında məhsuldarlığın yüksək səviyyədə saxlanılmasını şərtləndirir. Azərbaycanda elmi-tədqiqat institutlarının bu cür beynəlxalq şəbəkələrə inteqrasiyası, eləcə də sadalanan istiqamətlərdə yeni kadrların yetişdirilməsi isə yeni texnologiyaların ölkəmizə transferini sürətləndirmək, həm texnologiyalardan səmərəli yararlanmaq imkanı yaradır.

Dövlət Proqramında diqqətçəkən mühüm məsələlərdən biri də gənc alimlərin sayının artırılmasıdır. Hazırda dünyanın bir çox ölkəsində aqrar elmlərə marağın gücləndirilməsi üçün xüsusi stimullaşdırıcı mexanizmlər tətbiq edilməsi də məhz bu amillə bağlıdır. Məsələn, Avropa İttifaqında "Horizon Europe" proqramı çərçivəsində gənc tədqiqatçılara qrantlar ayrılır, beynəlxalq elmi mübadilə proqramları maliyyələşdirilir və innovativ layihələrin kommersiyalaşdırılmasına dəstək verilir. Azərbaycanda da aqrar sahədə elmi fəaliyyətin cəlbediciliyinin artırılması, əməkhaqqı səviyyəsinin yüksəldilməsi və gənc alimlər üçün əlavə stimullaşdırıcı mexanizmlərin tətbiq edilməsi elmi potensialın güclənməsinə mühüm töhfə verə bilər.

*Vaqif BAYRAMOV*
*XQ*

*Ekspert rəyi*



**Elşan ƏHMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının dosenti**

Aqrar təhsil sahəsində mövcud çağırışlardan biri də regionlarda təhsil imkanlarının qeyri-bərabərliyidir. Belə ki, kənd təsərrüfatının əsas istehsal bazası regionlarda yerləşsə də, təhsil və elmi infrastrukturun böyük hissəsi paytaxtda cəmləşib. Məhz bu problem nəzərə alınaraq Dövlət Proqramında regionlarda aqrar təhsil imkanlarının genişləndirilməsi, yeni təlim mərkəzlərinin yaradılması və müasir texnologiyalarla təchiz olunmuş tədris bazalarının formalaşdırılması nəzərdə tutulur. Bu yanaşmanın diqqətdə saxlanılması ilə kənd yerlərində yaşayan gənclərin keyfiyyətli təhsilə çıxış imkanlarını artırlacağı, regionlarda ixtisaslı kadr potensialının formalaşmasına şərait yaradılacağı və kənddən şəhərə miqrasiyanın müəyyən qədər azalacağı gözlənilir.

Qlobal iqtisadiyyatda rəqabət üstünlüyü istehsal həcmləri ilə yanaşı, bilik və innovasiya potensialı ilə müəyyən olunur. Aqrar sektor da bu tendensiyadan kənarda deyil. Müasir kənd təsərrüfatı yüksək texnologiyalar, elmi araşdırmalar və peşəkar insan kapitalı tələb edir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda aqrar təhsil və elmi-tədqiqat sahəsinin inkişafına dair müəyyənləşdirilən hədəflər məhz bu baxımdan strateji əhəmiyyət daşıyır.

İkili diplom proqramlarının genişləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, peşə təhsilinin inkişafı, elmi-tədqiqat institutlarının modernləşdirilməsi, gənc alimlərin dəstəklənməsi və regionlarda təhsil imkanlarının artırılması Azərbaycanın aqrar sektorunun yeni inkişaf mərhələsinə keçidini gerçəkləşdirə bilər.

Nəticə etibarilə, aqrar sahədə əldə olunacaq gələcək uğurların əsasını münbit torpaqlar və təbii resurslar yanaşı, həm də yüksək ixtisaslı mütəxəssislər, güclü elmi potensial və innovativ düşüncə təşkil edəcək. Bu istiqamətdə həyata keçiriləcək islahatlar respublikamızın ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, kənd təsərrüfatının rəqabət qabiliyyətinin yüksəldilməsinə və qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafına mühüm töhfə verəcək.

# Lənkəranda sitrusçuluq dirçəldilir

## *Məhsuldarlığı artırmaq fermerlərin əsas hədəfidir*

**Lənkəran ölkəmizdə subtropiklər diyarı kimi tanınır. Ətirli meyvə bağları bu yerlərin cazibədarlığını daha da artırır. Xüsusən payız və qış aylarında limon, naringi, portağal bağları nadir nemətlərin sərgisini xatırladır, ətri, dadı, gözəlliyi ilə könülləri oxşayır.**

Rayonda sitrusçuluğun bir əsrə yaxın tarixi var. Kərgəlan kənd sakini, 73 yaşlı Hacı Xanhüseyn Səfərov ali təhsilli aqronomdur. Ömrünü torpağa həsr edib. Təqaüddə olsa da, iş-gücdən ayrıla bilmir. Şəxsi ailə təsərrüfatında sitrusçuluqla məşğul olur. Peşəsinin vurğunudur.

Ağsaqqal fermer 1930-cu ildən başalayaraq əvvəl qonşu Astara rayonunda, sonra isə Lənkəranda limon, naringi, portağal, feyxoa və digər subtropik bitkilərin yetişdirildiyini bildirir. Sovet dönəmində sitrus meyvə bağları planlı şəkildə ilbəil artırılıb.

"Çox yaxşı xatırlayıram", – deyə **Hacı Xanhüseyn** ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu 1970-1980-ci illərdə Lənkəran iqtisadi rayonunda tərəvəzçilik, çayçılıqla yanaşı, subtropik və sitrus meyvə bağlarının da sürətlə genişləndirildiyini qeyd edir. O illərdə Lənkəranda məhsul bayramlarının keçirildiyini, dövlətin zəhmət adamlarının əməyinin yüksək qiymətləndirdiyini vurğulayır. Azərbaycanın müdrik rəhbərinin dəfələrlə tarlalarda, iş başında Lənkəran əməkçiləri ilə görüşdüyünü, ənənəvi məhsul bayramlarında şəxsən iştirak etdiyini xatırlayır.

Fermer fəxrlə 1974-cü il yanvar ayının 15-16-da ulu öndər Heydər Əliyevin Baloğlan Abbasov adına sovxozada baş çəkdiyini, sahələrdə polietilen örtük altında becərilən tərəvəz, çay plantasiyalarının vəziyyəti ilə yaxından tanış olduğunu xoş duyğularla yada salaraq dedi ki, rəhbərin rayona hər gəlişi, aqrar sahənin inkişafına göstərdiyi misilsiz qayğı, tövsiyə və tapşırıqları kənd əməkçilərini daha yaxşı işləməyə, qurub-yaratmağa ruhlandırırdı.

Təəssüf ki, 1987-ci ildə Ümummilli liderin Kremldə siyasi hakimiyyətdən qərəzli şəkildə uzaqlaşdırılmasından sonra ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da kənd təsərrüfatının tənəzzül dövrü başlandı. Sitrus meyvə bağlarının bir qismi heç bir səbəb olmadan ləğv edilib yerində dənli-taxıl, tərəvəz və digər bitkilər becərildi. Lakin yerli sakinlər artıq ənənəvi əkinçilik sahəsinə çevrilmiş sitrusçuluğu unutmadı, şəxsi təsərrüfatlarında sitrus meyvə ağacları əkib-becərdilər. Onlar min bir zəhmətlə yetişdirdikləri məhsulu ölkəmizin, eləcə də Rusiyanın bazarlarına yola saldılar. Lənkəranın sitrus meyvələri dadı, ətri, yüksək keyfiyyəti ilə fərqlənərək respublikamızdan kənarda da alıcı rəğbəti qazandı.

Şərqdən mavi gözlü Xəzər dənizi, qərbdən əzəmətli Talış dağları ilə əhatələnmiş subtropiklər diyarı min bir nemət yetirən məhsuldar torpaqlara, subtropik iqlimə, kifayət qədər su və əmək ehtiyatlarına malikdir. Rayonun iqtisadiyyatında aqrar-sənaye kompleksi mühüm yer tutur.





Qürurverici haldır ki, Ulu öndərin Lənkəranın sosial-iqtisadi inkişafına göstərdiyi yüksək diqqət və qayğını Prezident İlham Əliyev uğurla davam etdirir. 2017-ci il senyabrın 3-də dövlət başçısının sədrliyi ilə Lənkəran şəhərində keçirilmiş çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindən sonra müvafiq sərəncamlarla 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair, 2018-2027-ci illər üçün çayçılığın inkişafına dair dövlət proqramları qəbul olunub.

Prezident İlham Əliyev 2024-cü il yanvarın 16-da Lənkərana növbəti səfəri çərçivəsində "Lenk Fruit" Məhdud Məsuliyyətli Cəmiyyətin Separadi kəndində müasir innovativ texnologiyalar əsasında salınmış sitrus bağında yaradılan şəraitlə yaxından tanış olub. Dövlət başçısının aqrar sahənin inkişafına göstərdiyi yüksək qayğı kənd əməkçilərinin torpağa münasibətini dəyişib, onlarda sahibkarlıq hisslərini gücləndirib.

Lənkəran çoxşaxəli əkinçilik ənənələrinə malikdir. Ümumilikdə, rayonda 18 min 650 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi var. Keçən il 8 min 672,7 hektarda kənd təsərrüfatı məhsulları yetişdirilib. Dəyəri 206 milyon 251 min 700 manat olan ümumi məhsul istehsalının 106 milyon 410 min 800 manatını bitkiçilik məhsulları təşklil edib. Əvvəlki illə müqayisədə ümumi məhsul istehsalı 8 faiz artıb.

Sitrusçuluq iqtisadi cəhətdən gəlirli sahə hesab olunur. Sitrus meyvəçiliyinin inkişafı, əhalinin sitrus məhsullarına tələbatının ödənilməsi, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi istiqamətində son illər rayonda xeyli iş görülüb. Kənd təsərrüfatı müəssisələri və ailə təsərrüfatları 183 hektar sahədə yeni bağlar salıb. Hazırda rayonda 920 hektar sitrus bağı mövcuddur. Keçən il bağlardan 11 min 200 tondan artıq məhsul yığılıb.

Son illər sitrusçuluqda iri təsərrüfatların yaradılmasına üstünlük verilib. "Lenk Fruit" MMC, "Miran-19" MMC, "Preşkarden" MMC, "Miriya" MMC-yə məxsus bağlar rayonun iri sitrusçuluq təsərrüfatları sayılır.

"Lenk Fruit" MMC 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektar sahədə nektarin və 7 hektarda giləmeyvə ağacları əkib. Sitrus bağında yüksək məhsuldarlığa malik "dabli morqut" növlü naringi yetişdirilib. Müasir aqrotexniki xidmətlərin göstərildiyi bağda damcı üsulu tətbiq olunur.

Təsərrüfatda respublikamızda ilk dəfə olaraq havanın temperaturunu normal dərəcəyə salan, məhsulu şaxtadan qoruyan xüsusi avadanlıqlar quraşdırılıb. Bir avadanlıq 9 hektar ərazini şaxtadan qoruyur. Qarlı-şaxtalı qış aylarında da ağacların üstündə meyvəsi olur. Müasir texnologiyaların tətbiqi hesabına builki qış mövsümündə bağlardan 494 ton məhsul yığılıb. Orta hesabla bir hektarın məhsuldarlığı 35 tona çatıb.

Vətəni Yaponiya olan hallabonq çox qiymətli 10 meyvədən biri sayılır. Dünyada cəmi 5 ölkədə hallabonq əkilir. Artıq Lənkəran da bu qiymətli meyvənin vətəninə çevrilib. Rayonun Sütəmurdov və Velədi kəndlərində 15 hektar sahədə hallabonq bağı salınıb. Hər il bağlardan yüksək məhsul yığılır. Respublikamızda məhsula kifayət qədər alıcı tələbatı var.

Rayonda subtropik meyvələrin əkin sahələri də genişləndirilib. Feyxoa bağlarının sahəsi 5 min 16,4 hektara, kivi plantasiyaları 94,9 hektara çatdırılıb. Keçən il bağlardan 5 min 750,2 ton feyxoa, 130,4 ton kivi yığılıb.

Son vaxtlar ekzotik meyvəçiliyin inkişafına da maraq artıb. Ekzotik bitki sortlarından olan qaragilənin "Bluecrop" (mavigilə) növünün yetişdirilməsinə başlanılıb. Artıq 13,4 hektarda mavigilə bağı salınıb və bağlardan yüksək məhsul əldə olunub.

**Sitrusçuluqda mövcud problemlər barədə Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilk və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran təcrübə bazasının müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru Fərman Abdullayevlə həmsöhbət olduq. Təcrübəli alim fikrlərini bizimlə bölüşdü:**

– Lənkəran bölgəsinin unikal iqlim şəraiti, münbit torpaqları subtropik və sitrus meyvələrinin yetişdirilməsi, onların yeni texnologiyalar əsasında emalı üçün geniş imkanlar açır. Son illər rayonda sitrusçuluq intensiv inkişaf etdirilir. Bununla yanaşı, çətinliklər, problemlər də az deyil. İlk növbədə, xaricdən gətirilən tinglərin rayonlaşdırılmasına, sitrusçuluğun elmi əsalarla inkişaf etdirilməsi məqsədilə müasir tingçilik təsərrüfatının yaradılmasına böyük ehtiyac vardır.

Alim onu da vurğuladı ki, təəssüf ki, sitrus bitkilərinin zərərvericilərdən və xəstəliklərdən qorunması üçün xaricdən gətirilən pestisidlərin keyfiyyəti çox aşağıdır, buna laboratoriya şəratində nəzarət olunmalıdır. Rayondakı soyuducu anbarların mövcud imkanları da tələbatı ödəmir, yeni, daha yüksək tutumlu anbarların tikilib istifadəyə verilməsinə ehtiyac var.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda meyvəçiliyin, o cümlədən sitrusçuluğun müasir innovativ texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi ilə bağlı qarşıya konkret vəzifələr qoyulub. Lənkəranlı fermerlər bu mühüm vəzifələrin öhdəsindən layiqincə gəlmək əzmindədirlər.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Leyla Əliyeva BMT-nin İqlim sessiyasında





## Xəzərin ekoloji durumu müzakirə olunub

**Leyla Əliyevanın təşəbbüsü ilə Almaniyanın Bonn şəhərində "Dənizlərin enən səviyyəsi, çəkilən sahil xətləri, davamlılıq və qapalı su hövzələrinin gələcəyi: Xəzər dənizi nümunəsi" mövzusunda yüksəksəviyyəli panel müzakirələri təşkil olunub. Məclis iyunun 8-dən 16-dək BMT-nin iqlim sessiyası çərçivəsində keçirilib.**

IDEA İctimai Birliyinin, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), COP29 Azərbaycan Sədrliyinin və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) tərəfdaşlığı ilə təşkil olunan tədbirin açılışında çıxış edən Leyla Əliyeva dənizlərin, çayların və göllərin hazırda planetimizin ən həssas ekosistemləri sırasında yer aldığını qeyd edib. O, Xəzər dənizində müşahidə olunan səviyyə enməsi, Xəzər suitiləri və digər canlıların sayında azalma kimi məsələlərə toxunub, bu cür çağırışların həllində bilik, təcrübə və davamlı məsuliyyətə əsaslanan yanaşmanın



tətbiqinin vacibliyini vurğulayıb. IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən su hövzələrinin təmizlənməsi aksiyaları, balıq körpələrinin suya buraxılması və "Bir Damcı" layihəsi kimi təşəbbüslər qeyd olunub, bu cür addımların suya həyat və davamlılıq mənbəyi kimi məsuliyyətli münasibətin formalaşmasına xidmət etdiyi bildirilib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil, COP31-in baş icraçı direktoru, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri nazirinin müavini Fatma Varank və COP30-un baş icraçı direktoru Ana Toni tədbirin rəsmi hissəsində çıxış edərək, Xəzər dənizinin səviyyəsinin enməsi və qapalı su hövzələrinin ekoloji dayanıqlılığı ilə bağlı yaranan çağırışların qlobal iqlim gündəliyində diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayıblar.

Sonra müzakirələr panel sessiyası formatında davam edib. Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, UNEP-in İqlim dəyişikliyi bölməsinin direktoru Martin Krauze, "Great Whale Conservancy" təşkilatının təsisçisi və icraçı direktoru Maykl Fişbax, IDEA İctimai Birliyinin eksperti Elnur Səfərov, Qazaxıstanın Xəzər Dənizi üzrə Elmi-Tədqiqat İnstitutu və Finlandiyanın Oulu Universitetinin tədqiqatçısı Aziza Baubekova və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) SPECA MPTF Fondunun rəhbəri Kəmalə Hüseynli Xəzər dənizində suyun səviyyəsinin enməsinin ekoloji, elmi və sosial-iqtisadi təsirləri ətrafında fikir mübadiləsi aparıblar. Panel müzakirələrinin iştirakçıları bu kimi tədbirlərin elmi bilik və təcrübənin paylaşılması, habelə yeni tərəfdaşlıq imkanlarının yaradılması baxımdan mühüm platforma olduğunu qeyd ediblər.

Tədbir çərçivəsində, həmçinin Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub.

Panel müzakirələri interaktiv sual-cavab sessiyası ilə yekunlaşıb.

## BMT Baş katibinin müavini ilə görüş



**Leyla Əliyeva Almaniyanın Bonn şəhərində BMT-nin Baş katibinin müavini və Səhralaşma ilə mübarizə üzrə Konvensiyasının icraçı katibi Yasmin Fuad ilə görüşüb.**

Görüşdə Azərbaycanda ekologiyanın qorunması, torpaq ehtiyatlarından səmərəli istifadə, eləcə də səhralaşma və quraqlıqla mübarizə üzrə həyata keçirilən tədbirlər barədə məlumat verilib. Eyni zamanda, IDEA İctimai Birliyi tərəfindən ölkəmizdə və regionda ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması və ekoloji dayanıqlılığın təşviqi istiqamətində icra olunan layihə və təşəbbüslər müzakirə olunub. Həyata keçirilən ağacəkmə aksiyalarının, yaşıllıq sahələrinin artırılmasının, mövcud meşə və ağac resurslarının qorunmasının iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, torpaq deqradasiyasının qarşısının alınması və ekoloji tarazlığın qorunması baxımdan əhəmiyyəti xüsusi vurğulanıb.

Daha sonra Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və sosial-iqtisadi təzahürləri ilə bağlı fikir mübadiləsi aparılıb. Bu xüsusda Xəzər dənizində baş verən dəyişikliklərin sahilyanı ekosistemlərə, biomüxtəlifliyə və regionun ekoloji təhlükəsizliyinə mümkün təsirlərinə toxunulub. Məsələnin daha dərindən araşdırılması, həmçinin mümkün birgə həll yollarının müəyyənləşdirilməsi istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşdə, həmçinin quraqlıq və səhralaşma kimi proseslərin vaxtında qarşısının alınmasının əhəmiyyəti, eləcə də IDEA İctimai Birliyi ilə UNCCD-nin ətraf mühitin mühafizəsi, quraqlığın və torpaq deqradasiyasının qarşısının alınması və ekoloji maarifləndirmə sahələrində mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

## İqlim Dəyişikliyi üzrə icraçı katiblə görüş

**Leyla Əliyeva Almaniyanın Bonn şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə də görüş keçirib.**

Görüşdə Azərbaycanın ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması və ekoloji dayanıqlılığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Bu xüsusda, həmçinin IDEA İctimai Birliyinin sözügedən sahələr üzrə layihə və təşəbbüsləri, o cümlədən biomüxtəlifliyin zənginləşdirilməsi, ətraf mühitlə bağlı maarifləndirmə tədbirləri, eləcə də nadir fauna növlərinin qorunması və ekosistemlərin bərpasına yönələn fəaliyyətləri diqqətə çatdırılıb. Eyni zamanda, mühafizə olunan təbiət ərazilərinin sahəsinin genişləndirilməsinin əhəmiyyəti və iqlim dəyişikliklərinin təsirlərinin azaldılmasında rolu qeyd olunub.





Söhbət zamanı Xəzər dənizinin səviyyəsinin enməsinin səbəblərinin, bu prosesin ekoloji və sosial-iqtisadi təsirlərinin birgə öyrənilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda problemin qlobal iqlim gündəliyində daha geniş yer almasının vacibliyi vurğulanıb.

Bundan əlavə, gənclərin ekoloji məsuliyyətinin artırılması, eləcə də ətraf mühit və iqlim dəyişiklikləri ilə bağlı biliklərinin genişləndirilməsi məqsədilə UNFCCC ilə birgə ortaq təşəbbüslərin həyata keçirilməsi imkanları müzakirə olunub.

*XQ*

# Baş prokurorun Naxçıvanda vətəndaş qəbulu



**İyunun 16-da Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 26 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*XQ*

# Baş Prokurorluğun heyəti Qarsda



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi, tərkibinə Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev və Naxçıvan hərbi prokuroru Aqil Axundovun da olduğu nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün dəvəti ilə iyunun 15-də qardaş ölkənin Qars şəhərinə rəsmi səfər edib.**

Qars Baş Prokurorluğunda Kamran Əliyevlə türkiyəli həmkarı Muhsin Şentürk arasında baş tutan görüş zamanı qeyd edilib ki, iki dövlət arasında strateji münasibətlər hüquq-mühafizə orqanları arasında əməkdaşlığın da dinamik inkişafına müsbət təsirini göstərir.

Kamran Əliyev qeyd edib ki, hazırkı səfərin əsas məqsədi sərhədyanı bölgələrin prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsidir. Bu transmilli xarakter daşıyan cinayətlərə qarşı mübarizənin səmərəliliyinin artırılmasına töhfə verməklə yanaşı, sərhəd regionlarında yaşayan vətəndaşlarının rastlaşdıqları hüquqi çətinliklərin operativ şəkildə aradan qaldırmasına da xidmət etmiş olur.

Muhsin Şentürk Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verildiyini qeyd edərək cari ilin aprel ayında Bakı şəhərinə etdiyi səfəri məmnunluqla xatırlanıb, keçirilmiş görüşlərin ikitərəfli əlaqələrin inkişafında xüsusu rol oynadığını bildirib.

*XQ*

# Astanada Ortaq Türk Əlifbası müzakirəsi



**Astanada Türk Akademiyası, Türk Dilçilik Birliyi ilə əməkdaşlıq çərçivəsində Ortaq Türk Əlifbası Komissiyasının dördüncü iclası keçirilib.**

İclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan mütəxəssislər iştirak ediblər.

Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev qeyd edib ki, ötən müddət ərzində akademik ictimaiyyətdə, təhsil müəssisələrində və ictimai sahədə Ortaq Türk Əlifbasına marağın xeyli artdığı müşahidə olunub. O deyib: "Hazırkı mərhələdə onun istifadəsinə vahid yanaşmaların razılaşdırılması və praktik tətbiqinin əsas prinsiplərinin yekunlaşdırılması xüsusilə aktuallaşıb. Ortaq Türk Əlifbasının populyarlaşdırılması üçün Türk Akademiyası bir sıra nəşrlər hazırlayıb. 2025-ci ildə Abayın qazax dilində "Qara Sözder" kitabı və Çingiz Aytmatovun qırğız dilində "Aq Kəmə" əsəri ilk dəfə olaraq nəşr olunub".

Görüşün əsas mövzusu türk dilləri üçün Ortaq Türk Əlifbasının tətbiqi ilə bağlı tövsiyələrin müzakirəsi, eləcə də onun praktik tətbiqi prinsipləri və mexanizmləri barədə razılaşma olub.

Vurğulanıb ki, Türk Akademiyası hazırlanmış qaydaları müvafiq milli qurumlara, dil təşkilatlarına və tərəfdaş strukturlara göndərəcək. Lakin onların tətbiqi məsələləri hər bir dövlətin orqanlarının səlahiyyətində qalır və onların milli qanunvericiliyə uyğun olaraq nəzərdən keçirilir. Görüşün yekununda Ortaq Türk Əlifbasının daha da geniş tətbiqinə dəstəyi təsdiqləyən Bəyannamə imzalanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Astana**

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib

**İyunun 16-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**



Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Sədrlik edən xatırladıb ki, ötən məhkəmə iclasında müdafiə çıxışına hazırlaşmaq istəyənlərə vaxt verilib.

O, müdafiə tərəfindən çıxışlara hazır olub-olmadığını soruşub. Müdafiə tərəfi çıxışlara hazır olduğunu bildirib. Sədrlik edən qeyd edib ki, müdafiə çıxışları apellyasiya şikayətlərinin daxil olması ardıcıllığı ilə davam etdiriləcək.

Təqsirləndirilən Davit İşxanyan söz alaraq müdafiəçisi ilə konfidensial qaydada görüşmək istədiyini bildirib. Onun vəsatəti təmin edilib.

Məhkəmədə elan olunan fasilə zamanı D.İşxanyan müdafiəçisi ilə konfidensial qaydada görüşüb. Fasilədə o, həmçinin tərcüməçinin iştirakı ilə 26 may tarixli məhkəmə iclasının protokolu ilə tanış olub.

Sonra müdafiə çıxışı üçün söz təqsirləndirilən Levon Mnatsakanyanın vəkilinə verilib. Vəkil çıxışında L.Mnatsakanyan barəsində bəraətverici əsaslarla qərar çıxarılmasını məhkəmədən xahiş edib.

Ardınca L.Mnatsakanyan çıxış edib. Təqsirləndirilən şəxs vəkilinin söylədiklərini müdafiə etdiyini deyərək, öz arqumentlərini səsləndirib.

Məhkəmənin növbəti iclası iyunun 23-də keçiriləcək.

*XQ*

*17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür*

# Sağlam dünyamızın keşikçiləri

## *Azərbaycan dövləti milli səhiyyənin davamlı inkişafını təmin edir*

**Həyatın təhlükədə olduğu anlarda insanın ilk üz tutduğu, axtardığı tibb işçiləridir. Gecənin hansı saatı olmasından, günün nə qədər çətin keçməsindən asılı olmayaraq, onlar hər zaman insanların sağlamlığı keşiyində dayanıblar.**

Azərbaycan səhiyyəsinin bu missiyası tibb işçilərinin cəmiyyət həyatındakı əvəzsiz yeri həmişə məmnunluq doğurur, qədirbilənliklə qeyd edilir. Ümummilli lider Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən, hər il 17 iyun ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı kimi qeyd edilir, xalqımızın səhiyyə ordusuna dərin ehtiramı və minnətdarlığı ucadan səslənir.




**İlkin HƏŞİMOV,**
**Abşeron Rayon Mərkəzi Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri, uzman həkim:**

– Son illər ölkəmizdə səhiyyə sahəsində ciddi irəliləyişlər müşahidə olunur. Yeni müasir xəstəxanaların inşası, tibbi avadanlıqların yenilənməsi və diaqnostik imkanların genişləndirilməsi tibbi xidmətin keyfiyyətinə müsbət təsir göstərir. Bununla yanaşı, həkimlərin xarici ölkələrdə təcrübə qazanması və ixtisaslarını artırması üçün yaradılan şərait də mühüm rol oynayır. Bütün bu addımlar səhiyyə sisteminin daha peşəkar və çevik işləməsinə imkan yaradır. Tibb İşçilərinin Peşə Bayramının qeyd edilməsi səhiyyə sahəsində çalışan insanların zəhmətinin qiymətləndirilməsi və onların fədakarlığına verilən yüksək dəyərin göstəricisidir.

Hər bir cərrahın yaddaşında silinməz iz buraxan xəstələri olur. Mənim üçün də ən unudulmaz anlardan biri ağır vəziyyətdə, ümidsiz halda qəbul etdiyim 20 yaşlı xəstənin uğurlu əməliyyatdan sonra tam sağalaraq həyata qayıtmasıdır. Həmin anda xəstənin və onun yaxınlarının sevincini görmək peşəmizin nə qədər məsuliyyətli, eyni zamanda, dəyərli olduğunu bir daha göstərir. Hər uğurlu əməliyyat, sağalan xəstə mənim üçün ən böyük motivasiyadır.



**Samir CAVADLI,**
**ATU-nun kafedra müdiri, dosent:**

– Səhiyyə sahəsində baş verən dəyişikliklər, rəqəmsallaşma və təhsil prosesində yeni yanaşmaların tətbiqi praktik tibbi fəaliyyəti, kadr hazırlığını sistemli və effektiv hala gətirib. Müasir texnologiyalar işimizi sürətləndirməklə yanaşı, qərarvermə prosesində də dəqiqliyi artırır. Məlumatların operativ əldə olunması və tədrisin daha interaktiv formada aparılması həm həkimlər, həm də tələbələr üçün böyük üstünlüklər yaradır. Yaxşı həkimi fərqləndirən əsas xüsusiyyət doğru anda düzgün qərar qəbul etmək və xəstəyə güvən hissi verə bilmək bacarığıdır.

Peşə fəaliyyətimdə əsaslandığım dəyərlər məsuliyyət, dürüstlük və insanlara hörmətdir. Ən vacib məqam isə daim öyrənmək və hər xəstəyə fərdi yanaşmaqdır. İş həyatımda ən yaddaqalan anlarından biri tələbələrimin ilk dəfə real klinik vəziyyətdə öz qərarlarını verib uğurlu nəticə əldə etmələrini izləmək olub. Bir daha əmin oldum ki, doğru istiqamət vermək bəzən birbaşa müalicə qədər dəyərlidir.



**Sevil NURİYEVA,**
**oftolmoloq:**

– Tibb İşçilərinin Peşə Bayramı fədakar həkimlərin əməyinə verilən dəyərin ifadəsidir. Xəstələrin əməliyyatdan sonra gözlərinə nur gəlməsinin sevincini yaşamaq ən böyük mənəvi qazancdır.

Kollektivdə qarşılıqlı etimad, yüksək peşəkarlıq, birlik və həmrəylik tibbi xidmətin keyfiyyətinə, əməkdaşların daha səmərəli fəaliyyətinə müsbət təsir göstərir.

Mənim həkim kimi uğur qazanmağımda atamın çox böyük rolu olub. O, həkim-radioloq kimi ömrünü tibbə həsr edib və böyük hörmət qazanıb, insanlara göstərdiyi qayğı, peşəsinə sədaqət və yorulmaz fəaliyyəti isə mənim üçün örnəkdir.



**Rəhilə MİRCAVADLI,**
**ATU-nun müəllimi:**

– Müasir texnologiyalar klinik və pedaqoji fəaliyyətdə mühüm rol oynayır. Onlar daha dəqiq klinik qərarların verilməsinə, diaqnozların düzgün qoyulmasına, tədris prosesində tələbələrin bilik və bacarıqlarının daha effektiv formalaşmasına imkan yaradır.

Peşə fəaliyyətimdə əsas dəyərlər hər bir xəstəyə, tələbəyə hörmət və diqqətlə yanaşmaqdır. Tibb işçilərinin peşə bayramı seçdiyimiz peşənin məsuliyyətini, dəyərini və cəmiyyət qarşısında daşıdığımız məsuliyyəti xatırladır.

Klinik təcrübəmdə unudulmaz anlardan biri diaqnozu son dərəcə mürəkkəb olan bir pasiyentin multidissiplinar komandanın birgə və gərgin işi nəticəsində sağalmasıdır. Həmin gün pasiyentin sevinc göz yaşları və səmimi təşəkkürü mənə bu peşənin nə qədər məsuliyyətli, nə qədər vacib olduğunu bir daha hiss etdirdi.



**Rübabə QULİYEVA,**
**2 nömrəli Bakı Baza Tibb Kollecinin müəllimi:**

– Xəstəxana şəraitində pasiyentlə ən çox ünsiyyətdə olan məhz tibb bacısıdır və buna görə də onun davranışı müalicə prosesinə birbaşa təsir göstərir. O, həkimin təyin etdiyi dərmanların vaxtında qəbul olunmasına nəzarət edir, inyeksiya, sarğı və digər tibbi prosedurları yerinə yetirir. Bununla yanaşı, tibb bacısı xəstələrin gigiyenik qulluğunu təşkil edir, tibbi sənədləşməni aparır və təcili hallarda ilkin tibbi yardım göstərir.

Tibb işçilərinin fəaliyyəti peşə öhdəliyi, həm də humanist dəyərlərin təcəssümüdür. Onların gündəlik fədakarlığı sayəsində minlərlə insan sağlamlığına qovuşur, cəmiyyət isə daha güclü və dayanıqlı olur.

***Ləman TƏHMƏZ***
***XQ***

# Sumqayıtın nur ocağı

## *Yeni Göz Mərkəzi ölkənin nümunəvi klinikalarından biridir*





**Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Prezident İlham Əliyev 2023-cü ilin oktyabrında Sumqayıtda fəaliyyət göstərən 2 nömrəli Şəhər Xəstəxanasının yenidənqurmadan sonra açılışında şəxsən iştirak edərək tibb ocağının fəaliyyətinə xeyir-dua vermiş, burada xidmətin əhatə dairəsinin daha da genişləndirilməsini tövsiyə etmişdi. Budur, artıq 2 aydır ki, çoxprofilli tibb ocağında yeni Göz Mərkəzi də fəaliyyətə başlayıb.**

Dünən gözlərinin peşəkar müayinəsinə ehtiyacı olan dostumla oraya getmişdim. Qarşılanma, personalın səmimi davranışları, xidmətin yüksək səviyyəsi müasir avadanlıqlarla təchiz edilmiş xəstəxananın səliqə-sahmanını, dörd yanının gözəlliyini layiqincə tamamlayırdı. Tibb ocağının baş həkimi Arzu Bəndəliyeva ilə söhbətimizdə bir daha əmin olduq ki, Hippokrat andına sadiq heyətin ən ümdə məqsədi əhalinin sağlamlığının qorunması, xəstələrin hərtərəfli tibbi xidmətlərlə əhatə olunmasıdır.

Göz Mərkəzinin növbəti uğurlu əmliyyatdan yenicə çıxmış rəhbəri – cərrah-oftalmolq Leyla Qəhrəmanova bizə göstərilən xidmətlər barədə məlumat verərək bildirdi ki, Mərkəz Sumqayıt şəhəri ilə yanaşı, Abşeron–Xızı regionu üzrə əhaliyə geniş spektrdə oftalmoloji xidmətlər təqdim edir. Bura dünyanın aparıcı istehsalçılarının müasir tibbi avadanlıqları ilə, o cümlədən OCT Angio, optik biometriya sistemləri və yüksək dəqiqlikli diaqnostika avadanlıqları ilə təchiz olunub. Eyni zamanda, son dərəcə dəqiq fakoemulsifikasiya cərrahiyyə sistemləri və müasir əməliyyat mikroskopları quraşdırılıb.

Dostumda hansı retina damar patologiyaların olmasının aşkarlanması üçün onu mərkəzdə quraşdırılan angioqrafiya sistemi ilə müayinə etdilər. Həkim dedi ki, bu vasitə bir çox hallarda görmənin qorunmasında həlledici rol oynayır. Burada oftalmoloji xəstəliklərin müasir standartlara uyğun diaqnostikası, müalicəsi və yüksək texnologiya tələb edən mürəkkəb cərrahi prosedurların icrası mümkün olacaq. Mərkəzdə tor qişa xəstəlikləri, katarakta, qlaukoma, diabetik retinopatiya, makula patologiyaları və refraktiv qüsurlar üzrə geniş çeşiddə xidmətlərin göstərilməsi nəzərdə tutulur.

Mərkəzdə xaricdə təhsil almış və beynəlxalq təcrübəyə malik peşəkar həkimlər fəaliyyət göstərir. Leyla Qəhrəmanova özü 10 il Səudiyyə Ərəbistanında çalışıb, tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi var. Onun rəhbərliyi ilə 12-si həkim olmaqla, ümumilikdə, 35 nəfər tibb və qeyri-tibb işçisi vətəndaşlara müasir tibbi yanaşmalar əsasında ambulator və stasionar xidmətlər göstərir.

Onu da deyim ki, mərkəzdə bir şox vətəndaşlar kimi, dostum da icbari tibbi sığortanın "Xidmətlər Zərfi" çərçivəsində ödənişsiz əsaslarla xidmət göstərilməsindən məmnun qaldı və oftalmoloqun məsləhətlərinə sözsüz əməl edəcəyini bildirdi.

Söhbət etdiyimiz xəstələr yeni Göz Mərkəzinin istifadəyə verilməsini regionda oftalmoloji müayinə və müalicələrin əlçatanlığını əhəmiyyətli dərəcədə artırdığını, paytaxta üz tutmadan yüksək keyfiyyətli və mürəkkəb tibbi xidmətlərdən yararlandıqlarını söylədilər.

Xoş təəssüratla ayrıldığımız 2 nömrəli Şəhər Xəstəxananın və oradakı yeni Göz Mərkəzinin kollektivini peşə bayramı münasibətilə təbrik edir, "Hər zaman əliniz yüngül olsun!" – deyirik.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycanda Barbekü Festivalı





**Şamaxının Meysəri kəndində iyunun 13-14-ü keçirilən Beynəlxalq Barbekü Festivalı başa çatıb. İki gün davam edən festival Şamaxı Rayon İcra Hakimiyyəti, Nəsimi Bağları Kompleksi və "Abqora" restoranının dəstəyi, "Azərsun Holdinq", "Coca-Cola Azərbaycan"ın baş sponsorluğu, "Azərbaycan Hava Yolları" QSC, "Premium Meat", "Baku Medical Plaza"nın rəsmi tərəfdaşlığı ilə təşkil olunub.**

Festivalda dünyanın müxtəlif ölkələrini təmsil edən tanınmış şef-aşpazlar iştirak ediblər. Onların zəngin təcrübəsi, fərqli kulinariya ənənələri və təqdim etdikləri ləziz təamlar tədbirə xüsusi rəng qatıb. Bu cür festivallar qonaqlara xoş anlar bəxş etməklə yanaşı, ölkəmizin qonaqpərvərliyini bir daha nümayiş etdirir. Layihə mədəni mübadilə və qastronomik turizmin genişləndirilməsinə yönəlib.

İki gün ərzində kulinariya zonalarında əyləncəli yarışmalar keçirilib, iştirakçılar müxtəlif ölkə mətbəxləri və restoranların təqdim etdikləri təamları dadıblar.

Sonda tədbirin baş sponsorları, tərəfdaşları və layihəyə dəstək göstərən qurumlara, o cümlədən səmərəli əməkdaşlıq edən restoran və şirkətlərə sertifikatlar təqdim olunub.

***XQ***

# Türkiyədə Milli Qurtuluş Günü şənliyi



**Türkiyənin Merzifon şəhərində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Azərbaycan incəsənətinə baxış" adlı konsert proqramı təşkil olunub.**

Şəhərin mərkəzində, tarixi hissədə yerləşən Taşhan Karvansaray Kompleksinin həyətində açıq havada keçirilən şənlik böyük maraqla qarşılanıb. İştirakçılara Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycanın qurucusu kimi tarixi xidmətlərinə və müasir Azərbaycanın nailiyyətlərinə həsr olunmuş fotosərgi də təqdim edilib.

Təntənəli mərasimdə Merzifon Bələdiyyəsinin rəhbəri Alp Karqı Azərbaycan ilə Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən danışıb. Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov xalqımızın müstəqillik tarixində dönüş nöqtəsi olan 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyətindən bəhs edib.

Çıxış edənlər Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi zəngin irsdən danışıblar. Onlar milli musiqimizin, muğam sənətinin, aşıq yaradıcılığının, opera sənətinin, folklorumuzun və milli rəqslərimizin dünyada böyük şöhrət qazandığını qeyd ediblər.

Məclis musiqili-bədii hissə ilə davam edib, çal-çağır dostluq və qardaşlıq duyğularını təcəssüm etdirib.

***XQ***

# Prostat xərçəngi mövzusunda elmi simpozium

**Dövlət Təhlükəsizliyi Xidməti Hərbi Tibb Baş İdarəsinin (HTBİ) Elmi Təcrübə Mərkəzində "Prostat xərçənginin diaqnostikasında MR-Fusion prostat biopsiyası" texnologiyasının tətbiqinin müasir aspektlərinə həsr olunmuş elmi simpozium keçirilib.**

Mərasim Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Hərbi Tibb Baş İdarəsi ilə Azərbaycan Tibb Universiteti arasında imzalanmış memorandum əsasında təşkil olunub.

Simpoziuma DTX HTBİ Elmi Təcrübə Mərkəzinin rəisi, Azərbaycan Respublikası Urologiya, Nefrologiya və Böyrək Transplantasiyası sahəsində Mütəxəssislər Assosiasiyası İdarə Heyətinin sədri, tibb elmləri doktoru Rəşad Şolan və Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, Radiologiya kafedrasının müdiri, professor, tibb elmləri doktoru Məlahət Sultan həmsədrlik ediblər.

Simpoziumda ölkəmizdə ilk dəfə məhz DTX HTBİ-də tətbiq olunan MR-Fusion texnologiyasının prostat xəstəliklərinin diaqnostikasındakı rolundan bəhs olunub. Çıxışlarda metodun klinik təcrübəyə gətirdiyi üstünlüklər, ilk nəticələr və gələcək inkişaf istiqamətləri müzakirə edilib.

Mərasimdə tibb elməri doktoru Rəşad Şolanın, professor Səbinə Şadlinskayanın, dosent Mətanət Pənahovanın, tibb üzrə fəlsəfə doktorları İldırım Babayev və Mahmud Bağırzadənin, eləcə də Dr. Seymur Kərimovun məruzələri böyük maraqla qarşılanıb.

Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev, professorlar İlham Əhmədov, Akif Bağırov, dosent Elçin Əfəndiyev və Milli Onkologiya Mərkəzinin direktor müavini, tibb elmləri doktoru Fuad Quliyev məruzələr ətrafında maraqlı diskussiyalar aparıblar.

Simpozium ölkəmizdə prostat xərçənginin diaqnostikasında müasir texnologiyaların tətbiqi və mütəxəssislər arasında təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət daşıyıb. Dövlət Təhlükəsizliyi Xidməti Hərbi Tibb Baş İdarəsi ilə Azərbaycan Tibb Universiteti arasındakı elmi əməkdaşlığın bu istiqamətdə davam etdirilməsi nəzərdə tutulur.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 104 (31073) 17 iyun 2026-cı il, çərşənbə




## İDMAN

### Güləş Federasiyasında yeni komitə



**Azərbaycan Güləş Federasiyasında (AGF) Güləş İrsi və İcması Komitəsi yaradılıb.**

AGF-nin baş katibi Pərvin Piriyevin rəhbərliyi ilə baş tutan ilk iclasda təşkilati məsələlərə baxılıb. Qərara əsasən, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Elçin Cəfərov Komitənin sədri, AGF-nin baş katibinin müavini Aydan Məmmədhəsənova isə Komitənin katibi seçilib.

Komitənin tərkibində AGF-nin Nümayəndəliklərlə İş şöbəsinin müdiri Elfaq Səfərov, İdman şöbəsinin mütəxəssisi Yaqub Məmmədov, Əməkdar bədən tərbiyəsi və idman Xadimi Vahid Məmmədov və sərbəst güləş üzrə milli komandanın məşqçisi Arif Abdullayev üzv qismində təmsil olunurlar.

İclas zamanı Komitənin fəaliyyət planı müzakirə olunaraq təsdiqlənib. Fəaliyyət planına güləş üzrə veteranların müəyyənləşdirilməsi meyarlarının hazırlanması, onlara göstərilən diqqət və qayğının artırılması, eləcə də güləş irsinin qorunması və gələcək nəsillərə ötürülməsinə xidmət edən təşəbbüslər daxil edilib.

### Bakı kamandan oxatma kuboku

**Azərbaycan Kamandan Oxatma Federasiyası və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə cari mövsümün ən gərgin idman hadisələrindən biri – kamandan oxatma üzrə Bakı Şəhər Kubokunun II mərhələsi keçiriləcək.**




Yarış 26-28 iyun tarixlərində Hövsan Olimpiya İdman Kompleksinin stadionunda baş tutacaq. Federasiyadan verilən məlumata görə, paytaxtın güclü oxatanları iki kateqoriya üzrə hədəf qarşısına keçərək kubok uğrunda mübarizə aparacaqlar. Yarışın reqlamentinə əsasən, U15 kateqoriyalı idmançılar 40 metr, böyüklər isə 70 metr məsafədən hədəfi nişan alacaqlar. Olimpiya sistemi əsasında idarə ediləcək qarşılaşmalarda fərqlənən idmançılar müvafiq dərəcəli diplom və medallarla təltif olunacaq. Rəsmi proqrama əsasən, iyunun 26-da oxatanların sınaq və hazırlıq atışları, həmçinin U15 kateqoriyası üzrə əsas yarışlar təşkil olunacaq. İyunun 27-də böyüklər kateqoriyasında çıxış edən idmançıların əsas yarış mərhələləri reallaşacaq. Rəqabətin sonuncu günü, yəni iyunun 28-də isə qaliblərin adlarını müəyyən edəcək həlledici final görüşləri və idmançıların mükafatlandırma mərasimi keçiriləcək.

### Çində stolüstü məşq toplanışı



**Stolüstü tennisçi Onur Quluzadə növbəti beynəlxalq təlim-məşq toplanışında iştirak edəcək.**

Seçmə komandanın üzvü baş məşqçi Mixail Timofeyevin rəhbərliyi ilə iyunun 16-dən iyulun 4-dək Çin Xalq Respublikasının Hebey əyalətinin Şiszyaçjuan şəhərində yerləşən “Zhenq Dinq” təlim-məşq bazasında hazırlıq keçəcək. Bu mərkəz Çinin stolüstü tennis üzrə milli komandalarının əsas bazalarından hesab olunur.

Qeyd edək ki, təlim-məşq toplanışı qarşıdakı beynəlxalq yarışlara hazırlıq məqsədi daşıyır.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Dünya çempionatı – 2026*

# Böyük futbolun 2-5-ci günləri

**İyunun 11-də start götürən ABŞ, Kanada və Meksikada təşkil olunan DÇ–2026 futbol tarixinə ən böyük və genişmiqyaslı mundial kimi düşür. Bu möhtəşəm turnir 3 ölkədə, 16 şəhərdə və rekord sayda – 48 komandanın iştirakı ilə keçirilir.**



Turnirin 2-ci günündə ev sahiblərindən biri olan ABŞ millisi, Los-Ancelesdəki SoFi stadionunda azarkeşləri önündə möhtəşəm oyun nümayiş etdirərək Paraqvay üzərində 4:1 hesabı ilə inamlı qələbə qazanıb. Görüşün 7-ci dəqiqəsində Damyan Bobadilya (Paraqvay) öz qapısına, 31-ci və 45+4-cü dəqiqələrində Folarin Baloqan (ABŞ), 73-cü dəqiqədə Maurisio Prado (Paraqvay) və 90+8-ci dəqiqədə Covanni Reyna (ABŞ) fərqləndilər. Paraqvay üzərində qazanılan bu inamlı qələbə turnirin ən çox izlənilən matçlarından biri olub. ABŞ komandası hücum xəttindəki effektivliyi ilə qrup liderliyinə iddialı olduğunu sübut edib.

Digər ev sahibi Kanada Torontoda öz tarixinin ilk ev mundialı matçına çıxıb. Bosniya təmsilçisi Yovo Lukiç matçın 21-ci dəqiqəsində hesabı açsa da, kanadalıların ulduz hücumçusu Kayl Larin 78-ci dəqiqədə bərabərlik qolunu vuraraq komandasını məğlubiyyətdən xilas edib – 1:1.

Günün 3-cü oyunu haqda isə Cənubi Koreya–Çexiya (2:1) qəzetimizin ötən nömrəsində geniş şərh vermişik.

Mundialın 3-cü günü B, C və D qruplarında oyunlar daha çox taktiki mübarizə və gözlənilməz xal itkiləri ilə yadda qalıb. Belə ki, 24 il sonra dünya çempionatına qayıdan Türkiyə millisi turnirə məğlubiyyətlə başlayıb. D qrupunda qarşılaşma Avstraliya millisinin qələbəsi ilə yekunlaşıb – 2:0.

C qrupunda Braziliya Mərakeş oyununda tərəflər hərəyə bir dəfə fərqləniblər –1:1.Vinisius Juniorun səylərinə rəğmən Braziliya son dərəcə nizamlı müdafiə olunan Mərakeş səddini tam yara bilməyib.

Bu qrupda şotlandlar 28 illik DÇ həsrətinə Haitini minimal hesabla məğlub edərək başlayıblar–1:0.

B qrupunda Qətər İsveçrə ilə heç-heçə edib. Asiya çempionu Qətər avropalılardan xal almağı bacarıb–1:1.

Turnirin 4-cü günü – E və F qruplarının oyunlarının keçirildiyi gündə azarkeşlər əsl qol yağışının şahidi olublar. Almaniya və İsveç millilələri rəqiblərinə aman verməyiblər. E qrupunda 4 qat dünya çempionu Almaniya, turnirin debütantı Kürasaonu darmadağın edib–7:1. Kürasaonun vurduğu təsəlli qolu ölkə tarixinə ilk DÇ qolu kimi düşüb.

F qrupunda İsveç millisi də turnirə olduqca dinamik və inamla başlayaraq Tunisi böyük hesabla məğlub ediblər – 5:1.

Həmin qrupda günün ən gərgin oyununda Yaponiya son dəqiqələrdə vurduğu qolla Niderlanddan 1 xal qoparmağı bacarıb – 2:2.

E qrupunda Fil Dişi Sahili Ekvadorla qarşılaşıb. Amad Diallonun 90-cı dəqiqədə vurduğu dramatik qol afrikalılara vacib 3 xal qazandırıb.

Mundialın 5-ci günündə G və H qruplarında mübarizəyə start verilib və günün ən böyük sürprizinə turnirin debütantı olan Kabo-Verde imza atıb. Maraqlıdır ki, həmin gün keçirilən bütün matçlar bərabərliklə başa çatıb.

H qrupunda mübarizə aparan İspaniya Kabo-Verde qarşılaşması qolsuz bərabərliklə başa çatıb. İspanlar oyun ərzində rəqib komandaya top göstərməsələr də, istəklərinə çata bilməyiblər. Turnirin əsas favoritlərindən sayılan ispanlar Kabo-Verdenin qapıçısı Vozinyanın möhtəşəm oyunu sayəsində 1 xalla kifayətləniblər.

Həmin qrupda Səudiyyə Ərəbistanı – Uruqvay matçında da eyni nəticə qeydə alınıb – 1:1. Cənubi Amerika təmsilçisi Uruqvay ərəblərin ciddi müqaviməti ilə rastlaşıb.

G qrupunda Belçika – Misir görüşü də heç-heçə başa çatıb–1:1. Avropa nəhəngi Afrika təmsilçisi qarşısında üstünlüyünü qoruya bilməyib.

Yenə həmin qrupda İran Yeni Zelandiya oyunu heç-heçə başa çatıb–2:2. Yeni Zelandiya iki dəfə hesabda önə keçsə də, İran əzmkarlıq nümayiş etdirərək bərabərliyə nail olub.

Dünən gecə I qrupda saat 23:00-da Fransa – Seneqal, bu gün saat 2:00-da İraq – Norveç, J qrupunda isə 5:00-da Argentina – Əlcəzair qarşılaşmaları keçirilib.

***Q.YUSİFOĞLU***
***XQ***

## HAVA

### Aranda yağmursuz, dağlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 19-22, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-60 faiz təşkil edəcək.**



Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün ikinci yarısında bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 19-22, gündüz 30-35, dağlarda gecə 7-12, gündüz 16-20, bəzi yerlərdə 23-28 dərəcə isti olacağı ehtimal edilir.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi görkəmli dövlət xadimi, diplomat və yazıçı

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli görkəmli yazıçı-dramaturq və diplomat

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi görkəmli dövlət xadimi, diplomat və yazıçı

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qərbi Azərbaycanın Nüvədi kəndindən İsmayıl və Fikrət Əliyevlər ailələri ilə birlikdə əziz

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Vüsalə Şıxəliyevaya atası

**FƏTTAH HƏŞİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Professor Nadir Məmmədli, dosent Təranə Aslanova, Sevda Səlimova, Bahirə Feyzullayeva və Sara Cavadova tələbə yoldaşları, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli dövlət xadimi, diplomat və yazıçı

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov Azərbaycanın görkəmli dövlət xadimi, diplomat və yazıçı

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi təsərrüfat şöbəsinin baş mütəxəssisi Mirkazım Abdullayevə anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3178
SİFARİŞ 729
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00